

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


# iki sahil

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 76 (7812) / Cümə, 30 aprel 2021-ci il




## İkinci Dünya müharibəsinin iştirakçılarına birdəfəlik maddi yardım veriləcək

⇨ BAX: SƏH. 2

⇧ BAX: SƏH. 4



HAFİZ PAŞAYEV - 80

## Tarixi şəxsiyyətə hörmət və ehtiramla

⇧ BAX: SƏH. 5



## Əli Nağıyev Gürcüstanda rəsmi səfərdə olub



## XİN-də struktur dəyişikliyi olub, nazir müavininin səlahiyyətləri artırılıb

⇨ BAX: SƏH. 6

## "Heydər Əliyev irsi və milli-mənəvi dəyərlər"

⇧ BAX: SƏH. 7



## ŞƏMKİR RAYON İCRA HAKİMİYYƏTİNİN SABİQ BAŞÇISI ALİMPAŞA MƏMMƏDOV MƏHKƏMƏ QƏRARI İLƏ HƏBS OLUNUB

⇧ BAX: SƏH. 7





*Çavuşoğlu:*

## Bizə tarix dərsi verməyə çalışanların ASALA terroruna göz yummaları ikiüzlülükdür

⇨ BAX: SƏH. 5



## "YAŞAT" Fonduna 36 milyon manatdan çox vəsait toplanıb

⇨ BAX: SƏH. 9



## Mikayıl Cabbarov İsraildəki ticarət və turizm nümayəndəliklərinin məqsədini açıqladı

⇨ BAX: SƏH. 5



*Sahil Babayev:*

## 405 qaziyə əlillik təyinatı aparılıb

⇨ BAX: SƏH. 5


13 Saxlanılan şöbə müdiri ilə bağlı BSU-dan AÇIQLAMA

14 Yerevanda Mahatma Qandinin heykəlini niyə yandırıblar?

24 Qanda xolesterol artıqlığını göstərən yeganə əlamət

## HAFİZ PAŞAYEV 1-ci DƏRƏCƏLİ "VƏTƏNƏ XİDMƏTƏ GÖRƏ" ORDENİ İLƏ TƏLTİF EDİLİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasında təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Hafiz Mir Cəlal oğlu Paşayev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

## AĞSUYA YENİ İCRA BAŞÇISI TƏYİN OLUNUB



Rövşən Elmidar oğlu Bağırov Lerik Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

"İki sahil"in məlumatına görə, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Dövlət başçısının digər sərəncamı ilə Rövşən Bağırov Ağsu Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.



## MÜBARİZ ƏSGƏROV MİLLİ TELEVİZİYA VƏ RADİO ŞURASININ ÜZVÜ TƏYİN EDİLİB

Mübariz Ağali oğlu Əsgərov 6 il müddətinə Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının üzvü təyin edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

# İkinci Dünya müharibəsinin iştirakçılarına birdəfəlik maddi yardım veriləcək



Aprelin 29-da Prezident İlham Əliyev "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalayıb.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Sərəncama əsasən, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bununla əlaqədar, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondundan 4,8 milyon manat vəsait ayrılacaq. Maliyyə Nazirliyi həmin vəsaitin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın isə bu Sərəncamda nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etməlidir.

# Prezidentin Sərəncamı İkinci Dünya müharibəsi iştirakçıları və sənəddə nəzərdə tutulan digər şəxslərdən ibarət 6083 nəfərə şamil olunacaq

**Prezident İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2021-ci il aprelin 29-da imzaladığı Sərəncam həmin kateqoriyadan olan vətəndaşlara göstərilən yüksək diqqət və qayğının növbəti nümunəsidir.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "İki sahil"ə verilən məlumata görə, Sərəncama əsasən, 1941-1945-ci illər İkinci Dünya müharibəsində Qələbənin 76-cı ildönümü ilə əlaqədar həmin müharibədə iştirak etmiş şəxslərə 1500 manat məbləğində birdəfəlik maddi yardım ödəniləcək.

Həmçinin İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Sərəncam ümumilikdə 6083 nəfərə şamil olunacaq. Onlardan 181 nəfəri İkinci Dünya müharibəsi iştirakçısı, qalanları İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş, habelə sənəddə nəzərdə tutulan digər şəxslərdir.

Birdəfəlik maddi yardımların ödənilməsi üçün Sərəncamla 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 4,8 milyon manat vəsait ayrılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Sərəncamın yüksək səviyyədə icrası təmin edilməklə, birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

# TÜRKİYƏ MEDİASI: Prezident İlham Əliyev qondarma "erməni soyqırımı" bəyanatı ilə əlaqədar ABŞ-a etirazını bildirib




Aprelin 28-də ABŞ-ın dövlət katibi Entoni Blinkenin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etməsi Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Türkiyə mediası sözügedən telefon danışığında müzakirə olunan məsələləri türkdilli ictimaiyyətə ayrı-ayrı tezislər şəklində manşet materialı kimi təqdim edib.

Anadolu, İHA xəbər agentlikləri, "TRT haber", "TRT Avaz", "Haber türk", "A haber", "Haber global" telekanalları, "Hürriyyət" "Sabah", "Akşam", "Star", "Milli gazete" və digər qəzetlər daxil olmaqla ölkənin aparıcı media qurulușları tərəfindən sürətlə yayılan məlumatda vurğulanır ki, dövlətimizin başçısı İlham Əliyev bu günlərdə ABŞ Prezidentinin saxta "erməni soyqırımı" ilə bağlı bəyanatının Azərbaycan rəhbərliyi və ictimaiyyətində narahatlıq yaratdığını dövlət katibinin diqqətinə çatdırıb.



# Ölkəmiz investisiya cəlbediciliyini qorumaq üçün yaxşı imkanlara malikdir

## Dövlətimizin başçısı İlham Əliyevin Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə videokonfrans formatında görüşündə bir daha iqtisadiyyatın şaxələndirilməsi siyasətinin uğurlarından geniş bəhs edilmişdir

***İqtisadi xarakter daşımasına baxmayaraq, Dünya İqtisadi Forumu (Davos İqtisadi Forumu) dünya siyasətinə, beynəlxalq münasibətlərə ciddi təsirə malikdir. Forum dünyanın iqtisadi mənzərəsinin təqdimatında da önəmli rol oynayır. Burada irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir. Dünya İqtisadi Forumu, eyni zamanda, iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır.***



Qlobal iqtisadi böhranın, milyonlarla insanın yaşayışına, ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təsir edən siyasi münaqişələrin davam etdiyi, ərzaq çatışmazlığı probleminin mövcud olduğu indiki dövrdə siyasi liderləri, iş adamlarını, vətəndaş cəmiyyəti qurumlarının rəhbərlərini bir araya toplayan Davos İqtisadi Forumu, bir çox məsələlərin müzakirəsinə və vacib qərarların qəbuluna əlverişli mühit yaradır.

Dövlətimizin başçısı İlham Əliyevin Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə görüşündə ölkəmizlə qurum arasında uzunmüddətli səmərəli əməkdaşlığın həyata keçirildiyi xüsusi qeyd edilmişdir.

Qeyd edək ki, Azərbaycanın Davos İqtisadi Forumunda iştirakı ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı dövrü əhatə edir. Belə ki, Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan bir-birindən əhəmiyyətli iqtisadi uğurlara imza ataraq, dünya iqtisadiyyatının bir parçasına çevrilmişdir. Zəngin təbii resurslara və əlverişli coğrafi məkana malik olan Azərbaycan hər zaman dünyanın diqqətində olub. Lakin müstəqilliyimizin ilk illərində ölkədə xaosun, anarxiyanın baş alıb getməsi xarici investorların tərəddüdlərinə səbəb olmuşdur. 1993-cü ildən bu yana digər istiqamətlərdə olduğu kimi, bu sahədə də böyük dönüş yarandı. Bu gün böyük fəxrlə qeyd edirik ki, ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi 270 milyard dollardan artıqdır. Bu, 1994-cü ildən ölkədə yaradılan sabitliyin, normal biznes mühitinin təsdiqidir. "Açıq qapı" siyasəti həyata keçirən Azərbaycan dövləti qapılarını bura xoş niyyətlə gələn xarici investorların üzünə açdı. Ulu öndər Heydər Əliyev ölkə iqtisadiyyatına qoyulan investisiyaların təhlükəsizliyinə tam təminat verildiyini ən yüksək tribunalardan bəyan etməklə, Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayının artması ilə yanaşı, bu istəyi gerçəkləşdirən ölkələrin miqyasının da genişlənməsinə stimul verdi. Ulu öndər Heydər Əliyev Azərbaycanın ilk dəfə təmsil olunduğu Dünya İqtisadi Forumunda çıxışı zamanı bildirmişdir ki, zəngin neft və qaz yataqları, digər təbii sərvətləri olan Azərbaycan müasir dünyanın istifadə etdiyi prinsiplər əsasında xarici investisiyalar, xarici şirkətlərlə əməkdaşlıq üçün, dünya üçün açıqdır. Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsinin ölkəmizin iqtisadi qüdrətinin artması üçün geniş imkanlar açdığını vurğulayan ümummilli lider Heydər Əliyev 30 ilə yaxın dövrdə dünyadan ədalətli yanaşma gözləyən, ötən il 44 gün davam edən İkinci Qarabağ müharibəsi nəticəsində tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Ulu öndər Heydər Əliyevin Azərbaycan reallıqlarının təbliğinə xidmət edən hər bir çıxışı, keçirdiyi görüşlər sözsüz ki, sonrakı mərhələlərdə öz müsbət nəticəsini göstərmişdir.

Dünya İqtisadi Forumu hər il ənənəyə uyğun olaraq İsveçrənin Davos şəhərində keçirilir. Bu forum yalnız bir dəfə 2002-ci ildə ABŞ-da baş verən terror aktına etiraz əlaməti olaraq Nyu-Yorkda keçirilib. Ulu öndər Heydər Əliyevin bu forumda iştirakı, beynəlxalq terrorizmin qaynaqlarından birinin separatizm olduğunu bildirərək bunu Dağlıq Qarabağın timsalında izah etməsi təbii ki, problemin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynamışdır.

Son 17 ildə Azərbaycanın Davos İqtisadi Forumunda iştirakı və fəallığını ilbəil artırması Prezident İlham Əliyevin rəhbərliyi sayəsində ölkəmizin davamlı uğurları ilə bağlıdır. Onu da qeyd edək ki, Dünya İqtisadi Forumu 2013-cü il aprelin 7-8-də ilk dəfə Bakıda keçirilib. "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusuna həsr edilən Bakı Forumu dünyaya səs saldı. Bir daha bu reallıq öz təsdiqini tapdı ki, Azərbaycan siyasi, humanitar tədbirlərlə yanaşı, iqtisadi forumlara da ev sahibliyi etmək iqtidarındadır. Azərbaycanın dayanıqlı inkişafa xidmət edən inkişaf modeli dünyanın diqqətində olmaqla yanaşı, öyrənilməsinə böyük maraq göstərilir. Bakı Forumu bu reallıqların təbliğində əhəmiyyətli rol oynadı.

O da məlumdur ki, dövlətimizin başçısı İlham Əliyev ilk dəfə 2007-ci ildə Davos İqtisadi Forumunun İsveçrədə ənənəvi keçirilən Forumda iştirak etmiş, "Güclərin qlobal balansının yerdəyişməsi" devizi altında "Neft geosiyasətinin artan əhəmiyyəti" mövzusunda keçirilən tədbirdə Azərbaycanın neft siyasətinin uğurlarından, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının bugünümüz və gələcəyimiz üçün yaratdığı imkanlardan geniş bəhs edilmişdir. Bu reallıq daim beynəlxalq səviyyədə xüsusi qeyd edilir ki, Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələrinin uğurlu icrası dünyanın enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır. Çoxlarına əfsanə kimi görünən BTC və BTƏ neft-qaz kəmərlərinin ardıcılları sırasında bu gün Cənub Qaz Dəhlizini, onun əsas seqmentləri olan TANAP, TAP layihələrini qeyd edə bilərik. 2014-cü ildə təməli qoyulan və görülən işlərin zirvəsi kimi dəyərləndirilən Cənub Qaz Dəhlizinin 2018-ci ilin mayında rəsmi açılışı oldu. Tam şəkildə 2020-ci il dekabrın 31-də TAP-ın istifadəyə verilməsi ilə reallaşdı.

Qeyd etdiyimiz kimi, Dünya İqtisadi Forumunun 2013-cü ildə Bakıda keçirilməsi qurumla Azərbaycan arasında əlaqələrin inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Bu mühüm məqam həmin Forumda da, həmçinin bu günlərdə Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun prezidenti ilə videokonfrans formatında görüşündə də qeyd edilmişdir ki, Azərbaycanın şaxələndirmə siyasətini yüksək səviyyədə həyata keçirməsi, neft-qaz gəlirlərinin idarə olunmasında şəffaflıq prinsipini öndə saxlayaraq mühüm sosial-iqtisadi layihələrin icrasını sürətləndirməsi maliyyə imkanlarının genişlənməsində, həmçinin dayanıqlı inkişafın təmin olunmasında, yaranan hər bir iqtisadi çətinlikdən az itki ilə çıxmasında əhəmiyyətli rol oynayır. 2008-ci ildə dünyanı bürüyən iqtisadi və maliyyə böhranı, eyni zamanda, bir ildən artıq davam edən COVID-19-la mübarizə tədbirləri dövründə də Azərbaycanın iqtisadi inkişafın dayanıqlılığını təmin etməsi deyilənlərin təsdiqidir.

Dövlətimizin başçısının çıxışlarında vurğulandığı kimi, hazırda iqtisadiyyatımız daha da şaxələndirilib. Bu, təkcə enerji sahəsinə aid deyil. Hazırda əsas məqsəd Azərbaycanın qeyri-neft sektoruna, xüsusilə yüksək texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları və xidmət sahələrinə investisiyaları cəlb etməkdir.

Azərbaycan yeni iqtisadi və sosial çağırışların müzakirəsi üçün əsas məkana çevrilib. Daim çıxışlarında "Biz ölkəmizi beynəlxalq biznes ictimaiyyəti və xüsusilə də Azərbaycan ilə hələ də əməkdaşlıq etməyən işgüzar dairələrə daha geniş şəkildə təqdim etmək istəyirik. Biz qapılarımızı geniş şəkildə açmışıq və dostlarımızı, tərəfdaşlarımızı Azərbaycanda işləməyə, sərmayə qoymağa dəvət etmək istəyirik... Əlbəttə, Dünya İqtisadi Forumu bu baxımdan ən əlverişli məkandır. Yəni, burada beynəlxalq biznes və siyasi dairələrin elitası toplaşır. Beləliklə, aparıcı beynəlxalq şirkətlərin rəhbərləri və nümayəndələri buraya gəlirlər. Ona görə də bura ölkənin təqdimatını keçirmək üçün ən yaxşı məkandır" söyləyən cənab İlham Əliyev bu fikirləri ilə Dünya İqtisadi Forumunun əhəmiyyətini açıqlamaqla yanaşı, bu qurumun hər bir ölkənin özünün təqdimatını aparması üçün əsas məkan olduğunu təsdiqləyir.

Bugünümüzün reallıqlarından biri budur ki, davamlı inkişaf və islahatlar mərhələsini yaşamaqda olan Azərbaycan investorlar üçün etibarlı tərəfdaşdır. Həm xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, həm də bu məqsədlə əlverişli mühitin yaradılması Azərbaycan dövlətinin iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Azərbaycanın xarici investisiya üçün cəlbedici olması təsadüfi deyil. Çünki ölkəmizdə xarici investorların səmərəli fəaliyyəti məqsədilə hər cür şərait, xüsusilə mükəmməl qanunvericilik bazası yaradılıb. Həmçinin son illərdə Azərbaycan hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması ilə bağlı 50-dən çox saziş imzalanıb. Cənubi Qafqazın iqtisadi mərkəzinə çevrilən Azərbaycanın coğrafi mövqeyi, böyük tranzit potensialı, nəhəng regional layihələri və əlverişli biznes mühiti ölkəmizə xarici investisiyaların cəlb olunmasına töhfə verir. Müstəqillik illərindən bugünədək Azərbaycana yatırılmış investisiyaların həcminə nəzər yetirsək görərik ki, iqtisadiyyata qoyulan 270 milyard dollarlıq investisiyanın yarısı xarici sərmayələrdir. Bu, əlbəttə ki, xarici investorların Azərbaycana olan inamının göstəricisidir. Valyuta ehtiyatlarının həcmi isə 51 milyard dollardır. Ölkəmizə ən çox investisiya yatıran xarici şirkətlərin əksəriyyəti isə dünyanın 20 ən böyük ölkəsidir. Onların arasında Rusiya Federasiyası, Türkiyə, İtaliya, Almaniya, Böyük Britaniya, ABŞ, Yaponiya və digər ölkələr var. Azərbaycan dövlətinin apardığı şaxələndirmə siyasətinin bəhrələrindən biri kimi Davos İqtisadi Forumunun reytinqinə əsasən ölkəmiz iqtisadiyyatın rəqabətə davamlılığına görə ön yerlərdədir.

Qeyd edək ki, Azərbaycanın perspektiv inkişaf və istiqamətlərinin müəyyən edilməsinə xidmət edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının davamı olaraq təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" də qarşıya qoyulan hədəflərə çatmaq üçün əsas sənəddir. Bu prioritetlər sırasında artıq işğaldan azad edilmiş ərazilərimizdə quruculuq və bərpa işlərindən bəhs olunur, yeni reallıqlar fonunda yeni vəzifələr qarşıya qoyulur.

Dövlətimizin başçısı İlham Əliyev Dünya İqtisadi Forumunun prezidenti Borge Brendeyə işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən infrastruktur layihələri, investisiyaların cəlb olunması barədə məlumat verərək bildirmişdir ki, həmin ərazilərdə yenidənqurma prosesi gedir, qarşıda nəhəng iş durur və böyük bir ərazi tamamilə yenidən qurulacaq. İndi səylərin əsas istiqaməti ərazilərin yenidən qurulmasıdır. Bu, həmçinin ölkə iqtisadiyyatının qeyri-enerji sektoruna, xüsusilə tikinti sahəsinə təkan verəcək. "Ağıllı kənd" konsepsiyası ilə yenidən qurulacaq kəndlərin təməlinin qoyulduğunu vurğulayan dövlətimizin başçısı işğaldan azad edilmiş əraziləri "yaşıl zona" elan etdiyini, həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasından istifadə olunacağını, şəhərlər üçün baş planların hazırlandığını, enerji istehsalı, elektrik enerjisi, avtomagistrallar, dəmir yolları, hava limanları ilə bağlı infrastruktur layihələrinin həyata keçirildiyini diqqətə çatdırdı və bu sahədə Dünya İqtisadi Forumu ilə əməkdaşlığın perspektivlərindən bəhs etdi. Qeyd edək ki, ölkəmiz işğaldan azad edilmiş ərazilərimizdə quruculuq və bərpa işlərinin aparılmasına dost ölkələri və şirkətləri cəlb edib. İlk addımı atan dost və qardaş Türkiyənin şirkətləridir.

Ölkəmizdə investisiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasından məmnunluğunu ifadə edən Dünya İqtisadi Forumunun prezidenti Borge Brende yeni texnologiyaların inkişafı və tətbiqindən, gənclərin çox mükəmməl olmasından bəhs edərək iqtisadiyyatın şaxələndirilməsi işinə böyük töhfələr verəcəklərinə əminliyini ifadə etmişdir.

Göründüyü kimi, Azərbaycan iqtisadi uğurları, davamlı inkişafa yol açan siyasəti ilə beynəlxalq maliyyə qurumlarının da diqqətindədir və əməkdaşlıq üçün geniş imkanlar yaranır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

## Hafiz Paşayev - 80

# Tarixi şəxsiyyətə hörmət və ehtiramla

*Hafiz Paşayev 1941-ci il mayın 2-də Bakıda doğulub. Onun bu il tamam olan 80 illik yubileyi təntənə ilə qeyd edilməyə layiq dəyərli hadisədir.*

*Çox xoşbəxtəm ki, ölkəmiz milli müstəqilliyini bərpa etdiyi gündən etibarən təhsil sahəsində ən böyük layihələrdən biri olan ADA Universitetinin inkişafında onunla yaxından işləmək fürsətim olub. Bu yolda qismətimdə Hafiz müəllimlə yoldaşlıq şansı olduğundan xeyli xatirələrim var və bunlardan bəzilərini oxucularla bölüşmək mənim üçün xüsusi bir şərəfdir.*

*Bu fikirlər ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadənin "Hafiz Paşayev-80. Tarixi şəxsiyyətə hörmət və ehtiramla" sərlövhəli məqaləsində yer alıb.*

*"İki sahil" AZƏRTAC-a istinadən məqaləni təqdim edir.*




Yolumuz Vaşinqtondan başladı. Səfir Paşayevlə ilk dəfə 1996-cı ildə Klinton Administrasiyasının ABŞ Konqresi ilə büdcə məsələlərinə dair fikir ayrılığı səbəbindən hökumətin fəaliyyətini dayandırdığı bir vaxtda - şaxtalı bir yanvar günündə tanış oldum. Hafiz müəllim o zaman Azərbaycanın ABŞ-dakı fövqəladə və səlahiyyətli səfiri idi və səfirliyimizdə bir qrup azərbaycanlı tələbə ilə görüşməyə lütfkarlıqla razılıq vermişdi.

Azərbaycanın bu supergüc ölkəsində ilk səfiri ilə görüşmək, ölkəmizin ön diplomatik cəbhəsində yer alan səfirliyimizi görmək istədik. Səfir Paşayev özünün gərgin iş cədvəlinə baxmayaraq biz gənclər üçün vaxt ayırdı. Görüşümüzün sonunda işlərimizlə, planlarımızla maraqlandı. Əlbəttə, çox təsirləndik, ona çox minnətdar idik. Bizə amerikalılarla münasibətlərimizdə Azərbaycanı tanıtmağa və Vətənə necə kömək edə biləcəyimizə dair məsləhətlərini verdi. Həmin gün Gürcüstanın səfiri Tedo Caparidzenin də onunla görüşə gəldiyini gördüm. O zaman heç bilməzdim ki, bu iki şəxsiyyət bölgəmizin strateji mahiyyətini dəyişdirəcək Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinə dair həssas və mürəkkəb danışıqlar aparırmış. Bundan əlavə, onu da çox yaxşı xatırlayıram ki, səfirliyin hər işçisi təcili diplomatik vəzifələrin icrası ilə necə məsul bir atmosferdə son dərəcə ciddiyyətlə çalışırdı.

Səfir Paşayevi ikinci dəfə 1999-cu ildə səfirliyə təcrübəçi kimi işləməyə gəldiyimdə gördüm. Səfirlik tarixində ilk təcrübəçi idim və Hafiz müəllim mənə o gündən etibarən çiyinlərimə inanılmaz dərəcədə böyük bir məsuliyyətin düşdüyünü söylədi. "Yaxşı işləsən, yaxşı nümunə olsan, işimizə daha çox təcrübəçi cəlb edərəm" dedi. Keçdiyimiz təcrübə Vaşinqtonun isti və rütubətli yay fəslinə təsadüf edirdi və bu da həyatımın ən dəyərli yaylarından biri oldu. Səfir Paşayev hamımıza, səfirliyin komanda üzvlərinə medianın monitorinqi və icmalı daxil olmaqla bir sıra vacib tapşırıqları yerinə yetirmək, mühüm iclas və konfranslarda iştirak etmək, beyin mərkəzləri, media qurumları və universitetlərin nümayəndələri ilə müzakirələr aparmaq səlahiyyətini verdi. O günlər səfirlik qızğın fəaliyyətinə görə arı pətəyinə bənzəyirdi.

O zaman çalışdığım komanda üzvləri sırasından gələcəkdə Azərbaycanın müxtəlif ölkələrində fəaliyyət göstərən altı səfirinin yetişməsi indi hər də təəccüblü görünmür. Onlar bizim diplomatlarımızın ən güclü kadrlarına çevrildilər. Sözsüz ki, Hafiz müəllimin yetirmələrinə peşəkarlıqla verdiyi diplomatik təlim onun şəxsi təşəbbüsü ilə Azərbaycan Diplomatik Akademiyasının (hazırda ADA Universiteti) əsasının qoyulmasından daha əvvəl başlamışdı. Təəccüblü deyil ki, indi o, Xarici İşlər Nazirliyində ölkənin diplomatik xidmətinin ağsaqqalı qəbul edilir.

Səfir Paşayev Amerikada bizi tez-tez bir yerə toplayır, mütəmadi olaraq hesabatlarımızı dinləyir, bizə rəy və məsləhətlərini verirdi. Görüşlərimiz vəzifələrimizə dair qızğın müzakirələrlə keçər, sonda isə o, öz qərarlarını və təlimatlarını ifadə edərdi. Müzakirələrdəki ayrıntılara, eləcə də onun hər birimizə böyük diqqəti və qayğısı unudulmazdır. O, rəsmi səlahiyyət sahibi kimi ciddi olduğu qədər də mehriban və qayğıkeş idi. Ən gərgin məsələlərin müzakirəsində belə əsəbiləşdiyini görmədim. Amma çiyinlərində hansı strateji məsuliyyət yükünün olduğunu da yaxşı bilirdik.

Təmsil etdiyi ölkəmiz ciddi problemlərlə üz-üzə idi: Ermənistanın təcavüzü, torpaqlarımızın işğalı, qaçqın və məcburi köçkün axını. Bunlar hamı kimi onun da ürəyini dağlamışdı. İki onillik sonra, 2021-ci ilin fevralında səfir Paşayevlə işğaldan azad olunmuş Qarabağa səfərimiz zamanı onun gözlərinə baxdım. Sevinc dolu gözləri xoşbəxtliklə, şükranlıqla parlayırdı. O da mənim onu gördüyümü gördü, ikimiz də duyğularımızı gözlərimizdən oxuduq: Vaşinqtonda keçirdiyimiz bütün o çətin günlər, hətta bəzən səbir tükədən anlar, demək, nəticəsiz qalmadı. Səbrimiz, planlaşdırma və fədakarlığımız bəhrəli oldu. Ayaq üstə qürurla durmağına yardımçı olduğu ölkə yenidən bütövləşdi. Bir millətin ümidləri doğruldu! Xəyallar gerçəkləşdi!

Amerikanın Azərbaycan hökumətinə yardımını haqsız qadağan edən - "Azadlığa Dəstək Aktı"nın (1992-ci ilin yayında qəbul edilmiş) məlum 907-ci maddəsinin ləğvi üçün ABŞ Konqresində qaldırılan məsələnin müzakirəsində səsvermənin gedişatını izləyirdik. Bu, təcrübəmin xüsusi bir mərhələsi kimi bioqrafiyamda yer alır. Vaxtilə nüfuzlu erməni lobbisi tərəfindən irəli sürülmüş və səfir Paşayevin Vaşinqtona gəlməsindən, vəzifəsini icra etməyə başlamasından daha əvvəl qəbul edilmiş qanunu ləğv etmək səylərinə senator Sam Braunbek ("R-KS") rəhbərlik edirdi. Səfirimizin səyləri sayəsində, o, ABŞ-Azərbaycan strateji münasibətlərinin tərəfdarı oldu və 907-ci maddəni ləğv etmək cəhdlərinə rəhbərlik etdi. Səfirlikdə hamı bir nəfər kimi ABŞ qanunvericilərini buna inandırmaq üçün gecə-gündüz çalışırdı. Yadımdadır, işçilərimizin hər biri veriləcək səslərin proqnozlaşdırılması üçün hər adın yanına "+" və ya "-" işarəsi qoyaraq senatorların və nümayəndələrin adlarından ibarət uzun siyahı tuturdu. Başımızın da üstündə səfir Paşayev... Vəziyyət gərgin idisə də, biz nikbin və enerjili idik. Uğura çox yaxın idik - qazanılan nəticə yalnız 25 səs sayı fərqi ilə əldə edilmişdi (ABŞ Konqresinin cəmi 435 üzvü arasından).

Təcrübə müddətim bitmişdi. Səfir Paşayev mənə zaman ayıraraq ulu öndər Heydər Əliyevin 1997-ci ildə ABŞ-a 11 günlük ilk rəsmi dövlət səfərinə hazırlıq işləri barədə danışırdı. O, bu səfərin bir çox təfərrüatını mənimlə bölüşdü, yeni nailiyyətlərdən, eyni zamanda, belə bir miqyasda mühüm tədbirin təşkilinə dair həyata keçirilmiş xeyli maddi-texniki və protokol işlərindən bəhs etdi.

Amerikada səfir Paşayevin həyat yoldaşı Dr. Rəna Paşayevanı da yaxından tanımaq fürsətini qazandım. Xeyirxah, mülayim bir insan, həyat yoldaşına tarixi missiyasında daim dəstəkçi olan, eləcə də bütün azərbaycanlı gənc diplomat və tələbələrə ana kimi qayğıkeş Rəna xanımı.

2001-ci ildə Sent-Luisdəki Vaşinqton Universitetində magistr tələbəsi idim. Səfir Paşayev, o zaman gürcü və özbək həmkarları ilə birlikdə mühazirə oxumaq, onların şərəfinə təşkil olunan tədbirlərdə iştirak üçün universitet şəhərciyinə gəlmişdi. O zaman sərgilədiyi məğrurluğu, ləyaqətli davranışlarının, səylə çalışmasının, fədakarlığının bir daha şahidi oldum.

İnsanlara qarşı səmimiliyi, açıqsözlülüyü, vətəndaş cəmiyyəti nümayəndələrinə, elm camesində çalışanlara, jurnalistlərə qarşı nəcib münasibəti onu ölkəmizin ən yaxşı səfirlərindən biri etmişdi. İnsanlar ona etimad bəsləyir və bu etimadları da Azərbaycana münasibəti yaxşı mənada dəyişirdi. Xatırlayıram ki, Vaşinqtonda bir neçə mötəbər beyin mərkəzində çalışan mütəxəssislər məhz səfir Paşayevlə şəxsi əlaqələrinə görə tədricən Azərbaycana rəğbətlərini açıq ifadə etməyə başladılar. Onların arasında senatorlar, akademiklər, media nümayəndələri və Zbiqnev Bjezinski kimi Amerika geostrategiyasının böyük ustadı da var idi.

Səfir Paşayev 2006-cı ildə Azərbaycan Diplomatik Akademiyasını qurmaq üçün Bakıya qayıdanda yollarımız yenidən kəsişdi. O, məni bu yeni təhsil müəssisəsində işləməyə dəvət etdi. Başlanğıcda nə bina vardı, nə müəllim və işçi heyəti, nə də büdcə. Bütün bunların ərsəyə gəlməsində onun dahiyanə uzaqgörənliyi, böyük arzuları öz işini gördü. ADA öz fəaliyyətinə diplomatlar üçün mütəxəssis hazırlığı akademiyası kimi başladı. Əlbəttə, Azərbaycanın bu günü və gələcəyi ilə bağlı arzuları tükənməyən rektor Paşayev ADA-nın rolunu yalnız diplomatik təlimlə məhdudlaşdıra bilməzdi. O, çox doğru olaraq ADA-nın gələcəyini Bakının mərkəzində yerləşən yeni, mükəmməliyə, təcrübəyə əsaslanan, dünyaya açıq təhsil ekosisteminin milli avanqardı olaraq gördü. O, ADA-nı millətimizi və siyasi rəhbərliyimizi qürurlandıracaq dünya səviyyəli bir universitetə çevirmək istədi. Onun elmi və diplomatik təcrübəsi bu mühüm işdə öz həlledici rolunu oynadı.

Azərbaycan Diplomatik Akademiyası gənc diplomat kadrlar üçün təlim platformasından tədricən tamhüquqlu bir Universitetə çevrildi. Bu gün ADA Universitetində 4 müxtəlif istiqamət üzrə 16 fərqli ixtisasda 45 ölkədən ümumilikdə 3000 tələbə təhsil alır. Biz 100 beynəlxalq tərəfdaş universitet və 100 yerli korporativ əməkdaş şirkətdən ibarət geniş bir şəbəkə qurmuşuq. Bu günümüzün məzunları artıq islahat və yeniliklərin katalizatoruna, eləcə də dəyişiklik və inkişaf üçün lokomotivə çevrilən bir brendin - ADA Universitetinin tələbələri olmağa can atırlar.

**Bəs ADA-nın uğur sirri nədədir? Rektor Paşayevin misilsiz liderlik üslubunu nə təşkil edir?**

Öncə onun səmimiliyi və dürüstlüyü!

Rektor Paşayev Universitetdə elə bir şəffaflıq və hesabatlılıq sistemi qurub ki, burada hər işçi istedadı və bacarığına görə seçilir, öz peşəkarlığını ən yüksək səviyyədə həyata keçirmək üçün ruhlandırılır. İnsanlara inanaraq onlara etibar etmək, cəsarətlə irəliləməyə təşviq edərkən onların yollarında olan maneələri və çətinlikləri aradan qaldırmaq - bütün bunlar və daha çox şey, sözsüz ki, səfir Paşayevin xarakterini əks etdirən bənzərsiz liderlik xüsusiyyətlərindəndir. İnsanlar onunla özlərini güvənli və dəyərli hiss edirlər. O, özünü aktiv və dinamik fərdlərlə əhatə edir, tabeliyində olan şəxslərin layihələrini uğur hekayələrinə çevirmələrinə yardımını əsirgəmir.

Rektor Paşayev ixtisasca fizik olaraq detallara qarşı çox diqqətlidir. Onun ADA Universitetində rəsmi məktubları 15 dəfəyə qədər yoxlaması və düzəliş etməsi kimi çoxlu əhvalat və xatirə var. O, kampusdakı hər çiçəyə, kola, hətta hər bir mebel hissəsinə xüsusi diqqət yetirir. Hər kəs - bağbanlar və təmizlik işçiləri də rektorumuzdan lazımi diqqət və qayğı görür.

Rektor Paşayevin təvazökarlığı və sadəliyi!

Onun tələbə və işçilərlə bərabər nahar etməsini indi hamı adi bir davranış tərzi kimi qarşılayır. Onlarla danışmağı, uğurlarını və qayğılarını dinləməyi xoşlayır. O, əlçatan olmağı sevir. ADA Universitetində "Açıq qapı" siyasətini israrla tətbiq edən məhz cənab Hafiz Paşayevdir. Onun bu siyasəti problemlərin vaxtında həllinə, rəylərin məqamında alınmasına dəyərli töhfə verir. O, səbirlidir, müsahiblərini anlayışla dinləyir. Emosional reaksiya verməkdən çəkinir, hər zaman zəiflərin yanında olur. Xüsusilə o hallarda ki, söhbət tələbələrin problem və narahatlıqlarından gedir!

Rektor Paşayev həqiqi bir alim kimi tədqiqat və təlimin əsl dəyərini yaxşı bilir. Bizim Universitetdə prioritetlərdən biri peşəkarlığın inkişafının təşviqinə vəsait ayrılmasıdır. Məsələn, ADA müəllim heyətinin imkanlarının artırılması naminə həm fərdi tədqiqatlar, həm də beynəlxalq potensial inkişaf proqramları və təlimlər həyata keçirilir. Tədqiqat işlərinə əksər hallarda özü rəhbərlik edir. Azərbaycan Xalq Cümhuriyyətinə dair materiallar da daxil olmaqla, unudulan arxivlər və əlyazmaları onun əlində yeni həyat qazanır.

Nəhayət onun gələcəyə baxışı və dünyagörüşünü qeyd edərdim. Rektor Paşayev hər zaman innovasiya, yeni fikirlər, dəyişiklik və inkişaf axtarışındadır. İşlər durğunlaşanda narahatlıq keçirir. Daim qurmaq və yaratmaq istəyir. Onun yeni proqramlar, şöbələr, tədqiqat mərkəzləri və hətta ADA nəzdindəki orta məktəbə dair uzaqgörənliyi Universitetin strategiyasını gözəl müəyyənləşdirir. Ən çətin vəziyyətlərdə belə ümidini itirmir, həmişə məğrur və qətiyyətlidir. O, bu mübarək yaşında da millətinə, ölkəsinə məsuliyyətli xidmət missiyasını uğurla davam etdirir.

**Diplomat, Səfir, Alim, Pedaqoq, Vətənpərvər, Xarizmatik lider. Bunlar Hafiz müəllimi ən yaxşı səciyyələndirən sözlərdir.**

Bəzən elə bilirlər ki, Hafiz müəllim kimi insanlara, daha çox keçmişin sanballı şəxsiyyətləri qəbildən olanlara indi çətin rast gəlmək olar. Günümüzün qloballaşan, təlatümlü dünyasında rektor Paşayev min illərin dəyərlərini öz şəxsində və amalında yaşadan bir İnsandır! O, uzaqgörənliyi, tükənməz enerjisi ilə çoxumuzdan daha gəncdir.

Onun həyata keçirmək istədiyi çoxsaylı yeni planları olduğunu bilirəm. Qarabağ Beynəlxalq Forumu, İtaliya-Azərbaycan Universiteti, Lütfi Zadə tədqiqat mərkəzi, texnoparklar, "ağıllı kənd" layihələri və daha nələr! Bütün bu arzu və planlarının gerçəkləşməsi naminə biz rektor Paşayevə möhkəm cansağlığı və güc-qüvvət arzulayırıq!

**Həyatımı tanışlığımızın ilk illərindən etibarən ADA-nın 15 ili də daxil bu günlərədək tarixi bir şəxsiyyətlə - qalib və müstəqil Azərbaycanın möhtəşəm bir siması ilə bölüşmək mənim üçün şərəfdir!**

# Əli Nağıyev Gürcüstanda rəsmi səfərdə olub

**Aprelin 27-28-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbəri Qriqol Liluaşvilinin dəvəti ilə bu ölkədə rəsmi səfərdə olub.**







AZƏRTAC DTX-nın saytına istinadla xəbər verir ki, səfər çərçivəsində general-polkovnik Əli Nağıyev ümummilli lider Heydər Əliyevin Tbilisidə ucaldılmış abidəsini ziyarət edib, onun əziz xatirəsini dərin ehtiramla yad edərək abidəsi önünə əklil qoyub. Sonra şəhərin Qəhrəmanlar meydanında Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olanların şərəfinə ucaldılmış abidə ziyarət edilib, önünə əklil qoyulub.

Gürcüstanın Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbəri Qriqol Liluaşvili ilə keçirilmiş görüşdə regionda mövcud əməliyyat şəraiti və ona təsir göstərən amillər, beynəlxalq terrorçuluğa və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin təkmilləşdirilməsi, təcrübə və səmərəli məlumat mübadiləsi sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, habelə dünyada ciddi siyasi-iqtisadi fəsadlara səbəb olmuş koronavirus pandemiyası ilə bağlı meydana çıxan yeni təhdidlərə qarşı birgə mübarizənin effektivliyinin artırılması və təhlükəsizliklə bağlı digər aktual məsələlər müzakirə olunub.

Eyni zamanda, general-polkovnik Əli Nağıyev Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauri ilə də görüşüb. Tərəflər üçün əhəmiyyət kəsb edən məsələlərə dair fikir mübadiləsi aparılıb, bölgədə təhlükəsizliyin etibarlı təmin olunmasının, terrorçu və digər cinayətkar qruplara qarşı mübarizədə birgə səylərin artırılmasının vacibliyi qeyd edilib. Tərəflər bundan sonra da hər iki ölkənin hüquq-mühafizə orqanları arasında əməkdaşlığın yüksələn xətlə inkişaf edəcəyinə əminlik ifadə ediblər.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Azərbaycanla Gürcüstan arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluğunu ifadə edən Baş nazir İrakli Qaribaşvili təhlükəsizlik sahəsində ölkələr arasında əlaqələrin davamlı inkişaf etdiyini və bu əməkdaşlığın bölgədə sülh və əmin-amanlığın bərqərar olunmasına öz töhfəsini verdiyini vurğulayıb.

Səmimi qarşılanmaya və yüksək qonaqpərvərliyə, həmçinin təhlükəsizlik sahəsində tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi üzrə məsələlərin müzakirəsi üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirən Xidmət rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstanın Baş nazirinə çatdırıb. General-polkovnik Əli Nağıyev ölkələr arasındakı mövcud münasibətlərin regional təhlükəsizliyin təmin olunmasına xidmət etdiyini qeyd edərək bundan sonra da müvafiq orqanların dövlətlərin milli təhlükəsizliyinə yönələn beynəlxalq təhdid və hədələrə qarşı birgə mübarizə istiqamətində daim sıx əməkdaşlıq edəcəyinə əminliyini bildirib.

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib.

## MİKAYIL CABBAROV İSRAİLDƏKİ TİCARƏT VƏ TURİZM NÜMAYƏNDƏLİKLƏRİNİN MƏQSƏDİNİ AÇIQLADI



"İsrailin xarici işlər naziri Qabi Aşkenazi ilə Azərbaycan və İsrail arasında Birgə Hökumətlərarası Komissiyanın növbəti iclasına həmsədrlik etməkdən məmnun oldum".

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bununla bağlı Azərbaycan iqtisadiyyat naziri Mikayıl Cabbarov sosial şəbəkələrdəki paylaşımında qeyd edib.

"İkitərəfli iqtisadi və ticarət əlaqələrimizin inkişafı, turizm, enerji, kibertəhlükəsizlik, səhiyyə, kənd təsərrüfatı kimi sahələrdə əməkdaşlığımızın genişləndirilməsi istiqamətində məhsuldar müzakirələr apardıq. Ticarət və turizm nümayəndəliklərinin fəaliyyəti də bu məqsədə xidmət edəcək".

*Çavuşoğlu:*

## BİZƏ TARİX DƏRSİ VERMƏYƏ ÇALIŞANLARIN ASALA TERRORUNA GÖZ YUMMALARI İKİÜZLÜLÜKDÜR



"Bizə tarix dərsi verməyə çalışanların ASALA terroruna göz yummaları tamamilə ikiüzlülükdür".

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib.

O bildirib ki, bunun ən son nümunəsini ABŞ göstərib: "1982-ci ildə Türkiyənin Los-Ancelesdəki baş konsulunu şəhid edən erməni terrorçu Hampinq Sasunyan ötən ay sərbəst buraxılıb. Buna göz yumuldu. Amma biz əziz şəhidlərimizin xatirəsini daim yaşadacağıq".

*Sahil Babayev:*

## 405 QAZİYƏ ƏLİLLİK TƏYİNATI APARILIB



"Artıq 405 qaziyə əlillik təyinatı aparılıb, proses davam edir".

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Onun sözlərinə görə, indiyədək 17 qazi yüksək texnologiyalı protezlərlə təmin edilib: "Nazirliyin reabilitasiya müəssisələrində 105 qazi stasionar müalicə alır, 1200-dən çox qaziyə psixoloji xidmət göstərilib".

## 10 SİYASİ PARTİYAYA BİR MİLYON MANATA YAXIN VƏSAİT ÖDƏNİLİB



Azərbaycanda bu il dövlət büdcəsindən siyasi partiyalara növbəti dəfə vəsait ayrılıb.

"İki sahil" "Report"a istinadən xəbər verir ki, 2021-ci ilin II rübü üzrə 10 siyasi partiyaya - Yeni Azərbaycan Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Ana Vətən Partiyası, Demokratik İslahatlar Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Böyük Quruluş Partiyası, Vəhdət Partiyası, Respublikaçı Alternativ Partiyası və Milli Cəbhə Partiyasına ümumilikdə 948,4 min manat məbləğində vəsait ödənilib.

Vəsaitin ayrılması "Siyasi partiyalar haqqında" qanunun 17-1-ci maddəsinə uyğun aparılıb.

## GÜRCÜSTANDA NOVRUZUN MİLLİ BAYRAM ELAN OLUNMASI MƏSƏLƏSİNƏ BAXILIR



Gürcüstan parlamentində ölkədə Novruzun milli bayram elan olunması ilə bağlı layihənin nəzərdən keçirilməsinə başlanılıb. "İki sahil" "Report"a istinadən xəbər verir ki, martın 12-də qanunverici orqana daxil olan layihəni ictimai fəal Samirə Bayramova hazırlayıb.

Layihədə martın 21-nin Gürcüstanda qeyri-iş günü elan edilməsi də təklifi əksini tapıb.

Qanunverici orqanın İnsan haqları və vətəndaş inteqrasiyası Komitəsində təşəbbüsə baxılıb. Qeyd olunub ki, təşəbbüs ölkənin Əmək Məcəlləsinə dəyişikliklərin edilməsi nəzərdə tutur. Təkliflərin alınması məqsədilə sənəd Gürcüstan hökumətinə göndərilsə də, bu günədək cavab alınmayıb. Bu səbəbdən məsələni müəyyən edilmiş müddət ərzində - aprelin 27-dək baxılması üçün tam hazırlamaq mümkün olmayıb. Bunula yanaşı, komitə qanunvericilik təşəbbüsü ilə bağlı beynəlxalq təcrübəni öyrənir.

Parlamentin büro iclasında ötən gün qəbul edilən qərara əsasən, məsələyə baxılma müddəti 30 gün uzadılıb.

# Akademik Zərifə Əliyevanın misilsiz xidmətləri, apardığı tədqiqatlar əsl təcrübə məktəbidir





Milli oftalmologiyanın banisi akademik Zərifə xanım Əliyevanın keçdiyi mənalı həyat yolu, misilsiz xidmətləri, apardığı tədqiqatlar əsl təcrübə məktəbidir.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu fikirlər Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında görkəmli oftalmoloq-alimin anadan olmasının 98-ci ildönümü münasibətilə aprelin 28-də keçirilən tədbirdə səsləndirilib.

Tədbir iştirakçıları əvvəlcə akademik Zərifə xanım Əliyevanın poliklinikanın foyesindəki büstü önünə gül dəstələri qoyub, onun xatirəsinə həsr olunan guşədə alimin həyat və fəaliyyətini əks etdirən foto və kitablarla, həmçinin tanınmış insanların görkəmli oftalmoloq-alim haqqında fikirləri ilə tanış olublar.

Tədbirdə muxtar respublikanın səhiyyə nazirinin müavini Samrat Gəncəyeva qeyd edib ki, Naxçıvan Şəhər Poliklinikası 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Ümummilli lider Heydər Əliyev 1990-cı və 1999-cu illərdə poliklinikada olub. 2012-ci ilin mayında Prezident İlham Əliyev Zərifə xanım Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasının yeni binasının açılışında iştirak edib. Zərifə xanımın adını daşıyan səhiyyə müəssisəsində işləmək hər bir tibb işçisi üçün böyük məsuliyyətdir.

Sonra akademik Zərifə xanım Əliyevanın həyat və çoxşaxəli fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova "Akademik Zərifə xanım Əliyeva fədakar insan, əsl Azərbaycan qadını kimi", Naxçıvan Şəhər Poliklinikasının baş həkimi Səadət İbrahimova "Unudulmaz alim, mehriban ana, qayğıkeş insan", baş həkimin müavini Tamella Bayramova "Oftalmoloq-alim" mövzularında məruzələr ediblər.

Sonda Naxçıvan Qızlar Liseyinin şagirdləri görkəmli alimə həsr olunmuş şeirlər söyləyiblər.

## XİN-də STRUKTUR DƏYİŞİKLİYİ OLUB, NAZİR MÜAVİNİNİN SƏLAHİYYƏTLƏRİ ARTIRILIB



Xarici İşlər Nazirliyinin (XİN) strukturunda dəyişiklik edilib.

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bunun nəticəsində nazir müavini Fariz Rzayevin səlahiyyətləri artırılıb.

Belə ki, o, bundan sonra XİN-in İkinci Avropa İdarəsi, Amerika İdarəsi, Asiya İdarəsi, Yaxın Şərq və Afrika İdarəsi, Nazirliyin İnspeksiyası, YUNESKO üzrə Milli Komissiyanın Daimi Katibliyi, Ümumi Katiblik, Xüsusi Şöbə və İşlər İdarəsinin fəaliyyətinə nəzarəti həyata keçirəcək. Bundan əvvəl həmin strukturlara nəzarəti XİN başçısının sabiq müavini Ramiz Həsənov yerinə yetirib.

Bununla yanaşı, əvvəllər xarici işlər nazirinin kurasiyasında olan Dövlət Protokolu İdarəsi də F.Rzayevin nəzarətinə verilib.

Daha əvvəl onun kurasiyasında nazirliyin Konsulluq İdarəsi, Linqvistika Təminat İdarəsi, Arxiv İdarəsi və Xüsusi Rabitə Təminatı İdarəsi olub. Beləliklə, XİN-də F.Rzayevin nəzarətində olan strukturların sayı 4-dən 14-ə çatıb.

Qeyd edək ki, 44 yaşlı F.Rzayev 2020-ci ilin sentyabrından xarici işlər nazirinin müavinidir.

Xatırladaq ki, Prezident İlham Əliyevin aprelin 19-da imzaladığı sərəncamla Ramiz Həsənov xarici işlər nazirinin müavini vəzifəsindən azad edilib. O, Azərbaycanın İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin olunub.

## SOCAR-ın İDARƏSİ QEYRİ-NEFT İXRACI ÜZRƏ DÖVLƏT QURUMLARI ARASINDA LİDERDİR



Bu ilin yanvar-mart ayları üzrə Azərbaycanın ən yaxşı ixracatçılarının adları açıqlanıb.

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nda bildirilir.

Sənədə əsasən, həmin şirkətlər aşağıdakılardır: Qeyri-dövlət qurumları üzrə - "MKT İstehsalat Kommersiya" MMC, "P-Aqro" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Baku Steel Company", "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Metal Trader LTD" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Critical və "Aqrovest" MMC.

Dövlət qurumları üzrə - Dövlət Neft Şirkətinin (SOCAR) Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "SOCAR Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC.

## *Səfir:* BAKIDA YƏHUDİ GEYİMİNDƏ GƏZMƏK AVROPA ŞƏHƏRLƏRİNİN ƏKSƏRİYYƏTİNDƏN DAHA TƏHLÜKƏSİZDİR



"Azərbaycan müxtəlif dinlərə və millətlərə hörmət və tolerantlığı ilə tanınır. Siz bu mənada tarixinizlə fəxr edə bilərsiniz. Bakı küçələrində yəhudi geyimində gəzmək Avropa şəhərlərinin əksəriyyətindən daha təhlükəsizdir".

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bunu İsrailin Azərbaycandakı səfiri Corc Dik deyib.

"Azərbaycanın yəhudi icması demək olar ki, "vətənpərvər azərbaycanlı"dırlar və bu ölkəyə mənsubiyyətlərini daim səmimi şəkildə hiss edirlər, bunu etiraf da edirlər. Əsrlər boyu Azərbaycanda yaşayan yəhudilər heç vaxt hər hansı bir təqibə, təzyiqə, zorakılığa, düşmənçiliyə və əzablara məruz qalmayıblar. Əksinə, onlar ümumi işin xeyrinə bir çox sahələrdə çalışıblar, fərqləniblər", - diplomat bildirib.

## NEFT QİYMƏTLƏRİ BAHALAŞIB



Dünya birjalarında neft qiymətləri bahalaşır.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barrelinin qiyməti 0,43 dollar artaraq 67,70 dollar, Nyu-Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barrelinin qiyməti isə 0,32 dollar bahalaşaraq 64,18 dollar olub.

# Türkiyədə daha bir hərbi təyinatlı istehsal müəssisəsinin açılışı olub

Dünyada hərbi məhsulların texnologiyaları sürətlə dəyişir. Artıq təyyarə bombalarımız, döyüş sursatlarımız, raketlərimiz və döyüş başlıqları, partlayıcı maddələrə görə heç kimdən asılı olmayacağıq.



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu fikirləri MKEK (Makina və Kimya Sənayesi İstehsalat Birliyi) Barıtsan Raket və Partlayıcı Fabrikində qurulan Energetika məhsulları İstehsalat Mərkəzinin açılış mərasimindəki çıxışında ifadə edib.

Son illər Türkiyədə istehsal sahəsində böyük uğurlar qazanıldığını diqqətə çatdıran dövlət başçısı əminliklə bildirib ki, açılışı keçirilən bu təsis sayəsində Türkiyə yeni nəsil partlayıcı maddələr istehsal etmə qabiliyyəti ilə super liqaya çatacaq. Xaricdən gətirilən modul barıt sistemi bundan sonra artıq tamamilə yerli vasitələrlə istehsal ediləcəkdir.

# Təhsil naziri videoqəbul keçirib






Aprelin 29-da təhsil naziri Emin Əmrullayev Ağcabədi, Beyləqan və İmişli rayon sakinlərini videobağlantı vasitəsilə qəbul edib. Nazirlikdən "İki sahil"ə bildirilib ki, qəbulda həmin rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Təhsil naziri vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Videoqəbulda vətəndaşlar daimiləşmə, müəllimlərin yerdəyişməsi, təhsil haqqından azad olunma, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Qeyd edək ki, videoqəbulun təşkil edilməsində əsas məqsəd vətəndaşların Təhsil Nazirliyinə müraciət imkanlarını müasir texnologiyalardan istifadə etməklə genişləndirmək, regionlarda yaşayanlara nazirliyin inzibati binasına gəlmədən vəzifəli şəxslərlə videobağlantı vasitəsilə birbaşa əlaqə imkanının yaradılmasıdır.

# Jurnalistlər Zəngilan və Qubadlıda minatəmizləmə prosesi ilə tanış olublar







Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) təşkilatçılığı ilə yerli jurnalistlərin Zəngilan və Qubadlı rayonlarına media-turu təşkil olunub. Səfərin məqsədi erməni işğalından azad edilmiş yaşayış məntəqələrimizin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi prosesi ilə tanış olmaqdır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, jurnalistlər əvvəlcə Zəngilan rayonunda "Ağıllı kənd" layihəsi üzrə inşa işlərinin həyata keçirildiyi 1-ci və 2-ci Ağalı kəndlərinə səfər ediblər. Məlumat verilib ki, işğaldan azad edilmiş Zəngilan rayonunda Prezident İlham Əliyevin iştirakı ilə aprelin 26-da ilk "Ağıllı kənd" layihəsinin təməli qoyulub. 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərində icra olunacaq layihədə Türkiyə, İsrail, İtaliya və Çinin qabaqcıl şirkətləri iştirak edirlər.

ANAMA-nın partlamamış hərbi sursatlar üzrə əməliyyatlar qrupunun əməkdaşı Anar Vəliyev qeyd edib ki, təkcə 2-ci Ağalı kəndində 74 hektar ərazidə işarələmə işləri aparılıb və 43 hektar sahə mina və partlamayan sursatlardan təmizlənib. Ağalı kəndində əsasən partlamayan sursatlara və Azərbaycan Ordusu tərəfindən zərərsizləşdirilən raket qalıqlarına rast gəlinir. Ümumilikdə isə bu günə kimi Zəngilan rayonunda 3 milyon 530 min kvadratmetr ərazi minalardan təmizlənib.

Sonra media nümayəndələri Zəngilan rayonunda tikilən hava limanının ərazisinə gəliblər. Bildirilib ki, dövlətimizin başçısı aprelin 26-da Zəngilana səfəri çərçivəsində hava limanının da təməlini qoyub. Burada ilkin olaraq 68 min kvadratmetr ərazi minalardan təmizlənib və proses davam edir.

Jurnalistlər daha sonra Qubadlıya səfər edib, rayon ərazisində minatəmizləmə prosesini izləyiblər.

ANAMA-nın partlamamış hərbi sursatlar üzrə əməliyyatlar qrupunun bölmə rəhbəri Bəhruz Namazov bildirib ki, düşmənin basdırdığı minaların xəritəsini verməməsinə baxmayaraq, bu günə kimi Qubadlı rayonu ərazisində 3 milyon 600 min kvadratmetr ərazi minalardan təmizlənib. Təmizləmə işləri zamanı 146 ədəd partlamamış mərmi, 12 ədəd tank əleyhinə, 2 ədəd piyada əleyhinə mina, 500-dən çox güllə aşkar edilərək zərərsizləşdirilib. Hazırda Qubadlı rayonu Xanlıq kəndi ərazisində əkinəyararlı torpaqlarda təmizləmə işləri davam etdirilir.

Media nümayəndələri ermənilərin basdırdığı mina və partlamayan hərbi sursatların zərərsizləşdirilməsini izləyiblər.

# “Heydər Əliyev irsi və milli-mənəvi dəyərlər”

## YAP GƏNCLƏR BİRLİYİ BU MÖVZUDA GÖRÜŞ KEÇİRİB








Aprelin 29-da Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi “Heydər Əliyev irsi və milli-mənəvi dəyərlər” mövzusunda görüş keçirib.

Görüşdə YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iştirak edib.

YAP-ın mətbuat xidmətindən “İki sahil”ə bildiriblər ki, tədbiri açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ulu öndər Heydər Əliyevin irsinin gənc nəsil üçün böyük məktəb olduğunu bildirib. O qeyd edib ki, Ulu Öndərimiz milli-mənəvi dəyərlərimizin qorunması və inkişafında böyük xidmətlər göstərib.

Daha sonra görüşün qonağı olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlını təqdim edən Bəxtiyar İslamov deyib ki, Mübariz Qurbanlının “Heydər Əliyev irsi və milli-mənəvi dəyərlər” mövzusunda məruzəsi gənclər üçün faydalı olacaq.

Görüşdə Mübariz Qurbanlı bildirib ki, hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır. Mübariz Qurbanlı qeyd edib ki, ulu öndər Heydər Əliyevin zəngin irsi hər zaman Azərbaycana uğurlar qazandırır. Ulu Öndər müstəqil Azərbaycanın təməl prinsiplərini formalaşdırıb, Azərbaycan xalqı və dövləti üçün misilsiz xidmətlər göstərib. Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində yeri və rolu uzun müddət müzakirə ediləcək, xalqımız qarşısındakı böyük və zəngin xidmətləri hər zaman tədqiqatlar mövzusu olacaq. Ümummilli Liderimizin fəaliyyəti keçmişə istinad edərək bu günümüzü necə qurmağı və gələcəyimiz üçün hansı işlər görülməsinin nümunəsini bizə göstərən, Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış fəaliyyətdir.

Onun sözlərinə görə, Azərbaycanın XX əsrdə bir ölkə kimi, istər sovet hakimiyyəti dövründə, istər dövlət müstəqilliyinin bərpasından sonra qazandığı uğurlar ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə birbaşa bağlıdır. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi, əslində, çağdaş tariximizə ölkəmizin sürətli və uzunmüddətli inkişafının əsasının qoyulması kimi daxil olub. Azərbaycanın Heydər Əliyevin adı ilə bağlı olan sürətli inkişafının bu gün də yüksək dinamika ilə davam etməsi, o dövrdən başlayan yüksəliş strategiyasının böyük zaman kəsiyini əhatə edən dövlətçilik konsepsiyasını yerinə yetirdiyini qətiyyətlə sübut edir. Ümummilli liderimiz Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən bir öndər olub, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət Onun bütün fəaliyyətinin əsasını təşkil edib. Bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Ulu Öndərimizin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının Liderliyinə yüksəldib, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilib. Bütün həyatını xalqına və Vətəninə həsr etmiş ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil olub.

Dövlət Komitəsinin sədri söyləyib ki, Ulu Öndərimiz hər zaman milli-mənəvi dəyərlərimizin qorunmasına və inkişafına xüsusi diqqət yetirib: “Azərbaycan xalqının söykəndiyi bu dəyərlər ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında dayanır. Ulu Öndərin yaratdığı dövlətçilik prinsiplərinin aparıcı xətti azərbaycançılıqdır. Milli-mənəvi dəyərlərimizi qorumaq bizim ən ümdə vəzifələrimizdən biridir. Biz bu gün milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan islami dəyərlərimizin təbliğ və təşviqindən danışanda milli-mənəvi dəyərlərin tərkib hissəsi olan islami dəyərlərimizə və müasirliyə diqqət yetirməliyik. Buna görə milli-mənəvi dəyərlərimizin qorunması dedikdə, eyni zamanda, İslamın əsl mahiyyətini, əsl dəyərini olduğu kimi gənc nəslə çatdırmağı zəruri hesab edirik”.

Mübariz Qurbanlının sözlərinə görə, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva milli-mənəvi dəyərlərin qorunması və təbliği prosesinə xüsusi diqqət yetirir.



M.Qurbanlı milli-mənəvi dəyərlərimizin qorunması və təbliği ilə bağlı gənc nəslin üzərinə də böyük vəzifələrin düşdüyünü diqqətə çatdırıb.

Daha sonra Dövlət Komitəsinin sədri gənclərin suallarını cavablandırıb.

Görüş diskussiya şəraitində davam edib.

## ŞƏMKİR RAYON İCRA HAKİMİYYƏTİNİN SABİQ BAŞÇISI ALİMPAŞA MƏMMƏDOV MƏHKƏMƏ QƏRARI İLƏ HƏBS OLUNUB



Ölkədə həyata keçirilən sistemli islahatlara mane olan, dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, dövlət orqanlarının fəaliyyətinə kölgə salan korrupsiya və digər əlaqəli cinayət əməllərinə qarşı hüquqi mübarizə tədbirləri davam etdirilir.

AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadla xəbər verir ki, Şəmkir Rayon İcra Hakimiyyətinin vəzifəli şəxsləri tərəfindən külli miqdarda dövlət əmlakının ələ keçirilməsi, vətəndaşların hüquqlarına zərər vurulması ilə bağlı qanunsuz əməllərə yol verilməsinə dair məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri həyata keçirilib.

Başlanılmış cinayət işi üzrə araşdırmalar zamanı Məmmədov Alimpaşa Adil oğlunun Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı kimi vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, Şəmkir rayonunun Çinarlı bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 2 milyon 844 min manat dəyərində əmlakı olan “Çinarlı Qəsəbə” MMC-nin bütün paylarını oğlu Adilzadə Adil Alimpaşa oğlu və tabeçiliyində fəaliyyət göstərən digər şəxslərə məxsus “Şəmkir Səbət Ticarət Mərkəzi” MMC-yə cəmi 40 manata satılmasını, Şəmkir şəhər Bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 967 min manat dəyərində qida məhsulları istehsal zavodu olan “Abad Şəmkir” MMC-nin bütün paylarını oğlu Adil Adilzadəyə cəmi 180 manata satılmasını təmin edib xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəməsinə əsaslı şübhələr müəyyən olunub.

Bundan başqa, Alimpaşa Məmmədovun Şəmkir rayonu ərazisində abadlıq işlərinin görülməsi ilə bağlı “Ağstafasutikinti” MMC-nin hesabına köçürülmüş 218 min manat külli miqdarda pul vəsaitini nağdlaşdıraraq təkrar mənimsəmə yolu ilə ələ keçirməsinə, Şəmkir rayonu ərazisində dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına tikinti və abadlıq işləri, əsaslı və cari təmir, habelə yolların təmir edilməsi ilə bağlı işləri yerinə yetirən ayrı-ayrı şəxslərdən ümumilikdə 382 min manat, rayon ərazisində sahibkarlıq və yaşayış təyinatlı tikinti işlərinin aparılması ilə bağlı ayrı-ayrı vətəndaşlardan ümumilikdə 217 min manat vəsaiti tabeçiliyində olan şəxslər vasitəsi ilə rüşvət qismində istəyərək almasına əsaslı şübhələr müəyyən edilib.

Alimpaşa Məmmədovun, həmçinin rayon icra hakimiyyəti başçısının ərazi icra nümayəndələri və digər yerli dövlət təsisatlarının vəzifəli şəxslərindən müxtəlif adlar altında 3 min - 10 min manat məbləğində pul vəsaitləri tələb edərək almasına dair əldə edilmiş məlumatlar üzrə araşdırma aparılır. Eləcə də onun mənimsəmə və rüşvət alma yolu ilə pul vəsaitlərinin əldə edilməsinin həqiqi mənbəyini gizlətmək məqsədi ilə 832 min manat vəsaitin oğlu Adil Adilzadənin adına təsis etdiyi “Az Forel” MMC-nin Şəmkir rayonunda yerləşən balıqyetişdirmə və emalı müəssisəsinin tikintisinə və digər xərclərinə yönəltməklə cinayət yolu ilə əldə etdiyi külli miqdarda pul vəsaitlərini leqallaşdırmasına əsaslı şübhələr müəyyən olunub.

Alimpaşa Məmmədovun xidməti və yaşayış yerlərinə baxış zamanı müxtəlif vəzifəli şəxslərdən, o cümlədən sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərdən alınmış vəsaitlərin siyahıları, pul vəsaitləri, sənədlər, iş üzrə əhəmiyyət kəsb edən digər dəlillər aşkar edilərək götürülüb.

Alimpaşa Məmmədov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə), 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Bu vaxtadək “Şahdəniz”dən 140 milyard kubmetr təbii qaz çıxarılıb



Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz” qaz-kondensat yatağından bu vaxtadək 32 milyon tondan çox kondensat əldə edilib.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, bu barədə “BP Azerbaijan” şirkəti məlumat yayıb. Bildirilir ki, “Şahdəniz”dən ilk hasilat başlandığı dövrdən indiyədək yataqdan 140 milyard kubmetr təbii qaz hasil olunub.

Qeyd edək ki, bu ilin birinci rübündə “Şahdəniz” yatağından - “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” platformalarından birgə 5,1 milyard standart kubmetr qaz və təqribən 1 milyon ton (7,8 milyon barel) kondensat hasil edilib. Mövcud “Şahdəniz” qurğularının maksimum hasilat gücü hazırda gündəlik 58 milyon standart kubmetr və ya ildə təqribən 21 milyard kubmetrdən çoxdur.

Yanvar-mart aylarında “Şahdəniz” yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (“GOGC” şirkətinə) və Türkiyə (“Botaş” şirkətinə) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə qazın çatdırılması davam edib.

Üç ayda “Şahdəniz” üzrə fəaliyyətlərə 688 milyon dollar əməliyyat və 181 milyon dollardan çox əsaslı xərclər sərf edilib. Əsaslı xərclərin böyük əksəriyyəti “Şahdəniz-2” layihəsinə aid olub.

“Şahdəniz”də iştirak payları belədir: BP (operator) 28,8 faiz, “AzŞD” 10 faiz, “SGC Upstream” 6,7 faiz, “Petronas” 15,5 faiz, “LUKoil” 10 faiz, “NICO” 10 faiz və “TPAO” 19 faiz.



# Erməni yalanları ayaq tutsa da yerimir

**Günel Eyyubova**

Yalana qulaq asan olmasa, onu danışan da olmaz. Hər il aprelin 24-də dünya erməniləri qondarma "soyqırım"larını qeyd edirlər. Gün keçdikcə erməni ideoloqları söylədikləri yalana daha çox insanı inandırmağa çalışırlar.

"Amerika xalqı 106 il əvvəl başlayan soyqırımı nəticəsində ölən bütün ermənilərin xatirəsini yad edir" - Amerika Birləşmiş Ştatlarının 46-cı prezidenti Cozef Baydenin açıqlamasında işlənən bu ifadələr həqiqəti, tarixi bilənləri məyus etdi. Xatırladaq ki, erməni "soyqırımı"nın tanınması həm Baydenin, həm də vitse-prezident Kamala Harrisin seçki öncəsi verdikləri vədlərindən biri idi. Hətta ötən ilin 24 aprelində də prezidentliyə namizəd olan Bayden öz "Twitter" hesabında prezident seçiləcəyi təqdirdə "erməni soyqırımı"nı tanıyacağını yazmışdı. 2021-ci ilin 24 aprelində isə verdiyi vədi yerinə yetirdi . Lakin yəqin ki, Bayden etirazların qarşısında dayana bilməyəcəyini bildiyi üçün "erməni soyqırımı" ifadəsini işlədərkən Türkiyəni günahlandırmaq istəmədiyini bildirdi.

Erməni xalqının "faciəsini" qiymətləndirərkən "soyqırım" ifadəsini ABŞ-ın 40-cı prezidenti də heç fərqinə varmadan işlədib. Belə ki, 1981-ci ildə Prezident Ronald Reyqan çıxışında 1915-ci il hadisələrini "soyqırım" adlandırdı. Əlbəttə, həmişə olduğu kimi bütün bunlar güclü erməni lobbisinin iştirakı olmadan baş verə bilməzdi. XX əsrin 70-80-ci illərində ABŞ-dakı ermənilər lider mövqeləri tuturdular. Məsələn, Kaliforniya qubernatoru Corc Dokmeyan Reyqanın yaxın dostu idi.

Sonrakı illərdə daha bir fakt da ortaya çıxdı. Erməni politoloq Suren Sarkisyan, Reyqanın "soyqırım" ifadəsini istifadə etdiyini, ancaq bunun Amerika rəhbərliyinin mövqeyi olmadığını söylədi. Çünki ABŞ prezidentinin söyləyəcəyi nitqin mətninə "soyqırım" sözünü əlavə edən Ağ Ev rəhbərlərinin köməkçilərindən biri olub. O şəxs də etnik erməni olan Ken Xaçikyandır.

S.Sarkisyan erməni KİV-nə müsahibə verərkən bildirib ki, 2012-ci ilin yazında Los-Ancelesdə Ağ Evdən olan etnik erməni ilə şəxsən ünsiyyət qurma imkanı olub. Erməni politoloq bildirir ki, Ken Xaçikyan vaxtilə Ağ Evin spikerlər şöbəsinə rəhbərlik edib. Birləşmiş Ştatların 40-cı Prezidentinin çıxışlarının əksəriyyətinin də mətnlərini yazan məhz o olub. Reyqanın "soyqırım" ifadəsini işlətməsinin səbəbkarı da odur. Belə ki, Xaçikyan prezidentlə mətnin yalnız əsas məqamlarını müzakirə edib. Reyqan ondan mətni mümkün qədər ruha toxunacaq şəkildə inandırıcı hala gətirməsini istəyib və beləliklə, Xaçikyan erməni riyakarlığı ilə dədə-babalarından miras qalan yalan texnikalarını hərəkətə keçirib. Belə hallarda isə çox yaxşı bilirik ki, erməni isterikasının qarşısına keçmək asan olmur.

ABŞ prezidenti Reyqanın nitq yazarı (speechwriter) olmuş K.Xaçikyan müsahibəsində hərəkətlərini belə şərh edib. "Düşündüm ki, bu erməni soyqırımı mövzusuna toxunmaq üçün yaxşı səbəbdir. Onu (p.s qondarma soyqırımdan bəhs edir) kambocalıların qətliamı ilə və 1975-ci ildə törədilən digər bu kimi cinayətlərlə yanaşı vurğuladım. Ermənilərin başına gələnlərin əsl "soyqırım" olduğunu qeyd etdim. O da Holokost kimi eyni üsullarla və eyni məqsədlə həyata keçirilmişdi ...".

Həmin çıxışın mətnini prezidentin son təsdiqinə təqdim etməzdən əvvəl Xaçikyan bütün ciddi məqamları Dövlət Katibi müavininin köməkçisi ilə yanaşı prezidentin Milli Təhlükəsizlik Məsələləri Üzrə Baş Müşaviri ilə də razılaşdırmalı idi. Bu vəzifəni o vaxtlar daha sonra Birləşmiş Ştatların Daxili İşlər naziri olmuş Viliam Klark tuturdu. Xaçikyan isə vəzifəsindən sui-istifadə etdiyi dövrləri belə xatırlayır: "Mən hər şeyi ölkənin xarici siyasətindən məsul olan şəxslərlə razılaşdırmalı idim. Beləliklə, onları bu təşəbbüsümdə ABŞ-ın rəsmi yanaşmalarına zidd ola biləcək əks bir şeyin olmadığına inandırmağı bacardım. Türklər əlbəttə ki, qəzəbləndi". Daha sonra etdiklərinə bəraət qazandırmağa çalışan Xaçikyan deyib: "Ancaq əminəm ki, yalnız ermənilər üçün deyil, bütün xalqlar üçün faydalı bir iş görmüşəm, çünki soyqırımların tanınması və qınanılması onların təkrarlanmasının qarşısını almağa kömək edir".

Erməni yalanlarını sübuta yetirən bu kimi faktlar çoxdur... Ağ Ev 1915-ci ildə Osmanlı imperiyası dövründə olan hadisələri araşdırıb. ABŞ prezidenti Reyqanın müşaviri olmuş Brus Fein bildirib ki, prezidentin tapşırığından sonra araşdırmalar aparıblar. Həmin dövrdə tarixi faktlarla tanış olduqdan sonra belə nəticəyə gəliblər ki, "erməni soyqırımı" ilə bağlı danışıqlar tamamilə əsassızdır. Çünki 1915-ci ildə ermənilər tərəfindən çox sayda türk qətlə yetirilib. Həmin dövrə aid türklərin cəsədləri olan kütləvi məzarlıqlar aşkarlanıb. Brus Fein bildirib ki, "erməni soyqırımı" nağılları erməni tarixçilərinin xəyalının məhsuludur. "Erməni quldur dəstələri 2 milyondan çox türkü öldürüb ".

B. Fein əlavə edərək vurğulayır ki, Osmanlı imperiyası dövründə bütün dini və etnik azlıqlar türklərin hüquqlarından istifadə edirdi: "O dövrdə Türkiyədə yunanlar, kürdlər, çərkəzlər, ərəblər və ermənilər kifayət qədər yüksək vəzifələrdə idilər. Birinci Dünya müharibəsi zamanı ermənilər vətənlərinə xəyanət etdilər və Osmanlı imperiyasının düşmənlərinə qoşuldular". Keçmiş müşavir arxiv maaterialları ilə tanış olduqdan sonra əminliklə bildirib ki, hərbi əməliyyatlar zamanı ölən ermənilərin həqiqi sayı 300 min nəfər civarındadır. B.Fein mənfur qonşularımızın iç üzünü də açır: "Ermənilər türk və gürcü kəndlərini qarət etdilər, dinc insanları öldürdülər. Araşdırma zamanı Türkiyə tərəfi arxivlərindən istifadəyə icazə verdi, ermənilər isə arxivlərini açmaqdan qəti şəkildə imtina etdilər. Fikrimcə, bu arxivləri açmağı bacarsaq, şübhəsiz ki, həqiqət üzə çıxacaq. O zaman ermənilər dünyadan və xüsusən də türklərdən tarixi yalanlarına görə üzr istəməli olacaqlar".

Bir neçə gün əvvəl Cozefin işlətdiyi "soyqırım" ifadəsinə münasibətində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirdi ki, hal-hazırda sənədlər toplayırıq. "Cənab Bayden nəyə əsaslanaraq danışır mən anlamıram. Bizim arxivlərimizdə 1 milyondan artıq sənədlər var. Amerikanın hansı sənədləri var və bu sənədləri aça bilirlərmi?"

Ümid edirik ki, Baydenin də ağlına gələcək ki, arxivlərdə bütün tarixi faktlar, sənədlər, sübutlar var. Sadəcə obyektiv olub, hər şeyi öz adı ilə çağırmaq lazımdır.

# Nizami rayonunda Ramazan ayı münasibətilə şəhid və qazi ailələri ziyarət olunur

**Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədr müavini Ramin Əhmədov, deputat Sədaqət Vəliyevanın köməkçisi və partiya fəalları Ramazan ayı münasibətilə rayonun şəhid və qazi ailələrini ziyarət edib, onların problemlərinin həllinə yardımçı olub, dəstəklərini veriblər.**

Ziyarət zamanı dövlətin bu sahədə həyata keçirdiyi işlər barədə ətraflı məlumat verilib, şəhid və qazi ailələrinə köməklik edilib.

Qazilər və şəhid ailələrinin üzvləri də öz növbələrində Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və YAP rəhbərliyinə təşəkkürlərini bildiriblər.







## Eldəniz Səlimov:

# İşğaldan azad edilən ərazilərdə "ağıllı kənd" və "ağıllı şəhər" layihələri reallaşdırılır

"İşğaldan azad edilən torpaqlarımızda yenidənqurma və bərpa işlərinə xüsusi diqqətin yetirilməsi tariximizə və mənəvi varlığımıza dərin bağlılığın göstəricisidir. Hazırda azad olunmuş ərazilərdə böyük inkişafın təməlləri atılır. Artıq regionların inkişafı, əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün bir sıra mühüm layihələr həyata keçirilir. Cənab Prezidentin dediyi kimi Azərbaycanın inkişafı bütün regionun inkişafı üçün əsaslı zəmin yaradır."

**Bu fikirləri "İki sahil" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Eldəniz Səlimov bildirib.**

E.Səlimov qeyd edib ki, qarşıda bizi tamamilə dağıdılmış şəhər və kəndlərin, bütün mədəni və dini abidələrin bərpası kimi mühüm vəzifə gözləyir. Əminəm ki, Qarabağ Azərbaycanın ən gözəl bölgəsi olacaqdır. Dövlət başçısı haqlı olaraq bildirir: "Müəyyən olunmuş milli prioritetlər ölkənin dayanıqlı inkişafını təmin edəcəkdir. Növbəti on il üçün sosial-iqtisadi inkişafla bağlı müəyyən olunmuş milli prioritetlərə rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" da daxildir. Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə vermişdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. İşğaldan azad olunmuş, Lüksemburqdan dörd dəfə böyük olan ərazidə müasir layihələr icra olunacaq və irimiqyaslı yenidənqurma işləri aparılacaqdır."



E.Səlimov diqqətə çatdırıb ki, yeni yollar çəkilir, aeroportlar tikilir, "ağıllı kənd" və "ağıllı şəhər" layihələri reallaşdırılır. Demək olar ki, Azərbaycan üçün müharibə qurtarıb, bərpa-quruculuq işlərinə start verilib. Ermənistanda da başqa ölkələrə nökərlik edən bir qrup revanşistləri nəzərə almasaq, ermənilər artıq dərk edir ki, Qarabağ onların deyil və özgə torpaqları uğrunda ölmək ağılsızlıqdır. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara səfərləri həmişə böyük ruh yüksəkliyi ilə qarşılanır. Dövlətimizin başçısının qeyd etdiyi kimi, biz tezliklə doğma Qarabağımızı cənnətə çevirəcəyik. İşğaldan azad edilmiş ərazilərdə görülən işlər, həyata keçirilən tədbirlər bunu deməyə əsas verir.

Ölkə rəhbəri Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında çıxışı zamanı bir daha məğlubiyyətə uğradılmış qüvvələrə, Ermənistana və onun havadarlarına xəbərdarlıq etdi. Bildirdi ki, əfsuslar olsun Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, növbəti dəfə ərazi iddiası irəli sürürlər. "Onlara, bax, buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. Hər bir ölkənin sərhədi onun dövlət rəmzlərindən biridir. Azərbaycan öz sərhədlərini, ərazi bütövlüyünü tam bərpa edib və heç kim, heç bir qüvvə onun sərhədlərini, ərazi bütövlüyünü bundan sonra poza bilməz. Bu, mümkün deyil və mümkün olmayacaq!"

E.Səlimov xüsusi olaraq bildirdi ki, regionlarda işıq, su, yol, qaz problemlərinin demək olar ki, aradan qaldırılması bu gün əvvəlki illərdən fərqli olaraq daha mütərəqqi, əhatəli tədbirlərin yerinə yetirilməsini, sənaye parklarının, məhəllələrinin, aqroparkların, emal və sənaye müəssisələrinin meydana gəlməsini şərtləndirir. Dövlət başçısı həm də fərəhlə və qətiyyətlə bildirdi ki, Qarabağ zonasında da sənaye parkları olacaq. İndi İqtisadiyyat Nazirliyi bu məsələlərin üzərində işləyir. Qarabağ zonasında mütləq belə müəssisələr yaradılmalıdır ki, insanları işlə təmin edək, həm də ki, bu zonanın potensialından maksimum istifadə edək.

E.Səlimov əlavə edib ki, azad edilmiş torpaqlarda ikinci hava limanının tikintisinə start verilib. Dövlətimizin başçısı bildirib ki, artıq Füzuli Beynəlxalq Hava Limanının tikintisi uğurla gedir. Bu il Füzuli hava limanının uçuş-enmə zolağı istismara veriləcək. Beləliklə, biz bu il ilk təyyarələri Füzulidə qəbul edə biləcəyik. Həmçinin Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır. Bu baxımdan da, təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Göründüyü kimi, bərpa-quruculuq prosesinə diqqətlə, koordinasiya olunan tərzdə, vahid mərkəzdən idarə edilərək başlanılıb.

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# “YAŞAT” Fonduna 36 milyon manatdan çox vəsait toplanıb

Bu günə kimi “YAŞAT” Fondunun əməkdaşları 2881 şəhid ailəsini ziyarət edib, 2700-dən çox qazi ilə müxtəlif məkanlarda görüşüblər. Yataq xəstəsi olan 300-dən çox qazinin mənzilində görüş keçirilib.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, bunu “YAŞAT” Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov deyib.

E.Hüseynov bildirib ki, “YAŞAT” Fondunun 4 fəaliyyət istiqaməti var. İndiyədək Fonda 36 milyon manatdan çox vəsait toplanıb. 20 milyondan çox vəsait təyinatı üzrə xərclənib. Fonda toplanan vəsaitlər ən çox məişət şəraitinin yaxşılaşdırılması və tibb istiqamətləri ilə bağlı xərclənir. Çünki ən çox müraciətlər bu istiqamətlər üzrədir.




Tibb istiqaməti üzrə görülən işlər barədə məlumat verən E.Hüseynov qeyd edib ki, Fond tərəfindən Türkiyədən dəvət olunan bir qrup həkim ölkəmizə gələrək tibb müəssisələrində qazilərlə görüş keçiriblər. Həmin qazilər xarici və yerli mütəxəssislərin rəyi nəzərə alınaraq qardaş ölkəyə müalicəyə göndərilib. Eyni zamanda, İsraildən ölkəmizə 8 cərrah gəlib. Onlar 140-dan çox qazini müayinə, 30-dan artıq qazini əməliyyat ediblər. 50-dən çox qaziyə protez göz taxılıb, 2 qazi üzərində buynuz qişa əməliyyatı icra edilib və onların görməsi bərpa olunub.

“YAŞAT” Fondu tərəfindən 76 qazi Türkiyəyə göndərib, onlardan 9-u sağalaraq vətənə dönüb. Hazırda 69 qazinin Türkiyədə müalicəsi davam edir. Ümumiyyətlə, ağır yaralı qazilərin ölkə xaricində müalicəsi ilə bağlı fəaliyyət davam etdirilir.

“YAŞAT” Fondunun fəaliyyət istiqamətlərindən biri də sentyabrın 27-dən sonra doğulan şəhid övladları ilə bağlıdır. Bu günə kimi 68 şəhidin yeni doğulmuş övladına aid depozit hesablara yerləşdirilib”, - deyə Fondun rəhbəri diqqətə çatdırıb.

# Hande Harmançı: Azərbaycanda pandemiyaya qarşı əhəmiyyətli tədbirlər görülür

İndiyədək yeni növ koronavirus (COVID-19) infeksiyasına dünyada 150 milyon yoluxma qeydə alınıb, 3 milyondan çox insan bu dəhşətli təhlükənin qurbanı olub.

ÜST-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı AZƏRTAC-a müsahibə verərkən COVID-19-a yoluxma ilə əlaqədar son statistikanı da xatırladıb və deyib: “Hazırda dünyanın bir çox ölkəsində COVID-19-a yoluxanların və infeksiya nəticəsində həyatını itirənlərin sayı artmaqda davam edir. Hərçənd ki, bir sıra ölkədə peyvəndin tətbiq olunmasından sonra yoluxma saylarında azalma və sabitləşmə yaranıb. Əlbəttə ki, bunlar xoş xəbərlərdir. Azərbaycanda da infeksiyaya qarşı mübarizə ilə əlaqədar olaraq əhəmiyyətli tədbirlər görülür. Bir tərəfdən əl gigiyenası, sosial məsafənin saxlanılması və maska taxılması tədbirləri, digər tərəfdən də əhali arasında peyvəndlənmə tədbirləri davam edir. Lakin bununla yanaşı, qorunma tədbirlərinə əməl olunmalıdır, çünki yeni ştamlar hər zaman meydana çıxa bilər. İndiyə qədər görülən bütün tədbirlərin hamısı birlikdə aparılmalıdır. Necə ki, soyuq havada həm papaq, həm əlcək geyinmək, həm




şərf bağlamaq, həm də qalın geyinmək lazımdır, COVID-19-dan da qorunmaq üçün bunların hamısı eyni vaxtda edilməlidir - həm peyvəndləmə aparılmalı, həm otaqlar havalandırılmalı, həm də digər tibbi qaydalar ciddi şəkildə gözlənilməlidir”.

# Diaspor könüllüləri dünya dövlətlərini mina xəritələrinin verilməsi üçün rəsmi İrəvana təsir göstərməyə çağırıblar

Ermənistanın minalanmış ərazilərin xəritələrini Azərbaycana təhvil verməkdən imtina etməsinə etiraz əlaməti olaraq Azərbaycan Diaspor Könüllülərinin təşəbbüsü ilə xüsusi aksiya keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən “İki sahil”ə bildiriblər ki, pandemiya qaydalarına uyğun olaraq, ayrı-ayrı qruplar şəklində Komitədə toplaşan könüllülər öz şəxsi elektron ünvanlarından müxtəlif ölkələri təmsil edən avropalı parlamentarilərə, ABŞ konqresmenlərinə və beynəlxalq təşkilatlara müraciət ediblər. Qərb siyasətçilərinin və beynəlxalq təşkilatların elektron ünvanlarına ingilis dilində göndərilən ümumilikdə yüz minlərlə müraciətdə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğaldan azad edilmiş şəhər və kəndlərini viran qoyduqları, əraziləri minaladıqları diqqətə çatdırılıb.



Təəssüflə qeyd edilib ki, Ermənistanın mina xəritələrini təhvil verməkdən imtinasının acısını 30 ilə yaxın məcburi köçkünlük həyatı yaşamış və müharibədən sonra doğma torpaqlarına can atan Azərbaycan vətəndaşları çəkir. Bildirilib ki, onların minaların qurbanına çevrilir, həlak olur və ya əlilə çevrilirlər. Bu proses Qarabağda yenidənqurma işlərinin aparılmasına, Azərbaycan vətəndaşlarının öz evlərinə qayıtmasına, bölgədə uzunmüddətli sülh və sabitliyin bərqərar olmasına ciddi əngəl yaradır.

Ermənistanın beynəlxalq humanitar hüquq prinsipini pozduğunu xatırladan Diaspor Könüllüləri beynəlxalq təşkilatları, avropalı və amerikalı parlamentariləri minalanmış ərazilərin xəritələrinin Azərbaycana təhvil verilməsi üçün rəsmi İrəvana təsir göstərməyə çağırış ediblər.

## BP LAYİHƏLƏRƏ 614 MİN DOLLAR SƏRF EDİB



BP bu ilin ilk rübündə Azərbaycanda sponsorluq layihələrinə 284 min ABŞ dolları vəsait xərcləyib.

“BP Azerbaijan” şirkətindən “İki sahil”ə bildirilib ki, üç ayda BP və onun əməliyyatçısı olduğu birgə müəssisələrdəki tərəfdaşları isə Azərbaycanda sosial investisiya layihələrinə 330 min dollar vəsait sərf edib. Beləliklə də, BP həm özü, həm də tərəfdaşları ilə birgə yanvar-mart aylarında Azərbaycandakı layihələrə 614 min dollar vəsait sərf edib.

## “AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ”dən NEFT İSTEHSALI 4 MİLYARD BARRELƏ ÇATIR



Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokundan ilk neft hasilatından bu vaxtadək ümumi istehsal 3,9 milyard barreldən çox olub.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, bu barədə “BP Azerbaijan” şirkəti məlumat yayıb.

## ÜÇ AYDA 5 MİLYARD KUBMETRDƏN ÇOX “ŞAHDƏNİZ” QAZI GÖNDƏRİLİB



Yanvar-mart aylarında Səngəçal terminalından 5 milyard kubmetrdən çox “Şahdəniz” qazı ixrac edilib.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, bu barədə “BP Azerbaijan” şirkəti məlumat yayıb.

## BP-dəki AZƏRBAYCANLILARIN SAYI AÇIQLANIB



Birinci rübün sonuna BP şirkətinin işçisi olan Azərbaycan vətəndaşlarının sayı 2425 nəfər təşkil edib. “BP Azerbaijan” şirkətindən “İki sahil”ə bildirilib ki, buraya müddətli müqavilə əsasında işləyən işçilər də daxildir.

“2018-ci ilin ortalarından BP-nin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edib. İxtisası olmayan işçilər isə 100 faiz yerli vətəndaşlardan ibarətdir. BP öz təlim və inkişaf proqramlarını daha da optimallaşdırmaq, yüksək səviyyəli kadrlar üzrə yerli bazarı daha da yaxşılaşdırmaq məqsədilə dövlət və özəl sektorun təşəbbüslərində yaxından iştirak etmək səylərini davam etdirəcək”, - deyə məlumatda qeyd olunur.

## DAYAZSULU ABŞERONDA İLK QUYUNUN BU İL QAZILMASI ÜÇÜN MÜVAFİQ İCAZƏLƏR ALINIB



Abşeron yarımadasının dayazsulu hissəsi üzrə hasilatın pay bölgüsü sazişi ərazisində seçilmiş yerlərdə ilk kəşfiyyat quyusunun qazılması işlərinin planlaşdırılması davam edir.

“BP Azerbaijan” şirkətindən “İki sahil”ə bildirilib ki, quyu üzrə Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi sənədi 2020-ci ilin avqust ayında ictimaiyyətə açıqlanıb. Sənədin müzakirəsi bitdikdən sonra bu ilin yanvar ayında hökumət tərəfindən təsdiqlənib və bununla da quyunun 2021-ci ildə qazılması üçün müvafiq icazələr alınmış olub.

## “D230” BLOKUNDA SEYSMİK MƏLUMATLARIN İNTERPRETASİYASI DAVAM EDİR

“D230” blokunda seysmik məlumatların interpretasiyası davam edir. “BP Azerbaijan” şirkətindən “İki sahil”ə verilən məlumata görə, seysmik tədqiqatın interpretasiyasının nəticələri müsbət olarsa, əsas kəşfiyyat proqramına başlana bilər.

## “ŞƏFƏQ-ASİMAN” BLOKUNDA İLK KƏŞFİYYAT QUYUSU QAZILIB



“Şəfəq-Asiman” dəniz blokunda ilk kəşfiyyat quyusunun qazılması cari ilin mart ayında Fasilə lay dəstində 7189 metr dərinlikdə tamamlanıb.

“BP Azerbaijan” şirkətindən “İki sahil”ə bildirilib ki, quyunun keçdiyi lay dəstlərində qaz-kondensat ehtiyatları aşkar edilib. Lakin bu ehtiyatların qiymətləndirilməsi üçün əlavə işlərə ehtiyac var, buna görə də nəticələrə baxmaq və potensial olaraq bir yanlülə qiymətləndirmə quyusu da daxil olmaqla qiymətləndirmə işlərinin növbəti addımlarını planlaşdırmaq məqsədilə qazma işlərinin müvəqqəti dayandırılması qərara alınıb.



# Revanşizm xülyası Ermənistana növbəti dəmir yumruq vəd edir

Cavid Əkbərov

Bildiyimiz kimi, aprelin 26-da Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.

Səfər çərçivəsində Prezident İlham Əliyev Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşü zamanı çıxışında bildirib ki, Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, bizə qarşı ərazi iddiası irəli sürürlər: "Onlara, bax, buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. Dəmir yumruq düşmənin başını əzdi."

Dövlətimizin başçısı deyib ki, bu yaxınlarda Azərbaycan-Ermənistan sərhədinin Zəngilan istiqamətində bizim sərhədçilərimizə qarşı edilən hərbi təxribat sonuncu belə cəhd olmalıdır: "Biz təmkinlik göstərərək bu təxribata cavab vermədik. Amma bu, sonuncu xəbərdarlıqdır. Əgər bir daha buna oxşar cəhd göstərilərsə, düşmən yerindəcə məhv ediləcək. Biz öz sərhədimizi qoruyuruq və bundan sonra da qoruyacağıq..."

44 günlük Vətən müharibəsindən sonra Ermənistan şok vəziyyətinə düşüb. İşğalçı ölkənin hakimiyyəti, müxalifəti və cəmiyyəti sözün həqiqi mənasında çaşqınlıq içindədir. Bu ölkədə ən çox şoka düşənlər isə radikal birləşmələr, qruplar və faşist təmayülünə bağlı olanlardır. Bunların önündə "Daşnaksütyun" partiyası, erməni kilsəsi, xaricdəki erməni lobbisi və diaspor təşkilatları gedir. Onlar hər zaman Azərbaycan və Türkiyə ilə bağlı məsələlərdə çox radikal mövqedən çıxış ediblər. Onlar, həmçinin bunu erməni ictimaiyyətindən də tələb etməklə bir növ cəmiyyəti bu radikalizmə məcbur ediblər. Lakin Vətən müharibəsində Azərbaycanın parlaq Qələbəsi, Ermənistanın başına dəyən dəmir yumruq bu ölkənin planlarını, siyasətini, hərbi-sənaye kompleksini və iqtisadiyyatını darmadağın etdi.

Azərbaycan Qarabağın işğaldan azad edilməsi məsələsini silah gücü ilə həll etdi, torpaqlarımızı düşməndən geri qaytardı. İndi Ermənistan daxilində olan radikal qruplar yenidən revanşist çıxışlar edirlər və erməni xalqını intiqama köklməyə cəhd göstərirlər. Ermənistandakı radikal qruplaşmalar bu yolla Azərbaycandan qisas almaq istəyirlər.

Ermənistanın radikal qüvvələri müharibədən nəticə çıxarmalıdırlar. Onlar bir qarış torpağımızı belə silah gücünə zəbt etmək fikrinə düşsələr, bu dəfə daha ağır zərbə alacaqlar. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Bu o deməkdir ki, erməni radikalları, faşistləri nəinki bir şəhərimizi, kəndimizi, hətta bir metr ərazimizi belə silah gücünə işğal etmək niyyətinə düşsələr, bu dəfə dəmir yumruq onları birdəfəlik məhv edəcək. Çünki Azərbaycan Ordusu Qafqazın ən güclü ordularından biri olduğunu 44 günlük müharibədə sübut etdi.

Prezident İlham Əliyev 2020-ci il dekabrın 10-da Bakıda keçirilən Qələbə paradında Zəngəzurun, İrəvanın, Göyçənin Azərbaycanın tarixi torpaqları olduğunu bir daha bəyan etməklə ermənilərin kim olduqlarını, haradan gəldiklərini xatırlatdı. Heç şübhəsiz ki, Ermənistandakı revanşist, qisasçı, faşist qrupların çağırışları populizm və boşboğazlıqdır. Bu, Ermənistan cəmiyyəti və bütün bölgə üçün təhlükəlidir. Revanşistlərin bu cür separatçı çağırışları Ermənistanın dövlət kimi sonunu yaxınlaşdıra və bütövlükdə, bu ölkənin yer üzündən silinməsi ilə nəticələnə bilər. Revanşist qüvvələr erməni xalqının mövcud vəziyyəti düşünməli və öz populist çıxışları ilə onları qisas ruhunda kökləməyi dayandırmalıdırlar. Eyni zamanda, onlar Ermənistanın məğlubiyyəti ilə barışmalıdırlar. Birdəfəlik dərk etməlidirlər ki, faşizmə, radikalizmə həm bizim bölgədə, həm də dünyada yer yoxdur.

BİRİNCİ RÜBDƏ QEYRİ-NEFT İXRACI:

# Ümumi ixracın 33 faizi Türkiyənin payına düşüb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2021-ci ilin aprel sayında qeyd olunub ki, 2021-ci ilin birinci rübü ərzində Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 501,5 milyon ABŞ dolları təşkil edib ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 70,6 milyon ABŞ dolları və ya 16,4 faiz çoxdur. Həmçinin qeyri-neft sektorunun Azərbaycanın ixracında payı ötən ilin müvafiq rübü ilə müqayisədə 2 faiz bəndi artaraq 12,1 faiz olub. Dövr ərzində qeyri-neft məhsullarının ixracı üzrə 393 mal mövqeyi müəyyənləşdirilib ki, bu da mal və məhsulların diversifikasiyası nöqteyi nəzərdən Cənubi Qafqaz ölkələri üzrə ən yüksək göstəricidir.



2021-ci ilin birinci rübü ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı birinci olub. Bu siyahıda qızıl ikinci, xurma isə üçüncü yerdə qərarlaşıb. Qeyd edək ki, yanvar-fevral ayları üzrə qeyri-neft ixracına da bu məhsullar başçılıq edirdi.

2021-ci ilin birinci rübü ərzində Türkiyəyə 163,1 milyon, Rusiyaya 129,8 milyon, İsveçrəyə 44,7 milyon, Gürcüstana 38 milyon və ABŞ 18,3 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Bununla da, ötən ilin birinci rübü ilə müqayisədə Türkiyəyə ixrac 58,7 milyon dollar artsa da, Rusiyaya ixrac 4,6 milyon dollar azalıb. Həmçinin Gürcüstana ixrac 4,9 milyon dollar azalsa da, İsveçrəyə ixracda 1,8 milyon dollar artım olub.

Türkiyə mart ayı üzrə də lider olub. 2021-ci ilin mart ayında qeyri-neft sektoru üzrə ixrac 170 milyon ABŞ dolları təşkil edib ki, bunun 56,2 milyon dolları və ya ümumi ixracın 33 faizi Türkiyənin payına düşüb. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur. Ümumiyyətlə, birinci rübdə qeyri-neft ixracının 32,5 faizi bu ölkəyə həyata keçirilib. Həmçinin ümumi qeyri-neft ixracında rüblük artımın 83 faizi Türkiyəyə ixracın artımı fonunda olub.

Rusiyaya ixrac isə 44,3 milyon dollar və ya 2020-ci ilin mart ayı ilə müqayisədə 2,1 milyon dollar az olub. Gürcüstana qeyri-neft ixracı isə 1,7 milyon dollar artaraq 9,7 milyon ABŞ dollar təşkil edib.

2021-ci ilin mart ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (31,4 milyon ABŞ dolları) birinci, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (13,7 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (9,7 milyon ABŞ dolları) üçüncü olub. Bununla da pambıq mahlıcının ixracı 2,4 dəfədən çox artsa da, fındıq ixracı 31 faiz azalıb. Ümumilikdə bu məhsullar aylıq qeyri-neft ixracının 32 faizini təşkil edib.

Buradan belə aydın olur ki, fevral ayı yanvar və martla müqayisədə 3 gün qısa olsa da, rüb ərzində ən böyük qeyri-neft ixracı bu ayın payına düşüb. Bununla da aylıq müqayisədə fevralda qeyri-neft ixracının dəyəri 26,8 faiz artsa da, martda 8 faizdən çox azalıb.

Azərbaycan və Türkiyə hökumətləri arasında imzalanan Preferensial Ticarət Sazişinə əsasən, iki ölkə ərazisində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin cari ilin mart ayının 1-dən illik tarif kvotası çərçivəsində müəyyən olunmuş mallar üzrə güzəştlərdən yararlanmaq imkanı qeyri-neft ixracının artırmasına şərait yaradır. Bu baxımdan mart ayında qeyri-neft ixracında fevralla müqayisədə azalma olsa da, ötən ilin mart ayına nisbətən 37 milyon dollar və ya 28 faiz artımın qeydə alınmasını sözügedən faktorun olması ehtimalı yaranır. Lakin o da məlumdur ki, Türkiyəyə qeyri-neft ixracında yanvar-fevral aylarında 31,6 milyon dollar artım olub ki, ümumi artımın 89,5 faizinə bərabərdir.

2021-ci ilin birinci rübü ərzində meyvə-tərəvəz ixracı 97,2 milyon, pambıq lifi ixracı 69 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 42,4 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 22,2 milyon, pambıq ipliyi ixracı 10,3 milyon, kimya sənayesi məhsullarının ixracı 9 milyon, şəkər ixracı 9 milyon, heyvan mənşəli piylər və yağlar ixracı 8,4 milyon, spirtli və spirtsiz içkilərin ixracı 3,4 milyon, bitki və çay ixracı 2 milyon ABŞ dolları təşkil edib. İcmalda bildirilib ki, qeyd edilən mal və məhsullar qeyri-neft ixracının 45 faizini təşkil edir. Bu göstərici qeyri-neft ixracının artımı fonunda mal və məhsulların ötən illərlə müqayisədə daha çox diversifikasiya olunmasını özündə ehtiva edir.

✍ Ceyhun Piriyev,
*"İki sahil"*



# BP: "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə mühəndis-layihələndirmə işləri yekunlaşıb

"Azəri-Mərkəzi-Şərqi" (ACE) layihəsi üzrə mühəndis-layihələndirmə işləri başa çatıb.

"BP Azerbaijan" şirkətindən "İki sahil"ə bildirilib ki, COVID-19 pandemiyasının yaratdığı çətinliklər və məhdudiyyətlərə baxmayaraq, cari ilin ilk rübü ərzində ACE layihəsi, eləcə də BP-nin digər fəaliyyətləri vəziyyətə uyğunlaşmaqla fasiləsiz davam edib.

Rübün sonuna layihə üzrə müfəssəl mühəndis-layihələndirmə işləri ümumilikdə başa çatıb. İri avadanlıq yüklərinin və irihəcmli materialların tikinti-quraşdırma işlərinin qrafikini dəstəkləyərək Bakıya daşınması davam edib. Platformanın üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri Bibiheybətdəki tikinti sahəsində davam edib. Ağır yüklərin qaldırılması proqramı irəliləyib və bura aşağıdakı əməliyyatlar daxildir: alt göyərtənin bütün seksiyalarının quraşdırılması, üst göyərtənin ilk seksiyalarının öz mövqelərinə qaldırılması və bir neçə əsas qazma modulunun qaldırılması.

Mexaniki avadanlıq dəstlərinin quraşdırılması irəliləyib, boru xətlərinin quraşdırılması, dikəldilməsi və kabellərin çəkilməsi işlərinə başlanıb. Mexaniki avadanlıq dəstlərinin yoxlanması və avadanlıqların çatdırılması davam edib, yaşayış modullarının və əsas gəmi yüklərinin çatdırılması plan üzrə irəliləyib. Yaşayış modulları İsveçdən yola salınıb və bu ilin ikinci rübündə Bakıya çatdırılacağı gözlənilir.

Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda dayaq blokunun tikintisi həm quraşdırma sexlərində, həm də ştapelin üzərində olmaqla bütün sahələrdə davam edib. Sualtı qurğuların və birləşdirici dirsəklərin istehsal-quraşdırma işləri də davam edib.

Rüb ərzində, həmçinin ACE layihəsinin dəniz işlərinin digər hissələrini də irəli aparan fəaliyyətlər olub. Bunlara lay sularının idarə olunması ilə bağlı "Mərkəzi Azəri" platformasında aparılan işlər və "Şərqi Azəri" platformasında ACE platformasının "Azəri" yatağındakı digər obyektlərdən elektrik enerjisi alması ilə enerji istehsalının optimallaşdırılmasına imkan verəcək işlərə 2021-ci ilin ikinci rübündə başlanması üçün hazırlıqlar daxildir. Səngəçal terminalında yerləşəcək ACE nəzarət otağının layihələndirilməsi tamamlanıb və planlaşdırılmış modifikasiya işləri bu ilin dördüncü rübündə başlanacaq.

Ümumilikdə, 2023-cü ildə ACE layihəsindən ilk hasilatı əldə etmək üçün həyata keçirilən mühəndis-layihə, tədarük və istehsal-quraşdırma işləri qrafikə uyğun davam edir.

# Azərbaycan qarşıya qoyduğu bütün hədəflərə çatacaq

## "İki sahil" www.yap.org.az saytına istinadən Milli Məclisin deputatı Jalə Əliyevanın müsahibəsini təqdim edir

***-Jalə xanım, bildiyimiz kimi, ABŞ Prezidenti Co Bayden 24 aprel tarixli bəyanatında uydurma "erməni soyqırımı" ifadəsini işlədib. Türkiyə və Azərbaycanda ABŞ prezidentinin bu addımı kəskin etirazla qarşılanır. Sizcə, belə bir addımın atılmasında məqsəd nədən ibarətdir?***

-Son bir neçə günümüz yenə zəngin hadisələrlə, tarixi mesaj və bəyanatlarla, açılışlarla yadda qaldı. İstər dünyamızda, istər ətrafımızda, istərsə də ölkəmizdə gündəm mövzuları çox zəngin oldu.Təbii ki, bir parçası, tərkib hissə olduğumuz üçün dünya gündəmini məşğul edən bir çox mövzular, məsələlər bu və ya digər dərəcədə ölkəmizi də ilgiləndirdi, əhatələndirdi. Birinci ondan başlayaq ki, aprelin 24-də ABŞ prezidenti Co Bayden tarixi həqiqətlərə və faktlara göz yumaraq, çıxışında "erməni soyqırımı" ifadəsini səsləndirdi. Bununla da ABŞ tarixində, xüsusilə də, son 40 ildə bu saxta və uydurma məsələni dilə gətirən ikinci dövlət başçısı oldu. Bu bəyanatı, bu ifadəsilə də həm ölkəsinin imicinə, dünyadakı nüfuzuna zərbə vurdu, həm də tarixi müttəfiqi olan qardaş və dost Türkiyə ilə münasibətləri ciddi şəkildə zədələdi. Eyni zamanda, Azərbaycanla münasibətlərə xələl gətirdi. Bəli, dünyanın iki-üç supergücündən birinin ali dövlət rəhbərinin belə yanlışlığa və tarixi xətaya yol verməsi qəbuledilməz və bağışlanmazdır. Çünki dünyada "erməni soyqırımı" deyilən bir məsələ yoxdur. Əgər soyqırımı məsələsi bunları belə düşündürürsə, soyqırımına məruz qalmış bir xalq, qövm olaraq, dəqiq ünvanı göstərə, təqdim edə bilərik ki, kim soyqırımı edib, kim soyqırımına məruz qalıb. Bəli, soyqırımı tarixi-bəşəri cinayətdir, onu kim törədirsə, cəzaya və lənətə layiqdir, ancaq burada ünvan səhv salınmamalı, fakt və faktlar saxtalaşdırılmamalı, hədəf yayındırılmamalıdır.

Bəli, soyqırımı görmək istəyənlər istər qardaş Türkiyənin, türk xalqının tarixinə, yaşanmışlarına nəzər salsınlar, həm də Azərbaycan xalqının, Azərbaycan türklərinin bir əsrdən çoxdur başına gətirilənlərə diqqət yetirsinlər. Onda görərlər ki, kim, hansı xalq soyqırımına, qətliamlara məruz qalıb, kim, hansı xalq soyqırımı-vəhşət törədib. Bəli, soyqırımına, vandalizmə, barbarizmə məruz qalan bizlərik-Türkiyə və Azərbaycan türkləri, bu soyqırımı aktlarını, insanlıq dramlarını da həyata keçirənlər məhz dünyanın "əzabkeş", "yazıq", "məzlum" kimi tanıdıqları ermənilər, onları bizim üzərimizə körükləyənlərdir. 1918-ci ilin mart qırğınları, Bağanis Ayrım, Qarakənd, Xocalı, Umudlu, Qaradağlı, Meşəli, Cəmilli, Ağdaban, Ballıqaya, Başlıbel soyqırımları, vandalizmləri, daha neçə-neçə insanlıq dramları məhz bizə qarşı törədilib, bizə yaşadılıb, özü də məhz erməni qaniçənləri, onların Şimallı-Cənublu, Qərbli-Şərqli havadarları tərəfindən. Ona görə də soyqırımı "axtarışı"nda olanlar bu faktlardan danışsınlar, özlərini lallığa, karlığa və korluğa vurmaqdan qurtarsınlar, həqiqətin, olanların gözünə dik baxsınlar. Amma nə yazıqlar ki, "axtarış"da olanlara bunlar sərf etmir, bunlar lazım deyil. Onlara öz məkrli siyasətlərini planlamaq və həyata keçirmək üçün uydurma, saxta "erməni soyqırımı" lazımdır. Amma indiyə qədər heç nəyə nail ola bilmədikləri kimi, bundan sonra da heç nəyə nail ola bilməyəcəklər, "bomba"ları öz əllərində partlayacaq yenə. Nə qardaş və dost Türkiyəni, nə də onunla qoşa addımlayan Azərbaycanı öz məhvərindən qoparmaq, öz yolundan sapdırmaq mümkün olacaq. Necə ki, indiyədək mümkün olmayıb, bundan sonra mümkün deyil və olmayacaq! Heç təsadüfi deyil ki, Baydenin son bəyanatı Türkiyə və Azərbaycanı bir daha bir-birinə yaxınlaşdırdı, pərçimlədi! İki qardaş və dost dövlət yenə "İki dövlət-bir millət" olduğunu, həmrəyliyini nümayiş etdirdi və hər kəsə bir daha yerini tanıtdı. Elə həmin gün, aprelin 24-də Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı oldu. Telefon danışığı əsnasında dövlət başçıları ABŞ Prezidenti C.Baydenin qondarma "erməni soyqırımı" ilə əlaqədar verdiyi bəyanatını qınadılar. Bu qərarın yanlış olduğunu qeyd edən Prezident İlham Əliyev onu tarixi səhv adlandırdı.

Dövlətimizin başçısı Azərbaycanın bu bəyanatı qəbuledilməz hesab etdiyini vurğuladı.Söhbət zamanı Prezident İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu qeyd etdi. Prezident Rəcəb Tayyib Ərdoğan dəstəyə və ifadə etdiyi mövqeyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O da Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdırdı. Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafından məmnunluqlarını ifadə etdilər. Bəli, növbəti dost və qardaş həmrəyliyi, birgəliyi, vahidliyi! Bəli, bizi biz, bizi həmrəy, bizi güclü edən də elə budur!

Bizdən qorxmalarının, bizim üzərimizə əyri-üyrü yollarla saldırmalarının da səbəbi elə budur! Yəni, bir andaca həmrəy, güclü, tək ürək, tək yumruq olmağımız, bir-birimizə pərçimlənməyimiz! Bəli, biz birlikdə güclüyük, birlikdə də Güclü və Müzəffər olacağıq. Yolumuzun üzərinə nə qədər daşkəsək töksələr belə, alınmayacaq, niyyətləri baş tutmayacaq.

***-Bir neçə gün öncə Azərbaycan Prezidenti cənab İlham Əliyev BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında çıxış etdi. Bu çıxışın əhəmiyyətini necə dəyərləndirirsiniz?***

- Bəli, bu həftənin ilk günü, bazar ertəsi BMT-nin qərargahı Tailandda yerləşən Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyası öz işinə başladı.Sessiyanın Asiya və Sakit okean regionu ölkələrinin dövlət və hökumət başçılarının çıxışları seqmentində Azərbaycan Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olundu. Bu çıxışda dövlət başçımız bütövlükdə dünyamızı maraqlandıran, narahat edən məsələlərlə bağlı bir daha həm özünün, həm də Azərbaycanın müfəssəl, mükəmməl, birmənalı mövqeyini ortaya qoydu. Çıxışında istər bir ildən çoxdur dünyanı başına götürən koronavirus pandemiyasına, istərsə də 32 illik qanlı Qarabağ münaqişəsinə toxunan ölkə rəhbəri növbəti dəfə açıq, aydın mesajlarını, xəbərdarlıqlarını ifadə etdi. Bildirdi ki, Azərbaycan pandemiyaya qarşı qlobal fəaliyyətin səfərbər edilməsi səylərinin önündə gedir. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr edilmiş Zirvə toplantısının təşəbbüskarı olmuş və onun uğurla həyata keçirmişdir. Bizim təşəbbüsümüzlə ötən ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilmişdir.



Həmçinin "vaksin millətçiliyi", vaksinlərin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ədalətsiz bölgüsü bizi dərindən narahat etmişdir və etməkdədir. Çünki dünyada mövcud vaksinlərin 53 faizi 30-dan çox zəngin dövlət tərəfindən sifariş edilmişdir. Azərbaycan isə həm Qoşulmama Hərəkatının sədri kimi, həm də milli səviyyədə dünyada vaksinlərin ədalətli bölgüsü və vaksinlərin inkişaf etməkdə olan və ən az inkişaf etmiş ölkələr üçün əlçatanlığının təmin edilməsi istiqamətində mübarizəsini davam etdirir və etdirəcək.

Eyni zamanda, 2020-ci ilin sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrimizi və dinc sakinlərimizi ağır artilleriya atəşinə tutaraq Azərbaycana qarşı irimiqyaslı hərbi təcavüzə başlamışdır. Azərbaycan isə öz vətəndaşlarını qorumaq üçün əks-hücum əməliyyatına başlamaq məcburiyyətində qalmışdır. Nəticədə də Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrini və beynəlxalq hüququn norma və prinsiplərini icra etmiş, tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etmişdir. Beləliklə, 44 günlük İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tamamilə darmadağın edilmişdir. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur edilmiş, 32 illik Ermənistan-Azərbaycan münaqişəsi sona çatmışdır. Artıq qanlı münaqişə tarixdə qalmışdır. Hazırda isə Qalib ölkə olaraq, qarşımızda işğaldan azad olunmuş ərazilərdə tamamilə dağıdılmış şəhər və kəndlərin, bütün mədəni və dini abidələrin bərpası kimi nəhəng vəzifə dayanır. Yenidənqurma prosesi çərçivəsində "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji" konsepsiyalarından istifadə olunacaq. "Mən dost ölkələrdən olan şirkətləri işğaldan azad olunmuş, Lüksemburqdan dörd dəfə böyük olan ərazidə irimiqyaslı yenidənqurma işlərinə dəvət edirəm"-deyən Ali Baş Komandan onu da bildirmişdir ki, dövlət rəhbəri olaraq, bu yaxınlarda növbəti on il üçün sosial-iqtisadi inkişafla bağlı milli prioritet müəyyən edib və buraya rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi də daxildir. Çünki Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır.

Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə vermişdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələr də bu regional layihənin potensialını nəzərdən keçirə bilərlər. Biz sözümüzü dedik, öz səmimi mövqeyimizi ortaya qoyduq, indi seçim, qərar onlarındır!

***-Cənab Prezident işğaldan azad olunmuş Cəbrayıl və Zəngilan rayonlarına son səfəri zamanı da mühüm mesajlar verdi. Bu barədə nə deyə bilərsiniz?***

- Müzəffər Ali Baş Komandan, Qalib Sərkərdə, xalqının Xilaskar oğlu-ölkə Prezidenti cənab İlham Əliyev növbəti dəfə işğaldan azad olunmuş bölgələrimizə-Cəbrayıl və Zəngilanımıza səfər etdi. Bu səfərdə yenə də onun yol yoldaşı ən yaxın və ən sadiq silahdaşı Mehriban xanım Əliyeva oldu. Ali Baş Komandanla ölkənin Birinci xanımı və Birinci vitse-prezidenti 6-cı dəfə Qarabağımıza səfərlərini gerçəkləşdirdilər və bununla növbəti dəfə tarix yazdılar, növbəti dəfə Qələbələrimizin üzərinə Qələbələr, Zəfərlərimizin üzərinə Zəfərlər əlavə etdilər! Bu səfər də əvvəlki səfərlər kimi, zəngin açılışlarla, Ali Baş Komandanın yadda qalan mesaj və bəyanatları ilə yadda qaldı. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak etdi, eyni zamanda, dövlət başçımız Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "ağıllı kənd" layihəsinin, Zəngilan beynəlxalq hava limanının, Zəngilan-Horadiz avtomobil yolunun təməlini qoydu. Həmçinin səfər zamanı dövlət başçımız Zəngilan sakinləri ilə görüşdü.

Ölkə rəhbəri Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında çıxışı zamanı bir daha məğlubiyyətə uğradılmış qüvvələrə, Ermənistana və onun havadarlarına xəbərdarlıq etdi. Bildirdi ki, əfsuslar olsun Ermənistanda baş qaldıran revanşist qüvvələr yenə də bizə qarşı ittihamlarla çıxış edərək, növbəti dəfə ərazi iddiası irəli sürürlər. "Onlara, bax, buradan xəbərdarlıq etmək istəyirəm ki, bu çirkin əməllərdən əl çəksinlər, yoxsa onların axırı pis olacaq. Biz Vətən müharibəsi dövründə kimin kim olduğunu göstərdik. Dəmir yumruq düşmənin başını əzdi. Bu yaxınlarda Azərbaycan-Ermənistan sərhədinin Zəngilan istiqamətində bizim sərhədçilərimizə qarşı edilən hərbi təxribat sonuncu belə cəhd olmalıdır. Biz təmkin göstərərək bu təxribata cavab vermədik"-deyən Ali Baş Komandan bir daha qətiyyətli şəkildə bildirdi ki, bu, sonuncu xəbərdarlıqdır. Əgər bir daha buna oxşar cəhd göstərilərsə, düşmən yerindəcə məhv ediləcək. Biz öz sərhədimizi qoruyuruq və bundan sonra da qoruyacağıq. Hər bir ölkənin sərhədi onun dövlət rəmzlərindən biridir. Azərbaycan öz sərhədlərini, ərazi bütövlüyünü tam bərpa edib və heç kim, heç bir qüvvə onun sərhədlərini, ərazi bütövlüyünü bundan sonra poza bilməz. Bu, mümkün deyil və mümkün olmayacaq!

Eyni zamanda, Zəngilan beynəlxalq hava limanının təməlatma mərasimində çıxışı zamanı dövlət başçısı bəyan etdi ki, adıçəkilən hava limanının uçuş-enmə zolağı üç kilometrə bərabər olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacaq. Bununla yanaşı, azad edilmiş torpaqlarda ikinci hava limanının tikintisinə start verilib. Artıq Füzuli beynəlxalq hava limanının tikintisi uğurla gedir. Bu il Füzuli hava limanının uçuş-enmə zolağı istismara veriləcək. Beləliklə, biz bu il ilk təyyarələri Füzulidə qəbul edə biləcəyik. Həmçinin Zəngilan rayonunun coğrafi yerləşməsi və burada olan imkanlar təbii ki, Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır. Bu baxımdan da, təsadüfi deyil ki, hava limanı məhz Zəngilanda inşa ediləcək. Çünki coğrafi vəziyyətə baxdıqda hər kəs görə bilər ki, Füzuli, Zəngilan və ondan sonra Laçın rayonunda inşa ediləcək üçüncü beynəlxalq hava limanı bütün Qarabağ və şərqi Zəngəzur zonasını Zəngilan daxil olmaq şərtilə əhatə edəcək. Buradan dəmir yolu, avtomobil yolu keçəcək, Naxçıvana yol açılacaq. Əlbəttə ki, Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafı üçün bu hava limanının böyük rolu olacaq. Bununla bərabər, Horadizdən Ağbəndə qədər dəmir yolu çəkiləcək. Ondan sonra Zəngəzur dəhlizi ilə dəmir yolu Naxçıvan Muxtar Respublikasına qədər uzadılacaq. Zəngilan coğrafi nöqteyi-nəzərdən Şərqi Zəngəzur bölgəsinə aiddir və Şərqi Zəngəzurda yerləşir. Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcək. Beləliklə, Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu vasitəsilə birləşəcək. Bəli, bunlar bizim növbəti-böyük hədəflərimizin tərkib hissəsi və bir parçasıdır. Və indiyə qədər olduğu kimi, bundan sonra da Qalib Azərbaycanla və Qalib Sərkərdə ilə bir-bir hədəflərimizə çatacağıq.

## ÖZBƏKİSTAN MEDİASINDA ABŞ PREZİDENTİNİN QONDARMA “ERMƏNİ SOYQIRIMI” İLƏ BAĞLI BƏYANATINA DAİR MƏQALƏLƏR DƏRC OLUNUB




Özbəkistanın “azon.uz” və “qalampir.uz” portalları ABŞ Prezidenti Co Baydenin qondarma “erməni soyqırımı” ilə bağlı bəyanatına dair məqalələr yayıblar.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, “azon.uz” portalında dərc edilən məqalədə bəyanatdan dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığının baş tutduğu, dövlətimizin başçısının Co Baydenin “erməni soyqırımı” ilə bağlı qərarının yanlış və onu tarixi səhv olduğunu bildirdiyi diqqətə çatdırılıb.

Bildirilib ki, telefon söhbəti zamanı Prezident İlham Əliyev açıqlamanın regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu, Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu qeyd edib.

“qalampir.uz” portalında dərc olunan yazıda isə Azərbaycan Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı bəyanatı şərh edilib. Bildirilib ki, ABŞ Prezidenti Co Baydenin ermənilərin qondarma “soyqırımı” ilə əlaqədar səsləndirdiyi bəyanatında 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətlərin təhrif olunması təəssüf doğurur.

Məqalədə deyilir: “Qondarma “erməni soyqırımı” məsələsini siyasiləşdirənlər həmin dövrdə erməni silahlı dəstələri tərəfindən 500 mindən artıq insanın kütləvi öldürülməsi hallarına, habelə erməni daşnakların 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər regionlarında törətdikləri kütləvi qırğınlara münasibətdə susqunluq nümayiş etdirir”.

Həmçinin vurğulanır ki, 1915-ci il hadisələri siyasətçilər tərəfindən yox, tarixçilər tərəfindən araşdırılmalıdır.

Məqalələr Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə dərc olunub.

## İNDİYƏDƏK BAKI-TBİLİSİ-CEYHAN KƏMƏRİ İLƏ 482 MİLYON TON NEFT DAŞINIB



Cari ilin ilk rübündə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) vasitəsilə 6,7 milyon tondan çox (51 milyon barrel) xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 70 tankerə yüklənib.

“BP Azerbaijan” şirkətindən “İki sahil”ə verilən məlumata görə, üç ayda BTC üzrə əməliyyat xərclərinə 41 milyon dollardan çox, əsaslı xərclərə isə təqribən 6 milyon dollar sərf olunub.

1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyunundan istismardadır. Həmin vaxtdan bu ilin birinci rübünün sonunadək BTC ilə ümumilikdə təqribən 482 milyon ton (təxminən 3,62 milyard barrel) xam neft nəql olunub və Ceyhan limanında 4729 tankerə yüklənərək dünya bazarına göndərilib.

Hazırda BTC boru kəməri Azərbaycandan əsasən “Azəri-Çıraq-Günəşli” (AÇG) nefti və “Şahdəniz” kondensatı daşıyır. Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri də, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur.

“BTC Co.”nun səhmdarları belədir: BP 30,1 faiz, “AzBTC” 25 faiz, MOL 8,9 faiz, “Equinor” 8,71 faiz, “TPAO” 6,53 faiz, “Eni” 5 faiz, “Total” 5 faiz, “Itochu” 3,4 faiz, “Inpex” 2,5 faiz, “ExxonMobil” 2,5 faiz və “ONGC (BTC) Limited” 2,36 faiz.

## BİRİNCİ RÜBDƏ SƏNGƏÇAL TERMİNALINDAN 60 MİLYON BARRELDƏN ÇOX NEFT VƏ KONDENSAT GÖNDƏRİLİB



Yanvar-mart aylarında Səngəçal terminalı 60 milyon bareldən çox neft və kondensat, o cümlədən 52 milyon barrel Bakı-Tbilisi-Ceyhanla (BTC) və 8 milyon barreldən artıq Qərb İxrac Boru Kəməri marşrutu vasitəsilə (QİBK) ixrac edib.

“BP Azerbaijan” şirkətindən “İki sahil”ə bildirilib ki, birinci rübdə terminaldan, həmçinin gündəlik orta hesabla 56 milyon standart kubmetr (1 milyard 897 milyon standart kubfutdan çox) “Şahdəniz” qazı ixrac olunub.

Üç ayda “Azəri-Çıraq-Günəşli” ilə “Şahdəniz” yataqlarından neft və qazın sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam edib. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda 1,2 milyon barrel neft və “Şahdəniz” qazı üçün təqribən 85 milyon standart kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik təqribən 105 milyon standart kubmetr təşkil edir.

Qaz terminaldan əsasən Cənubi Qafqaz Boru Kəməri (CQBK), Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi sistemi və terminalın qaz emalı obyektlərini “Azəriqaz”ın qazpaylama sistemi ilə birləşdirən SOCAR-a məxsus qaz kəməri ilə ixrac olunur.

*“Eurasia Daily Monitor”:*

# Azərbaycanın azad olunmuş ərazilərindəki infrastruktur layihələrinə dost ölkələr və tərəfdaşlar cəlb olunacaq

ABŞ-ın Ceymstaun Fondunun nəzdində fəaliyyət göstərən “Eurasia Daily Monitor” saytında politoloq Şəbnəm Həsənovanın “Azərbaycanın işğaldan azad olunmuş ərazilərində infrastruktur layihələrinə beynəlxalq cəlbolunma” sərlövhəli məqaləsi dərc edilib.

“İki sahil” AZƏRTAC-a istinadən xəbər verir ki, məqalə Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsi nəticəsində erməni işğalından azad edilmiş ərazilərdə bir sıra iri infrastruktur layihələrinin həyata keçiriləcəyini elan etməsi, bu işlərə dost ölkələrin və tərəfdaşların cəlb olunacağı fikri ilə başlayır. Qeyd edilib ki, bu istiqamətdə Azərbaycan özünün ən yaxın müttəfiqi olan Türkiyəyə və türk şirkətlərinə üstünlük verəcək.

Diqqətə çatdırılıb ki, İran da Qarabağda gedən yenidənqurma prosesində fəal iştirak etməyə hazırdır. Prezident Əliyev işğaldan azad edilmiş ərazilərin “yaşıl enerji” zonası olacağını bəyan etdiyinə görə, İran və Azərbaycan Xudafərin və Qız Qalası hidroqovşaqlarının quraşdırılması üçün bərpaolunan enerji sahəsində də razılığa gəliblər.

Müəllif bildirir ki, İkinci Qarabağ müharibəsi dövründə İtaliyanın obyektiv və ədalətli mövqeyinə görə İtaliya-Azərbaycan münasibətləri daha da möhkəmlənib. Bu baxımdan İtaliyanın hökumət və sahibkarlıq subyektlərinin şəhərsalma, yenidənqurma, Qarabağın zəngin tarixi və memarlıq irsinin bərpası işlərinə cəlb edilməsi, bir çox sahələrdə əməkdaşlığın genişləndirilməsi imkanları fəal şəkildə müzakirə olunur. İşğaldan azad edilmiş



ərazilərdə ən vacib işlərdən biri enerji təchizatı infrastrukturunun yenidən qurulması və genişləndirilməsidir ki, bu istiqamətdə İtaliyanın “Ansaldo Energia” şirkəti ilə müqavilə imzalanıb.

Məqalədə qeyd olunur ki, Azərbaycan həm bölgə, həm də dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq siyasəti yürüdür. Bu baxımdan Macarıstan şirkətləri də Qarabağ bölgəsindəki yenidənqurma işlərində fəal iştirak etməyə hazırlaşır. Macarıstanın “EximBank”ı Azərbaycanın azad edilmiş ərazilərində reallaşdırılan layihələrdə iştirak edən macar şirkətlərinə 100 milyon dollar vəsait ayırıb. Eyni zamanda, rəsmi Budapeşt işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi əməliyyatları üçün vəsait nəzərdə tutub.

Qarabağda aparılan yenidənqurma işlərinə töhfə vermək istəyən digər ölkə isə Yaponiyadır. Həmçinin Rumıniya işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın bərpası prosesini yaxından izləyir.

ABŞ şirkətləri də azad edilmiş ərazilərdə xüsusilə su ehtiyatları, idarəetmə, yol infrastrukturu, rəqəmsal və qabaqcıl texnologiyalar sahələrində yenidənqurma işlərinə yardım etməkdə maraqlıdırlar.

Məqalədə Fransa Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lömuanın tanınmış fransız şirkətlərinin artıq Azərbaycanda fəaliyyət göstərdiyini vurğuladığı, onların Azərbaycanın azad edilmiş ərazilərində layihələr reallaşdırması üçün heç bir hansısa maneə görmədiyini bildirdiyi diqqətə çatdırılıb.

Müəllif vurğulayıb ki, dünya iqtisadiyyatının COVID-19 pandemiyasının yaratdığı tənəzzüldən çıxmağa çalışdığı bir vaxtda Azərbaycan dövləti təkcə işğaldan azad edilmiş bölgələri yenidən qurmağı və inkişaf etdirməyi deyil, eyni zamanda, Prezident Əliyevin birbaşa göstərişi ilə bu ərazilərdə “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının tətbiqini hədəfləyir. Bu istiqamətdə ilk “ağıllı kənd” layihəsinin təməli artıq qoyulub.

Bundan əlavə, qeyd olunur ki, regional nəqliyyat layihələri bölgənin uzunmüddətli inkişafında misilsiz rol oynayır, sabitliyi təmin edir və gələcəkdə baş verə biləcək müharibə riskini azaldır. Cənubi Qafqazda nəqliyyat infrastrukturunun yaxşılaşdırılması şübhəsiz ki, daha yüksək iqtisadi artıma kömək edəcək. Bu cür əməkdaşlıq formatları, həm Ermənistan, həm Azərbaycan xalqları, həm də bölgənin digər xalqları arasında daha sıx və müsbət əlaqələrin qurulmasına, regionda yaşayan bütün xalqların rifahına töhfə verəcək.

# Federal Agentliyin rəhbərliyi ilə görüş keçirilib





Moskva şəhərində MDB ölkələri, xaricdə yaşayan həmvətənlərlə iş və beynəlxalq humanitar əməkdaşlıq üzrə Federal Agentliyin (Rossotrudniçestvo) rəhbərliyi ilə görüş keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən “İki sahil”ə bildiriblər ki, görüş Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında Hökumətlərarası Dövlət Komissiyasının 19-cu iclası ilə əlaqədar Moskvaya səfər çərçivəsində baş tutub.

Dövlət Komitəsinin sədri Fuad Muradov rəhbərlik etdiyi qurumun fəaliyyəti haqqında müfəssəl məlumat verib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan islahatların diaspor sahəsini də əhatə etdiyini vurğulayaraq görülmüş işlər və əldə edilmiş nailiyyətlər barədə danışıb. Komitənin təsis etdiyi “Diaspor TV”, “Diaspor FM” və onlayn xidmətlərin uğurla fəaliyyət göstərdiyinə diqqəti cəlb edib.

Görüş zamanı diaspor sahəsində ikitərəfli əməkdaşlıq istiqamətləri, Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının fəaliyyəti, soydaşlarımızın Rusiya cəmiyyətinə inteqrasiyası və onların təmsil etdiyi qurumlar arasında əməkdaşlığın genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Pandemiya məhdudiyyətləri səbəbindən ölkələrarası sərhədlər bağlanarkən Rusiya Federasiyasının Dağıstan sərhədindən 7 mindən çox azərbaycanlının Azərbaycan tərəfinə təxliyə olunduğu vurğulanıb. 44 günlük Vətən müharibəsi dönəmində Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəklədiyinə görə rus icmasına minnətdarlıq ifadə edilib. Azərbaycanın qazandığı parlaq Zəfərin ölkəmizdə yaşayan bütün icmalar tərəfindən böyük sevinclə qarşılandığı nəzərə çatdırılıb. Rusiyadakı erməni diasporunun həmin dönəmdə yolverilməz davranış sərgiləməsindən, öz soydaşlarını qəbuledilməz və radikal şəkildə müharibəyə cəlb etməyə çalışmasından təəssüf hissi ifadə olunub.

Görüşdə digər ikitərəfli məsələlər də müzakirə olunub.

# Türkiyə-Azərbaycan qardaşlığı bütün təxribatlara qalib gəlir

## *Regional gücə sahib olmaq naminə ABŞ prezidentinin səsləndirdiyi saxta "erməni soyqırımı" məsələsi ermənilərə "hədiyyədən" çox başağrısıdır*



ABŞ Prezidenti Cozef Baydenin tarixi səhvlərindən olan "erməni soyqırımı" ilə bağlı söylədikləri belə bir reallığı təsdiqləyir ki, dövlətə başçılıq edən şəxs təkcə öz xalqının deyil, əməkdaşlıq etdiyi müttəfiqlərinin tarixi, ənənələri, iqtisadiyyatı haqqında da ətraflı məlumata malik olmalıdır. Amma illərdən bəri ermənilərin həsrətində olduqları "soyqırımı" ifadəsini işlətməklə işğalçıya dəstək göstərdiyini zənn edən ABŞ Prezidentinin tarixdə baş verməyən hadisəni "reallaşdırması" bölgədə siyasi gərginliyi artırır. Bu gərginlikdə diqqət çəkən məqam isə Türkiyə-Azərbaycan dostluğunun dünya ictimaiyyətinə daha geniş məna da çatdırılmasıdır. Türkiyənin Cənubi Qafqazda artan mövqeyindən təşvişə düşən, bölgədə möhkəmlənmək üçün illərdən bəri çalışan Avropa İttifaqına daxil olan dövlətlər kimi ABŞ rəsmiləri də coğrafi, siyasi, iqtisadi baxımdan əhəmiyyətli olan bu regiondan kənarda qalmaqdan narahatdırlar.

Türkiyədə siyasi sabitliyi pozmaq naminə bu addımı atan Baydenin ermənilərə "simpatiyasının" olmadığı bəllidir. Çünki Ştatlarda yaşayan ermənilərin törətdikləri çirkli əməllərlə bağlı sensasiyalı, kriminal xarakterli yazılarda bu millətin genofondunun dəyişilməz xüsiyyətlərindən, mənfur niyyətlərindən sıravi amerikalılar kimi dövlət rəsmiləri də məlumatlıdırlar. Baydenin səsləndirdiyi "erməni soyqırımı" ifadəsinin güclənən, dünya siyasətində önəmli tərəfdaş, söz sahibi olan Türkiyəyə təsir imkanları yox səviyyəsindədir. Amma Ştatlarda bir məqamı nəzərdən qaçırırlar ki, Türkiyə Osmanlı dövründəki dövlət deyil. Daim inkişaf edən, iqtisadi, siyasi qüdrəti artan, türk dünyasının birlik və həmrəyliyini möhkəmləndirən sarsılmaz qüvvə, İslam aləminin lokomotividir. İllərdən bəri həmrəylikləri ilə bəzilərini qısqandıran Azərbaycan-Türkiyə faktoru son illərdə daha çox diqqəti cəlb edir. ABŞ-dan səslənən saxta "erməni soyqırımı" ifadəsinə etirazını rəsmi bildirən Prezident İlham Əliyev Türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla telefon söhbətində də Azərbaycan xalqının Türkiyə ilə birlikdə olduğunu vurğulamışdır. Bu səmimiyyət öndər Mustafa Kamal Atatürkün vaxtilə bildirdiyi kimi, hər iki xalqın sevincinin də, kədərinin də eyni olduğu anlamında qəbul olunur, bu gün daha böyük əhəmiyyət daşıyır.

Türkiyə Prezidentinin məsələ barədəki açıqlaması "soyqırım" ifadəsindən qürrələnərək atəşfəşanlıq edən ermənilərin sevincini yasa döndərib. Erməni din xadimlərinin vəziyyətdən qorxuya düşərək soydaşlarını xəbərdar etmələri də haya-küyə gedən "hay"ların isti aşına su qatıb.

Dünyanın siyasi müstəvisində baş verən hadisələrə ani nəzər salmaqla "soyqırımı" məsələsinin dərinliklərində regional mübarizənin dayandığını görmək o qədər də çətin deyil. ABŞ-ın Çinlə, Rusiya ilə, İranla soyuq münasibətləri bəllidir. Rusiya ilə İranın Ermənistana göstərdikləri dəstək illərdən bəridir ki, davam edir. Çinin dünya iqtisadiyyatında, xarici bazarlarda güclənən mövqeyi, dördüncü sənaye inqilabında artan rolu rəsmi Pekin-Vaşinqton münasibətlərini daha da gərginləşdirir. Bu fonda diqqət çəkən məsələ regional təsir imkanları artan Türkiyəni prosеslərdən kənarlaşdırmaqdır. Amma Türkiyə-Azərbaycan qardaşlığı çirkin siyasətlərin qarşısında sipərdir. Hər iki ölkənin təşəbbüsü ilə reallaşan qlobal enerji, nəqliyyat layihələrinə artan maraq bu birliyi daha da möhkəmləndirir.

Azərbaycan və Türkiyənin birgə fəaliyyəti ilə gerçəkləşən, neft -qaz kəmərlərinin, daha sərfəli yükdaşımalarını təşkil edən Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Türkiyə-Azərbaycan birliyinin məntiqi nəticəsidir. 44 gün davam edən İkinci Qarabağ müharibəsini Zəfərlə başa vuran Azərbaycana daim dəstək göstərən Türkiyənin xalqımızla birliyi artıq təsdiq olunmuş həqiqətdir. Ərazilərini Ermənistanın işğalından azad edən Azərbaycanın tarixi torpaqları olan Zəngəzur dəhlizinin bərpası ilə bağlı məsələdə də ölkəmizi dəstəkləyən Türkiyənin israrlı olması bu birliyə qısqanclıqla yanaşan dövlətləri narahat edir. Eyni zamanda, türk dünyası ölkələrini birləşdirəcək Zəngəzur dəhlizinin bərpasına hər vasitə ilə mane olmağa çalışan qüvvələr guya Ermənistanı dəstəklədikləri görüntüsü yaratsalar da, əslində bölgədə möhkəmlənməyə çalışırlar. ABŞ regionda kommunikasiyaların bərpası prosesindən kənarda qalmaq istəmir, xüsusilə Cənubi Qafqazı "Bir kəmər, bir yol" qlobal layihəsinin təşəbbüskarı olan Çinlə mübarizə müstəvilərindən birinə çevirməyə hazırlaşan Vaşinqtonun Zəngəzur dəhlizini öz təsirinə almaq və Mərkəzi Asiyaya çıxış marşrutu olaraq istifadə etmək planı açıq-aşkar bilinir. "Erməni soyqırımı" məsələsinin əsas hədəflərindən biri də budur.

### ABŞ DÖVLƏT KATİBİ ENTONİ BLİNKENİN PREZİDENT İLHAM ƏLİYEVƏ ZƏNG ETMƏSİ, MÜZAKİRƏ EDİLƏN MƏSƏLƏLƏR BİR NEÇƏ KONTEKSTDƏ DİQQƏT ÇƏKİR

Baydenin "soyqırımı" deməsindən sonra Türkiyəyə qardaş ölkə olan Bakıya edilən zəng ermənilər üçün "soyuq düş" təsiri yaradır. Çünki Bakı ilə Ankaranın bütün məsələlərdə dəyişilməz mövqeləri tarixin sınağından çıxmış reallıqdır. 28 ildə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində heç bir iş görməyən Minsk qrupunun gələcək fəaliyyəti ilə bağlı müzakirələrə isə Prezident İlham Əliyevin "Səmərəlilik, nəticəlilik baxımından, əlbəttə Minsk qrupu özünü doğrultmadı" sözləri layiqli cavabdır. Dövlət başçımızın qeyd etdiyi kimi, Azərbaycan daha 30 il gözləyə bilməz. Baydenin saxta "erməni soyqırımı"na isə qəti etirazını türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla telefon danışığı zamanı Prezident İlham Əliyev həmişə Türkiyənin yanında olacağını diqqətə çatdırıb. Blinkenin "soyqırımı" məsələsindən sonra Prezident İlham Əliyevə zəng etməsi "ermənilərə hədiyyə" olsa da, ABŞ-ın enerji təhlükəsizliyindən tutmuş regional təhlükəsizliyə qədər bir çox məsələdə Azərbaycanla əməkdaşlığı davam etdirməkdə maraqlı olması deməkdir. Prezident İlham Əliyevin "soyqırımı"" ifadəsindən narahatlığını birbaşa Baydenin baş diplomatına bildirməsi və Türkiyənin yanında olduğunu diqqətə çatdırması Azərbaycan xalqının istəyinin ifadəsidir: Bakı Ankaranın yanındadır və ABŞ regionda öncə Türkiyə ilə razılaşmalıdır. Entoni Blinken Prezident İlham Əliyevə bu il də "Azadlığa Dəstək Aktı"na "907-ci düzəliş"in müvəqqəti dayandırıldığını bildirməsi də siyasi manevrdir. Xatırladaq ki, "907-ci düzəliş"in özü Azərbaycana qarşı ikili standartlardan qaynaqlanan ədalətsizlikdir. Bu düzəlişin ümumiyyətlə, ləğv edilməsi daha ədalətli olardı.

ABŞ Dövlət Departamentinin açıqlaması da maraqlıdır. Açıqlamada xüsusi qeyd edilir ki, Baydenin "soyqırım" ifadəsinin Türkiyə Cümhuriyyətinə aidiyyəti yoxdur. Oxşar açıqlama Pentaqondan da yayınlanıb. Ayrıca, Entoni Blinkenə Amerika prezidentinin "erməni soyqırımı" ilə bağlı bəyanatının Azərbaycan ictimaiyyəti tərəfindən narahatlıqla qarşılandığı çatdırılıb. Prezident İlham Əliyev bildirmişdir ki, Türkiyə Azərbaycanın yaxın dostu və müttəfiqidir, postmüharibə dövründə bölgəmizdə çox önəmli və müsbət rol oynayır. Bu sözlər o deməkdir ki, Türkiyə əleyhinə atılan istənilən addım Azərbaycanı narahat edir.

**Xuraman İsmayılqızı, "İki sahil"**

---

# ERMƏNİLƏRİN QARABAĞDAN QAÇMALARININ SƏBƏBİ NƏDİR?



**Vəli İlyasov**

## VƏ YA ONLARI YENİ VƏTƏN AXTARIŞINA NƏ VADAR EDİB?

Ermənistanın məğlubiyyətindən altı aya yaxın vaxt keçsə də, bu mövzuda qızğın mübahisələr, qarşılıqlı sərt ittihamlar, günahkar axtarışı bitmək bilmir. Müharibədən əvvəl lovğalıqla danışan, "ağzına çullu dovşan yerləşməyən" baş terrorçu Araik Arutyunyan indi özündən başqa hər kəsi günahkar görür. Danışığının tonu isə tamam dəyişib, ötkəmliyindən əsər-əlamət qalmayıb. Quzu cildində gizlənən bu çaqqal indi hər istiqamətə hürür, yeni tipik erməni xarakterini açıq nümayiş etdirir. Bir vaxtlar at oynadan quldurbaşı indi acı müsahibələr verir, planlarının baş tutmadığına heyifslənir.

"Hələ oktyabrın əvvəlində müharibənin nəticəsi aydın idi, lakin Ermənistanda siyasi qüvvələr döyüş fəaliyyətlərinin tez bitməsi ilə bağlı konsensus əldə edə bilmədilər."

Bu fikri Qarabağdakı separatçıların başçısı Araik Arutyunyan təəssüflə bildirib. Bununla bərabər o, həmin dövrdə Ermənistanda bir çox siyasi qüvvənin müharibənin dayandırılmasını satqınlıq hesab etdiyini bildirib.

Arutyunyana görə, müharibədə məğlubiyyətin əsas səbəbi Ermənistan rəhbərliyinin 1994-cü ildən sonra dünya təcrübəsindən dərs çıxara bilməməsidir.

O, həmçinin Ermənistan rəhbərliyinin zamanında ermənilərin böyük hissəsinin Qarabağdan getməsinə izn verdiyini ciddi səhv adlandırıb.

Qeyd edək ki, 1989-cu il məlumatına görə, keçmiş Dağlıq Qarabağ Muxtar Respublikasında 145,5 min erməni yaşayıb. 2020-ci ilin 27 sentyabrına qədər isə rəsmi rəqəmlərdə Ermənistan keçmiş Dağlıq Qarabağda 139 min ermənin yaşadığını iddia etsə də, real rəqəm 60 min idi.

44 günlük müharibə zamanı ermənilər Azərbaycan ərazilərini tam tərk etmişdilər. 14 noyabr 2020-ci ildən başlayaraq, rus sülhməramlıları ermənilərin Qarabağa daşınmasını və onların məskunlaşması üçün bütün tədbirləri həyata keçirməyə başladı. Rəsmi məlumata görə, Qarabağa 14 noyabrdan etibarən ümumilikdə 52.7 min erməni gətirilib. Lakin gətirilənlərin bir qismi Ermənistan və Rusiyaya gedib. Hazırda Qarabağda 30 min civarında erməni yaşadığı bildirilir. Ancaq bir fakt da var ki, yerli əhali ilə bərabər döyüş qabiliyyəti olan İrəvan erməniləri də Xankəndi və ətraf yaşayış məntəqələrinə gətirilirlər. Bunun erməni hiyləsi olduğu gün kimi aydındır-bölgədə ermənilərin sayının süni surətdə artırılmasına cəhddir. Bu üsul onların köhnə süni artım üsullarından biridir.

Terrorçu Araik Arutyunyan hələ də başa düşmək istəmir ki, ermənilərin Qarabağdan, eləcə də Ermənistandan qaçmalarının bir səbəbi var. Onlar heç vaxt ermənilərin torpaqları olmayan ərazilər üçün vuruşmaq istəmirlər. Müharibədəki ağır məğlubiyyətdən sonra bunu bir çox əsgər valideynləri hökumətə qarşı etiraz aksiyalarında açıq bildirirlər. Tələb budur ki, ermənistanlı əsgərlər Qarabağa hərbi xidmətə göndərilməsinlər, çünki Qarabağ Azərbaycan ərazisidir və ermənilərin o yerə iddiası əsassızdır. "Özgə atına minən tez düşər" deyiblər, ermənilər özlərinin olmayan torpağa müvəqqəti sahibliyi itirərək əsl sahibinə qaytarmalı olublar. Etibarı itirdiklərinə görə isə buradan getməyə, özlərinə yeni vətən axtarmağa məhkum ediblər.

---

# SAXLANILAN ŞÖBƏ MÜDİRİ İLƏ BAĞLI BSU-dan AÇIQLAMA




Bakı Slavyan Universiteti (BSU) barəsində cinayət işi açılan şöbə müdiri haqda məlumat yayıb.

Universitetin mətbuat xidmətindən "İki sahil"ə bildirilib ki, 29 aprel 2021-ci il tarixdə bir sıra internet media resurslarında "140 min manatı mənimsəyən şöbə müdirinə cinayət işi açıldı" sərlövhəli yazı dərc edilib:

*"Həmin yazı ilə əlaqədar olaraq bildiririk ki, Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva bu ali təhsil müəssisəsinin Əlavə və qiyabi təhsil şöbəsinin sabiq müdiri, dosent Dürdanə Əliyevanın çoxsaylı qanunsuz əməlləri (hətta universitetə aid olmayan) ilə bağlı müvafiq qaydada Azərbaycan Respublikası Təhsil Nazirliyinə və Azərbaycan Respublikası Baş Prokurorluğuna müraciət edib. Hazırda Baş Prokurorluq tərəfindən həyata keçirilən intensiv istintaq tədbirləri davam etdirilir. Diqqətinizə bir faktı da çatdırmağı məqsədəuyğun hesab edirik ki, Bakı Slavyan Universitetinin Əlavə və qiyabi təhsil şöbəsində təhsil alan tələbələr və onların valideynləri tərəfindən bu məsələ ilə bağlı kütləvi informasiya vasitələrinə müraciət edilməyib və bu məlumatın heç bir əsası yoxdur".*

## COZEF BAYDEN İRANA QARŞI SANKSİYALARIN BİR QİSMİNİ LƏĞV EDƏCƏK



ABŞ Prezidenti Cozef Bayden administrasiyası keçmiş dövlət başçısı Donald Trampın hakimiyyəti zamanı İrana qarşı sanksiyaların əhəmiyyətli qismini ləğv etmək niyyətindədir.

"İki sahil" "Report"a istinadən xəbər verir ki, Cozef Bayden İranın nüvə proqramı ilə birbaşa əlaqəsi olmayan sanksiyaları ləğv edəcək. Bu halda İran beynəlxalq bank və kredit sistemi ilə əlaqəni bərpa edə bilər.

Məlumata görə, ABŞ-ın Yaxın Şərq üzrə koordinatoru Brett Makqerkin başçılığı altında nümayəndə heyəti Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və Misirə səfər edəcək. Səfər zamanı amerikalı təmsilçilər İranın nüvə danışığına qayıtması ilə bağlı müttəfiqlərinin narahatlığını müzakirə edəcəklər.

## "AZERİ LİGHT" NEFTİNİN QİYMƏTİ 67 DOLLARI ÖTÜB



Azərbaycan neftinin qiyməti bahalaşıb.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 1,75 dollar artaraq 67,07 dollar təşkil edib.

Qeyd edək ki, "Azeri Light" neftinin bir barrelinin qiyməti keçən il aprelin 21-də minimuma enərək 15,81 dollar, 2008-ci ilin iyulunda isə maksimuma yüksələrək 149,66 dollar olub.

## MER: UKRAYNA VƏ AZƏRBAYCAN HƏR ZAMAN BİR-BİRİNİ DƏSTƏKLƏYİR



"Ukrayna və Azərbaycan dostdur, xalqlarımız dostluq edir. Ukrayna həmişə Azərbaycanı dəstəkləyib və Azərbaycan da həmişə Ukraynanı dəstəkləyib. Üstəlik, şəhərlərimiz arasında dostluq var və biz bundan çox qürur duyuruq".

"İki sahil"in məlumatına görə, bu fikirləri "Report"a Ukraynanın İrpen şəhərinin meri Aleksandr Markuşin bildirib.

"Hazırda Ukrayna Azərbaycanın əvvəllər olduğu vəziyyətdədir. Təəssüf ki, bizim də ərazimizin bir hissəsi işğal altındadır. Hər bir ölkə öz torpaqlarını azad etmək istəyir. Biz də Azərbaycan kimi öz ərazilərimiz üçün mübarizə aparacağıq", - mer deyib.

O, iki ölkənin ərazi bütövlüyü məsələsində bir-birini dəstəklədiklərini vurğulayıb: "Əlbəttə, biz hər zaman tarixən Ukraynanın olan ərazinin Ukraynaya, Azərbaycanın olan ərazinin Azərbaycana məxsus olmasını dəstəkləyirik".

*Rəşad Mahmudov:*

# Pandemiyaya qarşı alternativsiz mübarizə üsulu əhalinin peyvəndlənməsi prosesidir

**Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov "İki sahil"ə açıqlamasında koronavirus infeksiyasına qarşı aparılan mübarizə tədbirləri, vaksinasiya prosesinin əhəmiyyəti və digər məsələlərlə bağlı fikirlərini bölüşdü.**

### ÖLKƏMİZDƏ COVID-19 VİRUSUNA QARŞI APARILAN MÜBARİZƏ TƏDBİRLƏRİ ƏN YÜKSƏK SƏVİYYƏDƏDİR

Deputat bildirdi ki, koronavirusla mübarizə bu gün bütün dünya ölkələri üçün prioritetdir: "Azərbaycan pandemiyanın yayıldığı ilk günlərdən həm ölkə əhalisinin sağlamlığını qorumaq, həm də beynəlxalq ictimaiyyətin COVID-19-la mübarizə tədbirlərinə dəstək vermək üçün mümkün olan bütün zəruri addımları atıb. 2020-ci ilin aprelində Türk Şurasının, həmin ilin mayında Qoşulmama Hərəkatının Zirvə Görüşlərinin, eləcə də dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyasının keçirilməsi, Ümumdünya Səhiyyə Təşkilatına göstərilən 10 milyon dollar məbləğində ianələr Azərbaycanın qlobal əhəmiyyətli problemlərin həllində üzərinə məsuliyyət götürməyə hazır, güclü dövlət olduğunu təsdiq edir. COVID-19-la mübarizədə əldə edilən təcrübə göstərdi ki, ölkəmizdə böhranlı vəziyyətlərdə adekvat davranış nümunəsi ortaya qoya bilən idarəçilik sistemi qurulub. Yeri gəlmişkən onu da qeyd edim ki, Azərbaycanın qlobal miqyasda COVID-19 pandemiyası ilə mübarizəyə verdiyi töhfələrin Ümumdünya Səhiyyə



Təşkilatı (ÜST) tərəfindən yüksək qiymətləndirilməsi ölkəmizin irəli sürdüyü təşəbbüslərin əhəmiyyətini, dünya üçün vacibliyini bir daha təsdiqləyir.

### BU DA ÖZÜ İLƏ YUMŞALMALARA SƏBƏB OLA BİLƏR

R.Mahmudov onu da qeyd edib ki, artıq bir ildən çoxdur ki, bəşəriyyətin bəlasına çevrilən koronavirus infeksiyasına qarşı yeganə mübarizə üsulu olan peyvəndlənmə başlayıb: "Azərbaycanda MDB məkanında vaksinasiya ən erkən, yanvarın 18-dən tətbiq edilir. Pandemiyaya qarşı alternativsiz mübarizə üsulu əhalinin peyvəndlənməsi prosesidir ki, bu təkcə paytaxtın xəstəxana və poliklinikalarında deyil, regionlarda da uğurla həyata keçirilir. Şübhəsiz ki, bu iş daha sürətlə və kütləvi şəkildə davam etdirilməlidir. Çünki həmin proses əhali arasında geniş vüsət aldıqca yoluxma zamanı xəstələnmə halları, əsasən də ağırlaşmalar az müşahidə ediləcək. Nə qədər ki, bu prosesdən kənarda qalanlar olacaq, onda yoluxma da, xəstələnmə halları da, virus daşıyıcıları da olacaq. İndi hər kəsə məsləhətimiz yalnız ondan ibarətdir ki, ilk növbədə, vaksinasiya prosesinə qoşulsunlar, ondan sonra isə arxayınçılığa yol vermədən əvvəlki qaydada qorunma tədbirlərinə əməl etsinlər. Həmin tədbirlərə nə qədər tez və ciddi şəkildə nail ola bilsək, bəşəri təhlükədən də o qədər tez qurtulacağıq. Yeri gəlmişkən onu da qeyd edim ki, vaksinasiya prosesində iştirak etmiş bir sıra dövlətlər var ki, artıq həmin ölkələrdə aidiyyatı qurumlar tərəfindən fəaliyyətin bərpası ilə bağlı qərarlar verilir. Düşünürəm ki, ölkəmizdə də peyvəndləmə prosesi vacib hesab ediləcək. Beləliklə, cəmiyyətin hər bir üzvü vaksinasiya prosesində aktiv şəkildə iştirak edəcək. Bu da özü ilə yumşalmalara səbəb ola bilər".

### BİZ KORONAVİRUSA YOLUXMALARIN ÖNÜMÜZDƏKİ HƏFTƏLƏRDƏ, AYLARDA AZALMASINI GÖRƏ BİLƏRİK Kİ, BU DA...

"Hər bir prosesin sonu olduğu kimi, pandemiyanın da bir sonu olacağına şübhə yoxdur. Ümid edirəm ki, biz koronavirusa yoluxmanın önümüzdəki həftələrdə, aylarda azalmasını görə bilərik ki, bu da epidemioloji cəhətdən daha rahat bir dönəmə keçməyimizə səbəb ola bilər. Bununla da hər bir insan əvvəlki normal həyatına, yaşamına qayıtmaq üçün Operativ Qərargahın tətbiq etdiyi qaydalara riayət etməli, həmçinin vaksinasiya prosesində hamılıqla iştirak etməlidir. Məhz bu halda əvvəlki vəziyyətimizə qayıtmağımız çox da uzaqda olmaz" - deyə deputat qeyd edib.

**Mənsumə Babayeva,**
***"İki sahil"***

# Yerevanda Mahatma Qandinin heykəlini niyə yandırıblar?

**Hindistan Milli Azadlıq Hərəkatının lideri Mahatma Qandinin Ermənistanın paytaxtı Yerevandakı heykəlinin yandırılması ölkə mətbuatında və sosial şəbəkələrdə rezonansa səbəb olub.**

"İki sahil" "Report"a istinadən xəbər verir ki, Mahatma Qandinin heykəli Yerevanda 2020-ci ildə ucaldılıb. Onda ermənilər arasında heykəlin qoyulmasına etiraz edənlər də az olmayıb. Buna səbəb olaraq Mahatma Qandinin Mustafa Kamal Atatürk başda olmaqla Türkiyənin o vaxtkı rəhbərliyi ilə münasibətlərinin yaxşı olması və ermənilərin saxta soyqırımı iddialarını qəbul etməməsi göstərilir.

Bundan başqa iddia edilib ki, Hindistanın Ermənistandakı səfirliyinin tvitter səhifəsində aprelin 24-ü ilə bağlı qeyddə əvvəlcə "soyqırımı" ifadəsi yazılsa da, bir neçə saat sonra söz mətndən çıxarılıb.



Mahatma Qandinin yandırılmış heykəlini ermənilər sosial şəbəkədə paylaşaraq bunu qisasın alınması kimi təqdim ediblər. Məlumata görə, azadlıq liderinin heykəli yandırılmazdan iki gün əvvəl ona yumurta atılmışdı.

Ermənilər iddia ediblər ki, Ermənistan Pakistanla münaqişədə birmənalı olaraq Hindistanın mövqeyini dəstəkləyir. Onlar hesab edir ki, bu yolla saxta iddialarını Hindistana qəbul etdirə biləcəklər.

Yerevan merliyinin mətbuat katibi Akop Karapetyan Qandinin heykəlinin Ermənistan Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə qoyulduğunu bildirib. O, belə abidələrin elmi əsaslandırmadan sonra ucaldıldığını da vurğulayıb.

Qeyd edək ki, mütəxəssislər ermənilərin Mahatma Qandini sevmədiklərini və onu düşmən mövqedən yanaşdıqlarını bildiriblər.

## BMT AZƏRBAYCAN VƏ ERMƏNİSTANA MİNALARLA BAĞLI ÇAĞIRIŞ EDİB




"Mən Əfqanıstanda müharibənin dəhşətini və fəlakətini görmüşəm. Minaların törətdiyi bəlalar və dağıdıcı təsiri ilə şəxsən tanışam".

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bunu BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsaqzai "İkinci Qarabağ müharibəsi və minalar" adlı vebinarda deyib.

O, Azərbaycan hökumətinin ərazilərin minalardan təmizlənməsi istiqamətindəki fəaliyyətini alqışladığını bildirib: "Biz Azərbaycan və Ermənistanı minaların və hərbi sursatların toplanılması, saxlanılması və ötürülməsinin qarşısının alınmasına dair Konvensiyaya qoşulmağa dəvət edirik".

## Qırğızıstan-Tacikistan sərhədində qarşıdurma: 1 ölü, 17 yaralı



Qırğızıstan-Tacikistan sərhədində suya nəzarət üstündə tərəflər arasında yenidən qarşıdurma yaranıb.

AZƏRTAC Qırğızıstan Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadla xəbər verir ki, münaqişə Qırğızıstanın Batken rayonunun Kok-Taş kəndinin ərazisində Tacikistan tərəfinin suya nəzarət etmək üçün videokameralar quraşdırmasından sonra başlanıb. Tacikistan tərəfi qırğız kəndinin əhalisini daşa tutub, ov tüfənglərindən istifadə edib.

Dünən axşamdan başlayan çaxnaşmada 1 nəfər ölüb, 17 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb. Qırğızıstan münaqişə zonasından 400-dən çox sakini təhlükəsiz ərazilərə köçürüb.

Hazırda qarşıdurmanın aradan qaldırılması üçün müxtəlif qurumlar arasında danışıqlar aparılır.

# Diaspor təşkilatları beynəlxalq qurumlardan Ermənistanla bağlı cavab tələb edirlər



**Özbəkistan, Qazaxıstanın Kostanay vilayəti və Qırğızıstanda fəaliyyət göstərən Respublika Azərbaycan Mədəniyyət Mərkəzi, "Birlik" ictimai təşkilatı və Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondu Ermənistanın minalanmış ərazilərin xəritələrinə dair yolverilməz davranışına və ABŞ Prezidenti Cozef Baydenin qondarma "erməni soyqırımı" ilə bağlı mövqeyinə kəskin etirazlarını bildiriblər.**

Diasporla İş üzrə Dövlət Komitəsindən "İki sahil"ə verilən məlumata görə, bununla bağlı keçirilən tədbirlərdə Respublika Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Firdovsi Hüseynov, "Birlik" ictimai təşkilatının sədri R?fail Hacibalayev və diaspor təşkilatlarının üzvləri çıxış ediblər.

Bildirilib ki, 44 günlük Vətən müharibəsi nəticəsində qazanılan parlaq Qələbədən sonra Azərbaycan dövləti yüz minlərlə insanın öz doğma atababa ocaqlarına qayıtmasını təmin etmək məqsədilə bütün imkanlarını azad olunmuş ərazilərdə infrastruktur layihələrinin həyata keçirilməsinə və bərpa işlərinin aparılmasına yönəldib. Lakin Ermənistan hökumətinin minalanmış ərazilərin xəritələrinin təhvil verməkdən imtina etməsi bu prosesə böyük əngəl yaradır. Qeyd edilib ki, bu yolverilməz davranışı, saxta "soyqırımı" iddiaları ilə dünyanı çaşdırmağa cəhd etməsi, İrəvanda Azərbaycan və Türkiyə bayraqlarının yandırılması Ermənistanın bölgədə sülh və əmin-amanlıq tərəfdarı olmadığını, beynəlxalq öhdəliklərinə məhəl qoymadığını göstərir. Tədbir iştirakçıları dünya birliyini və beynəlxalq təşkilatları bu məsələnin dərhal və qeyd-şərtsiz həlli naminə Ermənistana təzyiq göstərməyə çağırıblar.



Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun rəhbəri Nüsrət Məmmədovun imzası ilə beynəlxalq təşkilatlara, Türkiyənin və ABŞ-ın Qırğızıstandakı səfirliklərinə ünvanlanan bəyanatda ermənilərin "soyqırımı" iddialarının yalan olduğu, tarixi faktların saxtalaşdırılması və ekspansiya siyasətini təkcə qardaş Türkiyəyə deyil, uzun illər ərzində Azərbaycana qarşı (31 Mart və Xocalı soyqırımları) da həyata keçirdikləri xatırlanıb. Hər zaman qardaş Türkiyənin yanında olduğunu bəyan edən Fond ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsinə dair mövqeyini qətiyyətlə pislədiklərini nəzərə çatdırıb.

Bəyanatda BMT-nin Osmanlı ermənilərinin tarixi mübahisəsinin soyqırımı olmadığını və 2016-cı ildə isə "Doğu Perinçek İsveçrəyə qarşı" işinə baxan Avropa İnsan Hüquqları Məhkəməsinin Ermənistanla bağlı halın soyqırımı kimi sübuta yetirilmədiyini 3 dəfə (2000, 2007 və 2015-ci illər) elan etdiyi vurğulanıb. ABŞ Prezidentindən sözügedən qərarlara hörmətlə yanaşması, soyqırımı ilə əlaqədar bütün dəlilləri ortaya qoyması tələb olunub, müxtəlif xalqlara qarşı soyqırımlar törədən ölkəsinin tarixinə nəzər salması tövsiyə edilib.

## İSTANBULDA PLANLAŞDIRILAN TERROR AKTININ QARŞISI ALINIB



İstanbulun mərkəzi Esənlər avtovağzalında planlaşdırılan terror aktının qarşısı alınıb.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu barədə Türkiyənin Daxili İşlər Nazirliyindən bildirilib.

Məlumatda qeyd edilib ki, avtovağzalda bir avtomobilin altına yerləşdirilən beş kilo partlayıcı maddə aşkarlanıb. Bununla bağlı iki PKK terrorçusu ələ keçirilib. Faktla bağlı araşdırma başladılıb.

Qeyd edək ki, qardaş ölkədə COVID-19 pandemiyası ilə əlaqədar aprelin 29-dan mayın 17-dək tətbiq olunacaq tam qapanma ilə bağlı ölkədaxili nəqliyyat vasitələri, o cümlədən avtovağzallarda böyük sıxlıq yaşanır. Terrorçuların bunu fürsətə çevirərək terror aktı planlaşdırdıqları bildirilir.

## RUSİYA 6-7 MİLYARD RUBL İTİRƏCƏK




Rusiyanın aviasiya bazarı Türkiyəyə uçuşların məhdudlaşdırılmasından 6-7 milyard rubl (9 milyon 429 min dollar) vəsait itirəcək.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu fikri Rusiyanın "Vnukovo" hava limanının sahiblərindən biri Vitali Vantsev jurnalistlərə bildirib.

O qeyd edib ki, aviasiya bazarı ay yarım ərzində 6-7 milyard rubl vəsait itirəcək. May ayı kurort mövsümünün qızğın çağı olmadığından, ən böyük itkilərin isə iyun-iyul aylarına təsadüf edəcəyi gözlənilir.

Xatırladaq ki, Rusiya koronavirus pandemiyası ilə əlaqədar aprelin 15-dən iyunun 1-dək Türkiyəyə aviauçuşları məhdudlaşdırıb.

# "İkinci Qarabağ müharibəsi və minalar"

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin təşkilatçılığı ilə "İkinci Qarabağ müharibəsi və minalar" mövzusunda vebinar keçirilib.**



Mərkəzin mətbuat xidmətindən "İki sahil"ə bildiriblər ki, tədbir zamanı BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev İkinci Qarabağ müharibəsindən və torpaqların işğaldan azad olunmasından sonra Azərbaycanın mina problemi ilə üzləşdiyini deyib. Onun sözlərinə görə, həmin ərazilərin yenidən qurulması üçün, ilk növbədə, bölgə minadan təmizlənməlidir, lakin minalanmış



ərazilərin xəritəsi hələ də Ermənistan tərəfdən təqdim edilməyib. "Azərbaycan həmişə Beynəlxalq Minaların Qadağan Edilməsi Kampaniyasını dəstəkləyib. Lakin Kampaniyadan irəli gələn öhdəlikləri öz ərazisində yerinə yetirə bilməyib, çünki bu ərazilər Azərbaycanın nəzarəti altında olmayıb. İndi isə vəziyyət dəyişib. Bu məsələlər yenidən Azərbaycanın gündəliyindədir. Azərbaycan üçün regionun minalardan təmizlənməsi vacibdir", - deyə o qeyd edib.

Sonra çıxış edən Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyəti sədrinin müavini Samir Poladov hazırda 200-dən çox insanın azad olunmuş ərazilərin minalardan təmizlənməsi işinə cəlb edildiyini bildirib. Onun sözlərinə görə, minalardan təmizlənmə işində həm Müdafiə Nazirliyi, həmçinin də Fövqəladə Hallar Nazirliyinin heyətləri də iştirak edirlər. "Biz hazırda bir sıra vacib hü-



quqi-normativ sənədlər hazırlamışıq. Bir çox təşkilatlar Azərbaycanda bu istiqamətdə fəaliyyət göstərməkdə maraqlıdırlar. Ərazidə müxtəlif növ minalarla rastlaşırıq. Onların neytrallaşdırılması çox çətin olur", - deyə S.Poladov bildirib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai özü Əfqanıstanda minaların törətdiyi dəhşətlərin şahidi olduğunu və bu problemin



Azərbaycan üçün necə çətinlik yaratdığını yaxşı anladığını deyib. O bildirib ki, BMT hökumətin minaların təmizlənməsi istiqamətində fəaliyyətini alqışlayır. "Beş ildir Azərbaycanda çalışıram və ANAMA-nın gördüyü işlərə şəxsən şahidəm. ANAMA tərəfindən nəhəng işlər görülüb. Əhalinin mina risklərinə dair maarifləndirilməsi istiqamətində işlərin dəstəklənməsi üçün BMT 2 milyon avro həcmində vəsait ayırıb", - deyən BMT nümayəndəsi Ermənistanı və Azərbaycanı Minalar Əleyhinə Konvensiyaya qoşulmağa dəvət edib.

Piyada Əleyhinə Minaların Qadağan Edilməsi üzrə Beynəlxalq Hərəkatın siyasət və hökumətlərlə əlaqələr üzrə meneceri Kasia Derlika-Rozenbauer təmsil etdiyi kampaniya barədə məlumat verib və yaxın gələcəkdə Azərbaycanın minalardan azad olmuş bir ölkəyə çevriləcəyinə inandığını bildirib. O deyib: "Ümumilikdə dünyada mi-



nalardan təmizlənmə tempi lazımi qədər yüksək deyil. Azərbaycanın Minalar Əleyhinə Konvensiyaya qoşulmasının vaxtı çatıb. Bunun Azərbaycan üçün bir çox öhdəlikləri, eyni zamanda, siyasi faydaları olacaq. Həmçinin sülh quruculuğu prosesinə də müsbət təsir edəcək".

Mina Məsləhət Qrupunun (MAG) kommersiya direktoru Adam Komorovski qısa müddət əvvəl Azər-



baycanla gələcək əməkdaşlığa dair danışıqlar apardığını bildirib. O qeyd edib ki, təmsil etdiyi təşkilat 30 il ərzində 68 ölkədə fəaliyyət göstərib. "Azərbaycanı əraziləri minalardan azad etmək üçün böyük işlər gözləyir. Artıq işlər gedir. MAG-la gələcək əməkdaşlıq ANAMA ilə saziş əsasında aparılacaq", - deyə o vurğulayıb.

BMTM-in İdarə Heyətinin üzvü Esmira Cəfərova ərazilərin minalardan təmizlənməsi məsələsinin ölkə gündəmində əsas məsələlərdən biri olduğunu deyib. Onun sözlərinə görə, Azərbaycan konvensiyanı hələlik imzalamasa da, sazişi dəstəkləyir.

Vebinar sual-cavab sessiyası ilə davam edib.

### *Politoloq:* TÜRKİYƏ VƏ AZƏRBAYCAN ABŞ ÜÇÜN VACİB MÜTTƏFİQLƏRDİR



"Azərbaycan təhlükəsizlik məsələlərində ABŞ-ın etibarlı tərəfdaşıdır. Biz həmişə Ağ Ev administrasiyalarını bu məsələdə dəstəkləmişik, NATO-nun İraq, Əfqanıstan və hətta Kosovodakı missiyalarında iştirak etmişik".

"İki sahil"in məlumatına görə, bu fikirləri "Report"a siyasi analitik Tofiq Abbasov ABŞ qoşunlarının mayda Əfqanıstandan çıxarılmasının başlanmasını və bunun üçün tranzit dəhlizinin verilməsinin mümkünlüyünü şərh edərkən bildirib.

Ekspert, həmçinin Türkiyə ilə Azərbaycanın ABŞ üçün vacib müttəfiq olduğunu vurğulayıb.

"Amerika prezidentinin Azərbaycanın və Türkiyənin maraqlarına vurduğu zərbəyə gəldikdə isə, həqiqət budur ki, Baydenin qondarma "soyqırım"ı tanıması ilə bağlı sözləri tamamilə heç bir məna kəsb etmir və rəsmi şəxsin öz fikridir. Paşinyan, Koçaryan və başqa siyasətçilər "nəhayət ədalət qələbə çaldı" deyəndə, sadəcə "harada qələbə çaldı, nə dəyişdi?" sualını verməк istəyirsən. Bu, (ABŞ-dakı - red.) erməni seqmentinə sadə, şifahi bir avans idi. Bu şifahi dəstəyi maddiləşdirə biləcək mexanizm yoxdur. Amerikalılar Ermənistana tərəf bu cür addımlar atacaq qədər axmaq deyillər", - o bildirib.

"Eyni zamanda, ABŞ-ın Ermənistandakı səfiri bildirib ki, Türkiyə ilə ABŞ arasında münasibətlərdə heç bir dəyişiklik olmayacaq və ola bilməz, çünki onların müttəfiqlik əlaqələri var və ikisi də NATO-ya üzvdürlər. Baydenin açıqlaması erməni xalqının və diasporunun zehniyyətindən başqa heç nəyi dəyişmir. Məsələ ondadır ki, xaricdəki erməni diasporunun nümayəndələri Ermənistan Respublikasında yaşayan erməni xalqını öz maliyyə, siyasi və imic kapitalları üçün alətə çeviriblər", - T.Abbasov qeyd edib.

### ABŞ-da YAŞAYAN SOYDAŞIMIZ KONQRESİN NÜMAYƏNDƏLƏR PALATASI ÜZVLÜYÜNƏ NAMİZƏDLİYİNİ İRƏLİ SÜRÜB




2001-ci ildən ABŞ-da yaşayan həmvətənimiz Ramin Məmmədov Şimali Karolina ştatının 9-cu dairəsindən ölkə Konqresinin Nümayəndələr Palatası üzvlüyünə namizədliyini irəli sürdüyünü elan edib.

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bu barədə Diasporla İş üzrə Dövlət Komitəsi məlumat yayıb. Konqresmen olacağı təqdirdə fəaliyyətində təhsil, infrastruktur, iqtisadi imkanlar, seçicilərin hüquqları, qadın hüquqları, veteranlar, əlçatan səhiyyə və sair sahələrin prioritet təşkil edəcəyini bildirib.

Ramin Məmmədov Miçiqan ştatının Royal Oak-dakı Oakland İcma Kollecində təhsil alıb, Miçiqan Dövlət Universitetini siyasi elmlər və beynəlxalq münasibətlər ixtisası üzrə bitirib. Karyerasına informasiya texnologiyaları sahəsindən başlayan soydaşımız 15 il öncə Şimali Karolina ştatına köçüb. Maliyyə xidmətləri göstərən şirkətlərə mürəkkəb məsələlərin müəyyənləşdirilməsi və həll olunmasına kömək edən keyfiyyət zəmanəti üzrə mütəxəssis kimi çalışır. Ailəlidir, iki övladı var.

Həmvətənimizin apardığı seçkiqabağı kampaniya barədə daha ətraflı məlumatla bu link vasitəsilə tanış olmaq mümkündür.

# Azərbaycan-Pakistan biznes forumu

**Bu gün İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Pakistan Ticarətin İnkişafı Qurumunun (TDAP) təşkilatçılığı ilə videokonfrans formatında Azərbaycan-Pakistan biznes forumu keçirilib.**



"İki sahil" "Report"a istinadən xəbər verir ki, tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, əczaçılıq, tekstil, sənaye, qida sənayesi və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin 90-dan çox nümayəndəsi iştirak



edib.

Tədbirdə iqtisadiyyat nazirinin müavini Rövşən Nəcəf Azərbaycan və Pakistan arasındakı sıx dostluq münasibətlərindən danışıb, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qələbəsini vurğulayaraq, Pakistanın 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın mövqeyini birmənalı dəstəkləməsinin yüksək qiymətləndirildiyini, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb.

Ölkələrimiz arasında həm iqtisadi, həm də digər sahələrdə əlaqələrinin daha da genişləndirilməsi üçün böyük potensial olduğunu diqqətə çatdıran R. Nəcəf işgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin iqtisadi-ticarət əlaqələrinin genişlənməsində əhəmiyyətini vurğulayıb. Bildirilib ki, biznes təşəbbüslərinin stimullaşdırılması baxımından keçirilmiş tədbirlər yeni əməkdaşlıq imkanlarının yaranmasına, regionlararası tərəfdaşlıq sahəsində münasibətlərin inkişafına müsbət təsir göstərəcəkdir.

Azərbaycan-Pakistan iqtisadi əlaqələrinin inkişafı imkanlarından bəhs edən nazir müavini Pakistan iş adamlarını Azərbaycanda yaradılmış biznes mühitindən yararlanmağa, qeyri-neft sektorunun müxtəlif sahələrinə investisiya yatırmağa dəvət edib.

Pakistan İslam Respublikasının federal ticarət naziri Məhəmməd Saleh Əhməd Faruki çıxış edərək Pakistan-Azərbaycan iqtisadi-ticarət əlaqələrinin, qarşılıqlı investisiya əməkdaşlığının önəmini vurğulayıb, postpandemiya dövrü üçün nəzərdə tutulan layihələr, tədbirlər barədə məlumat verib.



Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə ölkələrimiz arasında əlaqələrin inkişafına dair məlumat verib, bu cür tədbirlərin iki ölkənin biznes dairələri arasında əməkdaşlığln genişləndirilməsindəki əhəmiyyətli rol oynayacağını qeyd edib.

Pakistanın Azərbaycandakı Səfiri Bilal Haye iki ölkə arasında ticarət, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlığın həyata keçirildiyini, Pakistan iş adamlarının Azərbaycanda uğurlu layihələr reallaşdırdığını bildirib, iqtisadi əməkdaşlığın inkişafı istiqamətləri barədə fikirlərini bölüşüb.

AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev təmsil etdiyi qurumun fəaliyyətindən bəhs edib, xarici tərəfdaşlarla qarşılıqlı əlaqələrin ge-



nişləndirilməsi, qeyri-neft sektoruna investisiya yatırımın artırılması istiqamətində AZPROMO tərəfindən görülən işlər, Pakistan iş adamları ilə ticarət əlaqələrinin genişləndirilməsi məqsədilə həyata keçiriləcək layihələr dair məlumat verib.

İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı istiqamətində reallaşdırılan tədbirləri, bu sahədə agentliyin fəaliyyətini, eləcə də KOB sahəsində Pakistanın müvafiq qurumları və sahibkarlıq subyektləri ilə əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

Sonda Azərbaycanın və Pakistanın biznes və investisiya mühitinə dair təqdimatlar edilib, iş adamları arasında ikitərəfli görüşlər təşkil olunub.



Las2 Orillas

Enviar Noticia

NOTA CIUDADANA

¿Unesco, ciega, sorda, muda o secuestrada?

"La organización tiene que dejar de andar escondiendo la cabeza como el avestruz y mirar para Azerbaiyán"

Por: **Roberto Trobajo Hernández**
abril 27, 2021

Este es un espacio de expresión libre e independiente que refleja exclusivamente los puntos de vista de los autores y no compromete el pensamiento ni la opinión de Las2Orillas.

*Foto: Cancillería Ecuador - CC BY-SA 2.0*

# Kolumbiya mətbuatı azad olunmuş ərazilərimizdə Ermənistanın törətdiyi dağıntılar və UNESCO-nun fəaliyyətsizliyi barədə yazıb

Kolumbiyanın nüfuzlu rəqəmsal KİV-lərindən olan "Las2Orillas" qəzeti tanınmış jurnalist Roberto Trobaxonun müəllifi olduğu, Azərbaycanın azad olunmuş ərazilərində 30 ilə yaxın işğal müddətində Ermənistan tərəfindən törədilmiş kütləvi dağıntılar və UNESCO-nun erməni vandalizminə laqeyd yanaşmasından bəhs edən "UNESCO kor, kar, lal olub, yoxsa əsirə çevrilib?" sərlövhəli məqalə yayıb.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, yazıda Şuşa, Ağdam, Qubadlı, Zəngilan və digər şəhərlərimizdə Ermənistanın mədəni soyqırımı törətdiyi, bu ərazilərdə dini ziyarətgah, məscid, muzey, arxeoloji yer, məzarlıq və çoxlu sayda digər mədəni və dini abidələri məhv etdiyi bildirilir və bu hərəkətlərin insanlıq əleyhinə cinayət olduğu vurğulanır. Ermənistanın bu addımlarla "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il Avropa Konvensiyası və UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" 1992-ci il Konvensiyasını kobud şəkildə pozduğu, bütün bunların müqabilində isə bu günədək cəzasız qaldığı qeyd olunur.

UNESCO-nun beynəlxalq təşkilat kimi rolunun dünyada tarixi-mədəni və dini abidələrin qorunması olduğu halda, Ermənistanın ötən ilin sonlarınadək işğalda saxladığı Azərbaycan torpaqlarında törətdiyi vandalizmə heç bir münasibət bildirmədiyi, bu müddət ərzində bir dəfə də bu ərazilərə müşahidə missiyası təşkil etmədiyi söylənilir və bu təşkilatın erməni vandalizmi qarşısında səssiz qalmasının təəccüb və hiddət doğurduğu deyilir.

Məqalədə, həmçinin Azərbaycan hökuməti və Heydər Əliyev Fondunun ölkə ərazisində dağıntıya məruz qalmış abidələrin bərpası ilə yanaşı, xaricdə də tarixi-mədəni irsin mühafizəsi istiqamətində fəaliyyət göstərdiyi, bu xüsusda Vatikanda Müqəddəs Marçellinio, Pietro və Sebastian katakombalarının bərpası, eləcə də Notr-Dam kilsəsinin təmiri kimi önəmli töhfələr verdiyi, elmi-mədəni layihələrin həyata keçirilməsi üçün UNESCO-ya maliyyə yardımları göstərdiyi, bu müsbət fəaliyyətin Latın Amerikası regionunda da təzahür etdiyi, bu çərçivədə 2017-ci ildə Qvatemalada qeyri-maddi mədəni irsin qorunması üzrə bacarıqların artırılması ilə bağlı layihə çərçivəsində təlim seminarlarının keçirilməsini maliyyələşdirdiyi bildirilir.

Sonda UNESCO-nun təşkilatdaxili siyasi qərəzin əsirinə çevrilib-çevrilmədiyi sual edilir, qurumun təyinatına uyğun davranmalı olduğu, qeyri-siyasi və tərəfsiz mövqe tutması gərəkdiyi, bu kimi vandalizm hallarına göz yummamalı və tarixi-mədəni irslərin mühafizəsi işinə sadiq qalmalı olduğu deyilir.

*Qurban Yetirmişli:*

# "Metsamor" AES-in yaxınlığından seysmik potensialı 10 bal olan böyük və aktiv tektonik qırılma zonası keçir

**Atom elektrik stansiyaları (AES) insanlar üçün həmişə həyati təhlükə mənbəyidir. Xüsusilə də belə obyektlərin seysmik aktiv bölgələrdə yerləşməsi təhlükəni ən yüksək həddə çatdırır.**

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bunu Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli deyib.



Baş direktor bildirib ki, Ermənistanda yerləşən "Metsamor" AES-in istismar müddətinin çoxdan başa çatması və hazırda işə yararsız olduğu səbəbindən onun bağlanması tələbi ilə Azərbaycanda və digər qonşu ölkələrdə müzakirələr genişlənir. Lakin ermənilər "Metsamor"un təmir olunaraq yenidən fəaliyyətinin davam etdirilməsinin mümkünlüyünü əsaslandırmağa çalışırlar: "Atom elektrik stansiyasının işlədilməsi hər bir dövlət üçün bahalı işdir. Ona görə də Ermənistanın bu stansiyanı nə dərəcədə təhlükəsiz işlətməyə qadir olması sual altındadır. Yaponiya kimi dövlət sunami nəticəsində "Fukusimo" atom elektrik stansiyasının bir neçə blokunun dağılmasıyla üzləşdi. Ermənistan Yaponiya deyil. Ona görə də Ermənistanda istənilən təbiət hadisəsinin "Metsamor"a necə təsir edəcəyini söyləmək çətindir. Ermənistanla qonşu olan dövlətlərin MAQATE-dən "Metsamor"un vəziyyəti barədə hesabat tələb etmək haqqı var. Çünki bir hadisə baş versə, nəticəsi bütün bölgəni əhatə edəcək. "Metsamor" AES üçün ən böyük və qarşısı alınmaz təhlükə isə Ermənistan ərazisində baş verməsi ehtimal olunan güclü zəlzələdir.

Tədqiqatlar göstərir ki, Ermənistan ərazisi Alp - Himalay qırışıqlıq sisteminin tərkib hissələrindən biri olub, Avrasiya və Ərəbistan tektonik plitələrinin kollizion təmas zonasında yerləşir və kifayət qədər yüksək seysmik aktivliklə səciyyələnir.

Seysmik aktiv ərazilərin seysmikliyini şərtləndirən əsas amil orada aktiv tektonik qırılmaların mövcudluğudur. Bu qırılmalar daxilində baş verən təzadlı (kontrast) tektonik hərəkətlər bu və ya digər intensivlikli zəlzələlərlə müşayiət olunur. Ermənistan ərazisində yüksək aktivliklə səciyyələnən Ümumqafqaz və ya endairəsinə yaxın istiqamətli və antiqafqaz və ya meridiana yaxın istiqamətli tektonik qırılma zonaları müəyyən edilib. Sadalanan bütün güclü və həmçinin digər zəif və orta güclü zəlzələlərin hamısı bu tektonik qırılmalarda gedən geodinamik proseslərlə əlaqəlidir.

Məlumdur ki, zəlzələlərin qısamüddətli proqnozlaşdırılması qeyri-mümkündür. Lakin seysmik aktiv ərazilərdə yerləşən dövlətlərin dayanıqlı inkişafını təmin etmək məqsədilə həmin ərazilərin seysmik rayonlaşdırılması - ərazinin seysmik təhlükə səviyyəsinə görə xəritələnməsi işləri aparılır. Seysmik rayonlaşdırma xəritəsinin düzgün tərtib olunması və ya dəqiqləşdirilməsinin ən mühüm şərtlərindən biri potensial güclü zəlzələ ocağı ola bilən seysmiklik törədən zonaların yerinin və seysmik potensialının real qiymətləndirilməsidir. Bu problemin həlli sahəsində aparılan tədqiqatlar əsasən Yer qabığının dərinlik quruluşunun, müasir geodinamikanın, regional seysmikliyin, seysmotektonikanın kompleks və müfəssəl öyrənilməsi məsələlərini əhatə edir. Nəticədə seysmik təhlükə mənbələri olan seysmik cəhətdən aktiv strukturlar, onların əmələ gətirdiyi seysmik effekt və onun məsafədən asılı olaraq sönmə xüsusiyyətləri, həmin aktiv strukturların seysmik rejiminin parametrləri təyin edilir və tədqiq olunan ərazinin hər bir yerində müəyyən zaman intervalında mümkün olan seysmik təsirin maksimal səviyyəsi (balla) qiymətləndirilir.

Keçmiş SSRİ-də, o cümlədən Ermənistan SSR-də seysmik rayonlaşdırma xəritələrinin tərtibində determinist və genetik metodlardan istifadə olunurdu, yəni seysmik təhlükənin qiymətləndirilməsi zəlzələ kataloqlarında olan tarixi və instrumental yolla yazılmış zəlzələlərin əsasında aparılırdı. 1980-ci ildə tərtib olunmuş Ermənistan SSR ərazisinin seysmik rayonlaşdırma xəritəsində burada ehtimal olunan güclü zəlzələlərin əmələ gətirəcəyi seysmik təhlükə səviyyəsinə görə iki - 12 ballı MSK-64 şkalası üzrə 7 ballı və 8 ballı zona ayrılıb.

Qeyd edək ki, Ermənistanda fəaliyyət göstərən "Metsamor" AES-in inşasına bu xəritə tərtib olunandan çox öncə - 1973-cü ildə başlanılıb və xəritə təsdiq olunandan əvvəl -1979-cu ildə istifadəyə verilib. Bu isə onu göstərir ki, stansiya inşa olunarkən onun seysmik təhlükəyə dayanıqlığı ən yaxşı halda 12 ballı MSK-64 şkalası üzrə 8 bala hesablanıb.

1988-ci ildə Ermənistan SSR-in 1980-ci il seysmik rayonlaşdırma xəritəsində 7 bal seysmik təhlükə ilə səciyyələnən Spitak bölgəsində daha güclü 9-10 bal intensivlikli zəlzələ baş verdi. Spitak zəlzələsi zamanı Yer səthində uzun məsafəyə uzanan, enli qırılma çatları əmələ gəldi, 25 minə qədər insan həlak oldu.

Sonrakı dövrlərdə SSRİ-nin seysmik rayonlaşdırma xəritəsinin bir sıra başqa bölgələrində də göstərilən seysmik təhlükə səviyyəsinə adekvat olmayan daha güclü zəlzələlər baş verdi: 12 ballı MSK-64 şkalası üzrə 7-8 bal intensivlikli seysmik təhlükə səviyyəsi ilə səciyyələnən Zaysanda (Qazaxıstan, 1990), Raça-Cavada (Gürcüstan, 1991), Suusamırda (Qırğızıstan, 1992) və Nefteqorskda (Rusiya, 1995) daha güclü (9-10 bal) seysmik təkanlar oldu. 1995-ci ildə Rusiyanın seysmik rayonlaşdırma xəritəsində müəyyən edilmiş seysmik təhlükə səviyyəsindən 2-3 bal yüksək intensivlikli zəlzələnin baş verməsi Neftegorsk şəhərini tamamilə yerləyeksan etdi, çoxsaylı insan tələfatı oldu.

Seysmik rayonlaşdırma xəritələrində seysmik təhlükə səviyyələrinin düzgün təyin olunmaması seysmoloq alimləri, o cümlədən Azərbaycan mütəxəssislərini bu işlərə yenidən baxmağa və xəritələrdə düzəliş etməyə vadar etdi.

1992-1997-ci illərdə GSHAP (Global Seysmik Təhlükənin Qiymətləndirilməsi Proqramı) layihəsi çərçivəsində Qafqaz respublikaları, Türkiyə, İran, Rusiya, Türkmənistan əraziləri daxil olmaqla böyük bir ərazinin seysmik təhlükəliliyi yeni metodik yanaşma əsasında araşdırılıb və qiymətləndirilib.

İlk mərhələdə aktiv tektonik qırılmalar (ocaq zonaları) və onları səciyyələndirən seysmiklik müəyyənləşdirilib. Sonrakı mərhələlərdə bu tektonik qırılmaların əmələ gətirdiyi seysmik effekt və onun məsafədən asılı olaraq sönmə xüsusiyyətləri araşdırılıb və ərazinin hər bir yerində mümkün olan seysmik təsirin maksimal səviyyəsi (balla) qiymətləndirilib.

Tərtib olunmuş aktiv tektonik qırılmalar (lineamentlər) xəritəsindən məlum olur ki, Ermənistan ərazisində İrəvan şəhərinin və "Metsamor" AES-in yaxınlığından böyük və aktiv tektonik qırılma zonası keçir. Bu qırılma zonasının seysmik potensialı Rixter şkalası üzrə M=7,5 və ya 12 ballı MSK-64 şkalası üzrə 10 bal qiymətləndirilir. Qeyd edək ki, 1988-ci ildə baş vermiş zəlzələnin ölçüsü Rixter şkalası üzrə M=7,1 və 12 ballı MSK-64 şkalası üzrə 10 bal qiymətləndirilib.

Bu deyilənlər "Metsamor" AES-in seysmiklik səviyyəsi cəhətdən çox təhlükəli ərazidə yerləşməsini və ehtimal olunan təhlükənin qaçılmaz olduğunu göstərir. Bundan əlavə, burada ehtimal olunan 10 ballı zəlzələnin baş verməsi nəinki AES-də "Çernobıl"dakı kimi bir blokun güclü partlamasına səbəb ola bilər, hətta zəlzələ zamanı Yer səthinə qədər gəlib çıxan qırılma çatlarının təsirindən "Metsamor" tamamilə dağıla bilər. Bu halda mümkün ola biləcək fəlakətin miqyasını təsəvvür etmək belə çox çətindir.

Qeyd olunanlar "Metsamor" AES-in təcili olaraq, heç bir müzakirəsiz və mübahisəsiz bağlanmasına əsas verir. Düşünürəm ki, bölgədə yerləşən Azərbaycan, Gürcüstan, Türkiyə və digər qonşu dövlətlərin alim və mütəxəssisləri MAQATE-ni bu problemə ciddi yanaşmağa sövq etməklə region əhalisini böyük fəlakətdən qurtara bilərlər".

## SERGEY LAVROV AZƏRBAYCANA İŞGÜZAR SƏFƏR EDƏCƏK



Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycana səfər edəcək.

"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə bildirib. O deyib ki, S.Lavrovun mayın 10-11-də Bakıya işgüzar səfəri nəzərdə tutulub.

M.Zaxarova, həmçinin Rusiya XİN başçısının mayın 5-6-da İrəvana da işgüzar səfər edəcəyini bildirib.

## AZƏRBAYCANDA COVID-19-a QARŞI DAHA 15 MİN 465 DOZA VAKSİN VURULUB




Aprelin 29-da Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 15 min 465 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "İki sahil"ə bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 6259, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 9206 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının sayı 1 milyon 471 min 579-a bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 959 min 804, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 511 min 775 nəfərdir.

## KORONAVİRUSA 1392 YENİ YOLUXMA FAKTI QEYDƏ ALINIB




Azərbaycan Respublikasında koronavirus infeksiyasından 2274 nəfər müalicə olunaraq sağalıb, 1392 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "İki sahil"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 29 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 317 min 913 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 287 min 298 nəfər müalicə olunaraq sağalıb, 4490 nəfər vəfat edib. Aktiv xəstə sayı 26125 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 229 min 867 test aparılıb. Aprelin 29-da test sayı isə 11756-dır.

## QEYRİ-NEFT-QAZ SEKTORUNUN ÖZƏL BÖLMƏSİNDƏN VERGİ DAXİLOLMALARI ARTIB



Cari ilin birinci rübündə qeyri-neft-qaz sektorunun özəl bölməsindən 1,1 milyard manat məbləğində vergi daxilolmaları təmin edilib, daxilolmalar 15,8 faiz artıb. Özəl bölmənin qeyri-neft-qaz sektorundan ümumi daxilolmada payı 70,8 faizdən 76,1 faizə yüksəlib.

Dövlət Vergi Xidmətinin Media və kommunikasiya idarəsindən "İki sahil"ə bildirilib ki, qeyri-neft-qaz sektorundan vergi daxilolmalarında proqnozlara nisbətən daha çox yığım əsasən ƏDV, mənfəət və gəlir vergisi üzrə qeydə alınıb. ƏDV daxilolmalarında proqnoza nisbətən 28,1 faiz, mənfəət vergisi üzrə 25,7 faiz, gəlir vergisi üzrə 4,2 faiz, sadələşdirilmiş vergi üzrə 9,4 faiz daha çox vəsait daxil olub.

Ötən ilin eyni dövrü ilə müqayisədə ƏDV üzrə artım 10,1 faiz, aksizlər üzrə 42,6 faiz, mənfəət vergisi üzrə 11,2 faiz, gəlir vergisi üzrə 3,6 faiz, mədən vergisi üzrə 29,3 faiz, torpaq vergisi üzrə 36,2 faiz, əmlak vergisi üzrə isə 3,6 faiz təşkil edib.

## AZƏRBAYCAN ÖTƏN AY POLİPROPİLEN İXRACINI CÜZİ ARTIRIB



Bu ilin mart ayında Azərbaycan xarici ölkələrə 7 milyon ABŞ dolları dəyərində polipropilen ixrac edib.

"İki sahil" "Report"a istinadən xəbər verir ki, bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın 2021-ci ilin aprel sayında bildirilir.

Sənədə əsasən, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 0,3 milyon ABŞ dolları və yaxud 4,5% çoxdur.

2021-ci ilin yanvar-mart aylarında isə Azərbaycan 26,8 milyon dollar dəyərində polipropilen ixrac edib ki, bu da 1 il əvvələ nisbətən 5,7 milyon dollar və yaxud 27% çoxdur.

## Revanşistlərə xatırlatma:

### DƏMİR YUMRUĞUMUZ ÖZ YERİNDƏDİR VƏ DÖVLƏTİMİZƏ QARŞI YÖNƏLƏN İSTƏNİLƏN CƏHDİN QARŞISI QƏTİYYƏTLƏ ALINACAQ



"Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlarımıza növbəti səfəri bu torpaqlarda quruculuq işlərinin həyata keçirilməsinin əyani sübutudur. 28 il işğal altında qalan torpaqlarımızda yenidənqurma işlərinə start verilməsi çox qürurvericidir. İstər Sərhəd Qoşunlarının yeni açılan hərbi hissəsi, istərsə də təməli qoyulan bir çox dövlət obyektləri onu göstərir ki, bu torpaqlara qayıdış tezliklə və yüksək səviyyədə həyata keçiriləcək. Azərbaycanın müttəfiqləri olan dövlətlərin iş adamlarının həmin ərazidə quruculuq işlərinə cəlb olunmasını da çox yüksək qiymətləndiririk. İnanıram ki, dövlətimiz bu torpaqlarımızda insanlarımızın ləyaqətli həyat şəraitini yaxın illərdə yüksək səviyyədə təmin edəcək."

**Bu fikirləri "İki sahil"ə açıqlamasında Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə söyləyib.**

#### İŞĞALÇI ERMƏNİSTANA VƏ HAVADARLARINA ÜNVANLANAN MESAJLAR

A.Əlizadə qeyd edib ki, ölkə rəhbəri azad olunmuş torpaqlarımızda bir çox layihələrin açılışında iştirak edərkən, işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə bir daha ciddi mesajlarını çatdırdı: "Prezident İlham Əliyevin sərhədçilərimiz qarşısında revanşist qüvvələrə mesajı daha çox diqqətimizi çəkdi. Hər belə verilən mesajlarla ermənilərə və onların revanşist çağırışlarını körükləyən qüvvələrə bir daha xatırladılır ki, dəmir yumruğumuz öz yerindədir və dövlətimizə, ərazi bütövlüyümüzə, suverenliyimizə qarşı yönələn istənilən cəhdin qarşısı qətiyyətlə alınacaq."

#### SƏRHƏDLƏRİMİZ YÜKSƏK SƏVİYYƏDƏ QORUNUR

Partiya sədri qeyd edib ki, torpaqlarımızı işğaldan azad etməklə cənub qonşumuz olan İranla sərhəd zolağı da sərhədçilərimizin tabeliyinə keçib, işğal altında olan 132 kilometrlik Azərbaycan-İran sərhədi tam bərpa edilib. Təbii ki, orada yeni infrastrukturun qurulması zərurətə çevrilmişdir: "Bu səbəbdən də sərhəd xidmətinin lazımi səviyyədə həyata keçirilməsi üçün yeni hərbi hissə inşa edilmiş və açılışı Ali Baş Komandan tərəfindən edilməklə sərhədçilərimizin istifadəsinə verilmişdir. Açılış mərasimində bir sıra silahların və hərbi texnikanın nümayiş etdirilməsi, Vətən müharibəsi gedişində həmin silahlardan istifadə edilməklə düşmənə sarsıdıcı zərbələr vurulmasının xatırlanması bir daha Azərbaycan Ordusunun gücünə inam ifadə edilməklə sərhədlərimizin bundan sonra da lazımi səviyyədə xidmət aparacağına əminlik yaradır."

#### AĞALIDAN BAŞLAYAN İLK "AĞILLI KƏND"

Həmsöhbətimiz bildirib ki, işğaldan azad olunmuş ərazilərimizin bərpa-quruculuq işlərinə dövlət qurumları ilə yanaşı yerli şirkətlər və sahibkarların, eləcə də Azərbaycanın müttəfiqi olan dövlətlərin iş adamlarının cəlb edilməsi yüksək qiymətləndirilir: "Məlumdur ki, azad edilmiş ərazilərdə ən yeni texnologiyalara əsaslanan "ağıllı kənd"lər salınması nəzərdə tutulmuşdur və bu istiqamətdə ilk olaraq Zəngilan rayonunun Ağalı kəndində birinci "ağıllı kənd" pilot layihəsinin icrasına başlanılmışdır. Layihəyə cəlb olunmuş xarici şirkətlərin nümayəndələrinin layihə barədə dövlət başçısına verdiyi açıqlamalar, həmçinin Prezidentin bununla əlaqədar yerli sakinlərlə fikir mübadiləsi yaxın illərdə bu torpaqlarda insanlarımıza layiqli həyat şəraitinin qurulacağına inam yaradır."

#### BÖLGƏYƏ LOGİSTİK BAXIMINDAN DA ARTAN DİQQƏT VƏ MARAQ

A.Əlizadə əlavə edib ki, səfər zamanı Zəngilan Beynəlxalq hava limanının təməlinin qoyulmasının da şahidi olduq: "Bu hava limanının inşası ilə Zəngilanın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrilməsi mümkün olacaq ki, bu da ümumilikdə region üçün əhəmiyyətli məsələdir. Bilirik ki, artıq Füzulidə beynəlxalq hava limanı inşa edilməkdədir və bu ilin sonunadək enmə-uçuş zolağı istifadəyə veriləcək. Gələcək perspektivdə Laçın rayonunda da inşa ediləcək beynəlxalq hava limanı Qarabağ və Şərqi Zəngəzur zonasını əhatə edəcək ki, bu da logistika baxımından bölgəyə diqqət və marağı artıracaq. İşğaldan azad olunmuş ərazilərdə yeni yol-nəqliyyat infrastrukturunun yaradılması da əhəmiyyətli məsələdir. Dövlət başçısı Zəngilan-Horadiz avtomobil yolunun təməlini qoymaqla bu prosesə təkan verdi."

#### ERMƏNİ VANDALİZMİNİN QURBANI: MƏSCİDLƏR, TARİXİ VƏ MƏDƏNİ ABİDƏLƏR...

"Ermənilər 30 ilə yaxın müddət ərzində işğal altında saxladıqları ərazilərimizdə təbiətimizə və ekologiyaya ciddi zərər vurmaqla yanaşı, dini və mədəni abidələrimizi də yerlə yeksan ediblər. Zəngilan rayonu Azərbaycanın zəngin təbii ehtiyatları və səfalı təbiəti olan rayonlarımızdandır. İnanırıq ki, aparılacaq bərpa-quruculuq işləri ilə yanaşı ermənilərin digər ərazilərimizdə olduğu kimi, bu bölgədə də etdiyi ekoloji terrorun nəticələri aradan qaldırılacaq. Yaxın dövr ərzində Zəngilan məscidinin, həmçinin bir sıra tarixi və mədəni abidələrimizin bərpası istiqamətində də lazımi işlər görüləcək"- deyə, partiya sədri bildirib.

#### ZƏNGƏZUR DƏHLİZİNİN AÇILMASI STRATEJİ ƏHƏMİYYƏT DAŞIYIR

A.Əlizadənin qənaətincə, bölgədə həyata keçirilməsi gözlənilən vacib işlərdən biri də kommunikasiya xətlərinin açılmasıdır ki, artıq bu işlərə də start verilib. Bu istiqamətdə Horadiz-Ağbənd dəmir yolunun bərpası nəzərdə tutulub ki, bu yolun strateji əhəmiyyətini xüsusi olaraq vurğulayıram. Bu yolun və ardınca da nəzərdə tutulan kommunikasiya xətlərinin açılması ilə Şərqi və Qərbi Zəngəzurun, bununla da Azərbaycanın əsas hissəsinin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvanla və qardaş Türkiyə ilə dəmir yolu və avtomobil yolu vasitəsilə birləşdirilməsinin şahidi olacağıq.

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# Azərbaycan pandemiyaya qarşı qlobal fəaliyyətin səfərbər edilməsi səylərinin önündə gedir

## "Vaksin millətçiliyi" ölkəmizdə narahatlıq doğurur

**Koronavirus infeksiyası ilə mübarizə tədbirlərinin gücləndirilməsi günümüzün əsas tələbi kimi öz aktuallığını qorumaqdadır. Müqayisəli təhlil aparsaq görərik ki, bu gün bütün dünyada koronavirusla bağlı həyəcan təbili çalınır. Statistikaya diqqət yetirək. Dünya üzrə COVID-19 infeksiyasına yoluxanların sayı 150 milyon nəfəri ötüb. ABŞ COVID-19 infeksiyasına yoluxanların sayına görə dünyada liderlik edir.**



Burada koronavirusa 32 milyon 983 min nəfər yoluxub, 588 min 337 nəfər ölüb, 25 milyon 584 mindən çox insan isə sağalıb. Yoluxanların sayına görə ikinci yerdə qərarlaşan Hindistanda 18 milyon 376 min nəfərdə COVID-19 xəstəliyi təsdiqlənib, 204 min 832 nəfər vəfat edib, sağalanların sayı isə 15 milyon 86 min nəfər təşkil edir. Yoluxma göstərici üzrə üçüncü pillədə Braziliya qərarlaşıb. Bu ölkədə pandemiya dövrü ərzində 14 milyon 523 min nəfər virusa yoluxub, onlardan 398 min 343-ü həyatını itirib, 13 milyon 91 min nəfər sağalıb. Virusun yayılma coğrafiyasının genişləndirilməsi əksər dünya dövlətlərində karantin rejiminin sərtləşdirilməsi ilə müşayiət olunur. Belə ki, Türkiyə də daxil olmaqla bir sıra xarici ölkələrdə sərt qapanmaların tətbiqinə başlanılıb.

Dünyada koronavirus infeksiyasının geniş yayıldığı ilk gündən dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə COVID-19 pandemiyasına yoluxmanın qarşısının alınması üçün vaxtında həyata keçirilən çevik, təxirəsalınmaz və zəruri qabaqlayıcı tədbirlər birinci mərhələni az itki ilə başa vurması ilə nəticələndi. Təkmil təcrübənin tətbiqi şəraitində ölkədə xüsusi karantin tədbirlərinin həyata keçirilməsi beynəlxalq səviyyədə də təqdir edildi. Azərbaycan özünütəcridin COVID-19-la mübarizədə əsas şərtlərdən biri olduğunu təsdiqlədi. Sərt karantin rejiminin əsas çağırışı "Evdə qal, sağlam ol!" oldu. Ehtiyac duyulmadığı təqdirdə evdən çıxmamaq, 65 yaşdan yuxarı vətəndaşların evdən çıxmalarına qoyulan qadağalar, onlara sosial xidmətin göstərilməsi, bütün təhsil müəssisələrinin fəaliyyətinin dayandırılması, distant təhsilin həyata keçirilməsi, insanların bir yerə toplaşmasına qoyulan qadağalar və sair məhdudiyyət tədbirləri öz müsbət nəticəsini verdi. Amma bəzən bu arxayınlıqlar virusa yoluxma sayını ifadə edən rəqəmlərdə baş verən artmalarda özünü qabarıq şəkildə büruzə verir. Son günlərin statistikasına diqqət yetirmək kifayətdir. İlk anlarda iki rəqəmlə ifadə edilən yoluxanlar bu gün artıq 4 rəqəmlə diqqət çəkir ki, bu da həyəcan təbilinə rəvac verir.

Artıq mübarizə tədbirlərinin vaksinasiya mərhələsi həyata keçirilir. COVID-19-u həyatımızdan tamamilə çıxarmaq üçün vaksinasiya prosesində iştirak etməklə yanaşı, qaydalara da düzgün riayət etmək əsas tələblər sırasındadır.

Dövlətimizin başçısı İlham Əliyev aprelin 26-da BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxışı zamanı da diqqəti pandemiya ilə mübarizə tədbirlərinə yönəldərək bildirmişdir ki, COVID-19 dünya ölkələrini yeni çağırışlarla üz-üzə qoymuşdur. Azərbaycan hökuməti ilk günlərdən pandemiya ilə mübarizə istiqamətində zəruri addımlar atdı. Koronavirusun iqtisadiyyata təsirinin azaldılması, özəl sektorun dəstəklənməsi, makroiqtisadi və maliyyə dayanıqlığının təmin olunması məqsədilə geniş sosial-iqtisadi paket təqdim edilmişdir.

O da bildirilmişdir ki, yanvar ayından etibarən vaksinasiyaya başlanılıb. Bu günədək 1.4 milyon vaksin istifadə olunmuşdur ki, bu da əhalimizin 14 faizini təşkil edir. Lakin yalnız milli səviyyədə həyata keçirilən səylər dünyada pandemiyanın aradan qaldırılması üçün kifayət etmir. Azərbaycan pandemiyaya qarşı qlobal fəaliyyətin səfərbər edilməsi səylərinin önündə gedir. Belə ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr edilmiş Zirvə toplantısının təşəbbüskarı olmuş və onu uğurla keçirmişdir. Azərbaycanın təşəbbüsü ilə ötən ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirildi. "Vaksin millətçiliyi", vaksinlərin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ədalətsiz bölgüsü Azərbaycanı dərindən narahat edir. Dünyada mövcud vaksinlərin 53 faizi 30-dan çox zəngin dövlət tərəfindən sifariş edilib. Azərbaycan həm Qoşulmama Hərəkatının sədri kimi, həm də milli səviyyədə dünyada vaksinlərin ədalətli bölgüsü və vaksinlərin inkişaf etməkdə olan və ən az inkişaf etmiş ölkələr üçün əlçatanlığının təmin edilməsi istiqamətində mübarizəsini davam etdirmək niyyətindədir.

Onu da qeyd edək ki, bu yaxınlarda BMT-nin İnsan Hüquqları Şurası Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş, ölkələrin vaksinlərə bərabər çıxışı ilə bağlı qətnaməni yekdilliklə qəbul etmişdir.

Dövlətimizin başçısı İlham Əliyev qlobal səviyyədə birliyə, həmrəyliyə, ən əsası məsuliyyətə çağırış etdiyi kimi, ölkə daxilində də bu amillərin COVID-19-a "yox" deməkdə əsas şərtlərdən olduğunu açıqlayır. Ölkə Prezidentinin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bütün müraciətlərində vətəndaş məsuliyyəti ön planda dayanıb. Bir müddət əvvəl müsbət dinamika karantin rejiminin yumşaldılmasını şərtləndirdi. Amma ölkə ictimaiyyətinə bu çağırış edilmişdir ki, müsbət dinamika arxayınçılıq yaratmamalıdır. Unutmamalıyıq ki, kütləvi toplaşmaq hallarına yol vermək olmaz. Maskadan lazımi, tələb olunan şəkildə istifadə olunmalı, sosial məsafə gözlənilməlidir. İctimai nəqliyyatdan istifadə zamanı bütün tələblərə riayət edilməlidir.

Bugünkü statistika deyilənlərin real həyatda öz əksini tapması ilə nəticələndi. Qeyd etdiyimiz kimi, son zamanlar koronavirusa yoluxmuş insanların sayının bəzən üç, bəzən də dörd rəqəmlə ifadə olunması hər birimizin üzərinə böyük məsuliyyət qoymaqla yanaşı, müsbət dinamikanın yaratdığı arxayınlığın hansı fəsadlara yol açdığını nümayiş etdirir. Vəzifəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq hər kəs qanun qarşısında eyni məsuliyyətə malikdir. Cənab İlham Əliyevin daim qeyd etdiyi kmi, heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq qanun qarşısında hamı bərabərdir.

Azərbaycan vətəndaşları bilməlidirlər ki, milli birlik və yüksək məsuliyyət karantin dövrünün əsas tələbidir. Bir məqamı da yaddan çıxarmaq lazım deyil ki, koronavirusla bağlı statistikadan, virusun fəsadlarından təşvişə düşmək, özünə qapanmaq lazım deyil, əksinə, daha mübariz olub, birliyimizlə COVID-19-a "yox" deməliyik! Bunun üçün vətəndaşlardan özünütəcrid tədbirlərinə hər zaman riayət etmək tələb olunur. Məsuliyyəti artırmalı və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərilməlidir. Qələbəyə doğru birgə addımlamalıyıq.

Bu gün də maarifləndirmə tədbirlərinə böyük ehtiyac var. Hər kəs bilməlidir ki, virusa qalib gəlməyin yeganə yolu məsuliyyətli davranmaq, vaksinasiya olunaraq karantin qaydalarına riayət etməkdir. Biz nə qədər karantin qaydalarının pozulmasına qarşı barışmaz olsaq, ətrafımızdakı insanların biganəliyinə qarşı mübarizlik nümayiş etdirsək, ümumbəşəri bəlaya qarşı mübarizədə bir o qədər də tez və yaxşı nəticə əldə etməyə müvəffəq ola bilərik.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# Ad günündə şəhid olan qubalı döyüşçü

**Şəhid Ceyhun Rüstəm oğlu İsayev 2001-ci ildə Qubanın Gültəpə kəndində doğulub. Məktəbi bitirdikdən sonra Quba Tibb Kollecinə qəbul olub. Hərbi xidmətə getmək yaşı çatdığından təhsilini müvvəqqəti dayandıraraq əsgərliyə yollanıb.**






AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılan Ceyhun əvvəlcə Talış kəndinin, Suqovuşanın azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib. Qəhrəman döyüşçü sonradan Füzuli istiqamətində döyüşə qatılıb. Oktyabrın 26-da baş verən şiddətli döyüşdə düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalıb. Həmin gün Ceyhunun 19 yaşı tamam olurdu.

"Ceyhunu 2019-cu ilin oktyabr ayında hərbi xidmətə yola saldıq. Vətən müharibəsi başlayanda döyüşlərə qatıldı. Müharibənin ilk günlərində ondan bir xəbər almadıq. Sonra zəng edib dedi ki, Suqovuşandadır. Vəziyyətinin yaxşı olduğunu, Talış kəndini və Suqovuşanı düşməndən azad etdiklərini söylədi. Səhv eləmirəmsə, bu söhbətimiz oktyabrın 10-da olub. On gün sonra isə Füzulidə olduğunu bildirdi. Sonra danışa bilmədik. Televizorda onun haqqında məlumat verdilər. Proqramda qəhrəmanlıq göstərən döyüşçülərin şəkillərini göstərib, onlar haqqında danışırdılar. Şəkilləri Müdafiə Nazirliyi yaymışdı. Onda bildim ki, oğlum sağ-salamatdır. Oktyabrın 26-da Ceyhunun doğum günü idi. Səhər qardaşı ilə telefonla danışmışdı. Döyüş yoldaşlarının dediyinə görə, elə həmin söhbətdən iki saat sonra Ceyhun şəhidlik zirvəsinə ucalıb", - deyə şəhidin atası Rüstəm İsayev söyləyib.



Ceyhun İsayev Quba Tibb Kollecində I kurs tələbəsi idi. Hərbi xidmətini bitirdikdən sonra təhsilini davam etdirərək həkim olmaq istəyirdi.

Anası Ruhiyyə İsayeva bildirib ki, Ceyhun gülərüz, şən, mehriban övlad idi: "O, mənim həyatımın mənası idi. Çox cəsur övlad olduğu üçün onunla fəxr edirəm".

Şəhidin bacısı Ülkər Qardaşbəyova isə vurğulayıb ki, qardaşı igid, cəsur döyüşçü olub: "Müharibə vaxtı telefonla danışmışdıq. Döyüşlərdə qalib gəldiklərini bildirirdi. Çoxlu arzuları vardı. Kolleci bitirib həkim olmaq istəyirdi. Sevdiyi qız da vardı. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Vətən müharibəsi günlərində Müdafiə Nazirliyi Azərbaycan Ordusunun qələbələrində əməyi olan hərbi qulluqçularımızın bir qisminin fotolarını paylaşmışdı. Oktyabrın 20-də şəkilləri bütün mətbuatımızda yer alan həmin döyüşçülər arasında Ceyhun İsayev də vardı.

"Ceyhun mənim qardaşım, həm də ən yaxın sirdaşım olub. Biz eyni məktəbdə təhsil almışıq. O, mənim dayağım idi. Hamıya qarşı xoşrəftar, ünsiyyətcil idi. Müharibə



vaxtı 4-5 gündən bir əlaqə saxlayırdıq. Sonuncu dəfə mənimlə danışdı. Həmin gün ad günü idi. Təbrik etdim, hal-əhval tutduq. "Məndən narahat olmayın, hər şey yaxşıdır", - söylədi. Amma harada olduğunu demədi. Sonra da eşitdik ki, elə həmin gün döyüşdə şəhid olub. Onun ucaldığı şəhidlik zirvəsi çox yüksəkdir. Qardaşımla fəxr edirəm", - deyə şəhidin qardaşı Elnur İsayev söyləyib.

Şəhid Ceyhun İsayev ölümündən sonra "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunub.



# Co Baydenin saxtakarlığa dəstəyi ABŞ-ın ədalət meyarına dırnaqarası baxdığını nümayiş etdirir

## YALANA QARŞI HƏQİQƏTİ, MƏKRƏ QARŞI SƏMİMİYYƏTİ, TƏCAVÜZƏ, DÜŞMƏNÇİLİYƏ QARŞI GÜCƏ, ƏDALƏTƏ ARXALANAN BİRLİYİMİZİ QOYMALIYIQ

**ABŞ Prezidenti Co Baydenin aprelin 24-də səsləndirdiyi bəyanatında "erməni soyqırımı ifadəsini işlətməsi bu gün nəinki ölkə, dünya mətbuatında geniş müzakirə olunmaqdadır. ABŞ kimi super gücün ədalət meyarını maraqlarının arxasında gizlədərək işğalçı Ermənistana dəstək olması müxtəlif fikirlərin yaranmasına səbəb olur. Dünyaya ədalət, demokratiya dərsi keçən bir dövlətin bu gün belə bir addım atması birmənalı qarşılana bilməz. Qondarma "erməni soyqırımı"nı tanıyan dövlətlərin xronologiyasına diqqət yetirsək, burada Rusiya və Fransanın yer alması daha çox sualların yaranmasına səbəb olan məqamlardır.**

1915-ci il uydurma "erməni soyqırımı"ndan Xocalı faciəsinədək erməni yalanlarına və törətdikləri faciələrə diqqət yetirmək kifayətdir. Fürsət düşən kimi, özlərini "yazıq, məzlum, döyülən və əzilən" millət kimi təqdim edən ermənilərin 106 ilin yalanlarını həqiqət kimi təqdim etmək üçün hansı vasitələrə əl atdıqları məlum olaylardandır. Uydurma "erməni soyqırımı" məsələsi bu günün məsələsi deyil. Ermənilər uzun müddətdir ki, bu mövzu ətrafında özlərinin uydurmalarını yaymaqda davam edirlər. Tarix özü ibrətdən ibarətdir. Tarixdən ibrət götürməyənləri tarix özü cəzalandırır. Ermənilər çox təəssüf ki, tarixdən də ibarət götürmürlər. Çünki tarixdə heç bir yalan həqiqət kimi qəbul oluna bilməz. Bu gün dünya özü də erməni yalanlarını açıq şəkildə görməkdədir. Ermənilərin uydurduğu yalanların faş olunması üçün həm Türkiyədə, həm Azərbaycanda tarixçilər xeyli işlər görüb. Hər zaman Türkiyə-Azərbaycan alimləri birgə konfranslar təşkil ediblər. Eyni zamanda, Türkiyə tərəfi bu məsələ ilə əlaqədar beynəlxalq miqyasda öz mövqeyini dəfələrlə açıqlayaraq Türkiyə arxivlərini açıq elan edib. Bildirilib ki, ermənilərdə də bu məsələ ilə bağlı hər hansı sənəd varsa, ortaya qoyulmalıdır.

Azərbaycan erməni yalanlarının ifşası ilə bağlı davamlı addımlar atıb. 1998-ci ildə azərbaycanlıların soyqırımı ilə bağlı ulu öndər Heydər Əliyevin imzaladığı Fərman ermənilərin zaman-zaman himayədarlarının dəstəyi ilə azərbaycanlılara və türklərə qarşı soyqırımı və deportasiya siyasəti həyata keçirdiklərinə işıq saldı. Tarix saxtakarlığı sevmir, faktlara əsaslanır. Əslində erməni yalanı ilə Türkiyə və Azərbaycan həqiqətlərinin savaşı xeyirlə şərin savaşıdır. Ermənilərin yalan üzərində dayandıqları, saxta tarix yazıb dünyanı öz xülyalarına inandırmaq üçün dəridən-qabıqdan çıxdıqları göz önündədir. 106 ilin yalanını həqiqət kimi qəbul edən ABŞ nə üçün XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının tanınması üçün səy göstərməyib. Dünyanın 13 ölkəsi Xocalı soyqırımını tanıyıb. Xocalıda ermənilərin törətdikləri vəhşiliklər ölçüyəgəlməzdir. Azərbaycan diplomatik mübarizədə qələbəsi ilə döyüş meydanında da Zəfərini stimullaşdırdı. Münaqişənin hərbi yolla həllinin mümkünsüzlüyünü bildirən ATƏT-in Minsk qrupunun həmsədrləri 44 günlük İkinci Qarabağ müharibəsində bir daha bu reallıqla barışmalı oldular ki, münaqişənin hərbi yolla həlli var və buna böyük əminlik yaradan Azərbaycan Ordusunun gücü, qüdrəti, ən əsası tarixi həqiqətlərə əsaslanan təbliğatımızdır. Vətən müharibəsi erməni yalanlarını alt-üst etdi, ədalət meyarını qoruyaraq dünyaya belə bir məfhumun mövcudluğunu çatdırdı.

Qərb dairələrində qondarma "erməni soyqırımı" mövzusu yalnız və yalnız Türkiyəyə təzyiq vasitəsi kimi istifadə olunmaqdadır. Soyqırımı kimin törətdiyi artıq tarixdən bəllidir. Hansısa dövlət 106 il əvvələ qayıdırsa, hər halda 28 il bundan əvvəl baş verən Xocalı soyqırımına ədalətli qiymət versə daha yaxşı olar. Xocalıda, Qarabağda törədilən faciələr yaddaşlardadır. Kimlərsə uydurma soyqırımı ermənilərin təbliğatına əsasən qəbul edirlərsə, onlar tarixi təhrif edir, tarixdən ibrət götürmürlər. Qeyd edək ki, 20-yə yaxın dövlət qondarma "erməni soyqırımı"nı tanıyıb. Belə saxta təbliğata səs verən dövlətlərin sayı ilə Xocalı soyqırımını tanıyan 13 dövlətin tərkibi arasında müqayisə aparsaq, görərik ki, burada məsələ erməni sevgi ilə yanaşı, hər bir dövlətin maraqlarıdır. Baydenin bəyanatı bir daha sübut etdi ki, bu gün dünya heç bir tarixi həqiqətə söykənməyən erməni yalanlarının arxasınca gedir. Hansı ki, ermənilər soyqırıma məruz qalan deyil, soyqırımı törədən xalqdır. 1915-ci ildə Çanaqqala döyüşü baş verdi. Bu döyüşdə məqsəd Osmanlı dövlətini bu yolla məğlub etmək, Osmanlı imperiyasının ərazilərini bölüşdürmək idi. Amma Osmanlı dövlətini Çanaqqala döyüşü ilə məğlub edə bilmədikdə, bu döyüş uğursuzluğa düçar olduqda yenidən erməni kartından istifadə etmək barədə qərar qəbul olundu. Bu gün 1915-ci il hadisələrinə "erməni soyqırımı" kimi qiymət verən ölkələr Birinci Dünya Müharibəsi illərində ermənilərdən bir alət kimi istifadə edən ölkələrdir. 1915-ci ildən başlayaraq Şərqi Anadolu və Azərbaycan ərazilərində erməniləri silahlandırıb Osmanlı dövlətinə qarşı mübarizəyə sövq etdilər. Burda da məqsəd türklərin yaşadığı bu əraziləri təmizləmək və gələcəkdə burada erməni dövlətini yaratmaq idi. 1915-ci ildən 1918-ci ilə qədər və ondan sonrakı dövrdə də Azərbaycan xalqına, türk-müsəlmanlara qarşı soyqırımı törədənlərin maliyyəsini verənlər kimlər idi? Ermənilər himayədarlarının köməkliyi ilə soyqırımı əməllərini gerçəkləşdirirdilər. 1918-ci ildə Bakıda başlanan soyqırımı hadisəsində üç gün ərzində 12 min insan qətlə yetirilib.

Bunlar tarixdir, araşdırmaların nəticəsidir. Ermənilər soyqırıma məruz qaldıqlarını bildirsələr də, heç bir faktı ortaya qoymaq imkanında deyillər. Heç bir fakt olmadan dünyaya öz yalanlarını həqiqət kimi sırımağa çalışan ermənilər ən əsl siması ortadadır.

Beynəlxalq ictimaiyyət ermənilərin uydurma "soyqırımı" iddialarına deyil, Xocalı soyqırımına düzgün qiymət verməlidir. 106 il bundan əvvəl baş verdiyi iddia olunan və heç bir dəlil-sübutu olmayan "erməni soyqırımı" ilə bağlı Avropa və Qərb dövlətləri bəyanat verir, amma 28 il bundan qabaq törədilən Xocalı soyqırımına dünya susur. Türkiyə və Azərbaycan zaman-zaman eyni taleyi yaşayıb. Türkiyənin Azərbaycanla ortaq mədəniyyəti olduğu kimi, həmişə ortaq acı və xoş taleyi bölüşüb. Azərbaycan dünyaya sülh mesajı ünvanlayır. Azərbaycanın Vətən müharibəsində tarixi Qələbəsindən sonra, eyni zamanda, müharibənin getdiyi dövrlərdə dövlətimizin başçısı İlham Əliyev xarici mətbuata müsahibələrində, xalqa müraciətlərində daim ermənilərlə sülh şəraitində yaşamaqdan bəhs edir.

Erməni yalanları ilə əlaqədar istər Türkiyədə, istər Azərbaycanda, istərsə də Azərbaycan və diaspor təşkilatlarının fəaliyyət göstərdiyi dövlətlərdə mütəmadi olaraq bu məsələləri qaldırmalıyıq. Erməni yalanlarını sübuta yetirməli və tarixi faktları ortaya qoymalıyıq. Fakt bundan ibarətdir ki, ermənilərə qarşı heç bir soyqırımı olmayıb. Bu, yalandır və iftiradır. Bugünkü reallıq isə odur ki, artıq bir sıra dövlətlər qondarma "erməni soyqırımı" ilə bağlı öz qərarlarını veriblər. Hətta bəzi dövlətlər, o cümlədən Fransa öz vətəndaşlarına "soyqırımı"nı tanımadıqlarına görə cinayət işi açırlar".

Erməni yalanlarına dəstək olan dünyanın gücləri unudurlar ki, bununla dünyada bir etimadsızlıq mühiti yaradırlar. Bu kimi addımlar güclü Türkiyəyə təsir mexanizmi ola bilməz. Gec-tez həqiqət öz yerini tutacaq. Dünya dövlətlərinin, beynəlxalq təşkilatların ermənilərin yalanlarına şərik olmaları doğrudan da dünyanın hüquq problemini yaşadığını nümayiş etdirir. Azərbaycan və Türkiyə diaspor təşkilatlarının birgə fəaliyyəti daha da gücləndirilməlidir. Qondarma "erməni soyqırımı" yalanın kökündə insanlığa qarşı ideologiya dayanır. İnsanlar, xalqlar arasında düşmənçilik toxumu səpmək kimi məkrli məfkurə bu ideologiyanın əsasını təşkil edir. Azərbaycanlılara qarşı törədilən və Azərbaycan torpaqlarının 20 faizinin işğalı ilə nəticələnərək 30 ilə yaxın dövrdə həllini gözləyən və 44 gündə tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsinin kökündə də yalan və qondarma əsasında qurulmuş "erməni soyqırımı" ideologiyası dayanır.

Erməni yalanı yalnız Azərbaycana və Türkiyəyə qarşı çevrilmiş yalan deyil. Bu yalanların üzərində təcavüzlər qurulur. Bu yalanlar dövlətlər arasında münasibətlərə bir saxtalıq, gərginlik gətirir. Bütövlükdə beynəlxalq həyatın normal prinsiplər əsasında fəaliyyət göstərməsini çətinləşdirir. Bu, Ermənistan-Türkiyə, Ermənistan-Azərbaycan münasibətləri çərçivəsindən çıxaraq ümumbəşəri mahiyyət kəsb edir. Belə olan təqdirdə dünyaya ədalət çağırışımızı daha da dərinləşdirməliyik. Dünyanın hər yerində istər türklər, istər azərbaycanlılar, istər mütərəqqi düşünən hər bir insan kimliyindən asılı olmayaraq bu uydurma ideologiyaya qarşı mübarizə aparmalı, ona "yox" deməlidir. Haqsızlığa qarşı bəşəriyyətin, ayrı-ayrı xalqların və onların müvafiq qurumlarının, parlamentlərin öz haqq səslərini ucaltmaq əvəzinə ona şərik olmaları ikrah hissi doğurur.

Bütün məsələlərdə, o cümlədən qondarma "erməni soyqırımı" məsələsinin həllində Azərbaycan daim Türkiyənin yanındadır və sərt mövqeyini ortaya qoyur. Co Baydenin məlum bəyanatından sonra dövlətimizin başçısı İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığında bildirildi ki, bu qərar tarixi səhvdir. Azərbaycan Xarici İşlər Nazirliyinin, ölkədə fəaliyyət göstərən siyasi partiyaların bəyanatları ümumilikdə iki dost, qardaş ölkənin münasibətlərinin aydın mənzərəsini yaradır. Hadisələrə ən böyük dəyəri zaman özü verir. Ermənilərin saxta "erməni soyqırımı" iddialarına da son qoyulacağı gün uzaqda deyil. Yalan ayaq tutar, amma yeriməz. Baxmayaraq ki, ermənilər və erməni diasporu bu gün bəzi dövlətlərin maraqlarından irəli gələrək bu saxta soyqırımın tanıdılmasına nail olublar, bunun da müvəqqəti xarakter daşıdığı şəksizdir. Bunun üçün yalana qarşı həqiqəti, məkrə qarşı səmimiyyəti, təcavüzə, düşmənçiliyə qarşı gücə, ədalətə arxalanan birliyimizi qoymalıyıq. Dövlətimizin başçısı İlham Əliyev daim bütün türk dünyasına "Gücümüz birliyimizdədir" çağırışını ünvanlayır.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

## BAKI ALİ NEFT MƏKTƏBİNDƏ LAYİHƏLƏRİN İDARƏEDİLMƏSİ MƏKTƏBİNİN YENİ QRUPUNA QEYDİYYAT BAŞLAYIR

Bakı Ali Neft Məktəbində Layihələrin İdarəedilməsi Məktəbinin (SPM) yeni qrupuna qeydiyyat başlayıb.

Bu proqram dünyanın ən məşhur və nüfuzlu universitetlərindən biri olan ABŞ-ın Şimali Karolina ştatının Dyuk Universiteti ilə birgə həyata keçiriləcək.

İlk dərs 21-23 may 2021-ci il tarixində baş tutacaq.

**Məzunlar nə əldə edəcəklər?**

*- 7 Modul üzrə Dyuk Universiteti tərəfindən verilən beynəlxalq sertifikat*

*- İlk 3 modulu bitirdikdən sonra Dyuk Universiteti tərəfindən verilən beynəlxalq "Foundational Certificate in Project Management" sertifikatı*

*- Tam bitirdikdən sonra Dyuk Universiteti tərəfindən verilən beynəlxalq "Professional Certificate in Project Management" sertifikatı*

*- Kursu bütün modullar üzrə bitirən məzunlar adlarının qarşısına PMP və ya PhD kimi DCPM, yəni "Duke Certified Project Manager" initsiallarını əlavə edə biləcəklər.*

Dəyişən dünyada tam müasir standartlar əsasında hazırlanmış proqram yeni biliklərlə yanaşı, mövcud bilikləri sistemləşdirməklə ingilis dili səviyyəsini də təkmilləşdirmək imkanı təqdim edir.

Yeni proqrama "Managing projects", "Scheduling and cost control", "Risk management", "Agile&Lean", "Project leadership", "Management and communication", "Contract management", "Negotiations skills for project managers" və ya "PMP exam preparation" kimi modullar daxildir.

**Əlaqə üçün: 050-843-30-62**
**n.shirinova@spm.az**
**Nərmin Əhmədova**

# XİN-lər arasında siyasi məsləhətləşmələr keçirilib



**Aprelin 29-da Azərbaycan Respublikası və Portuqaliya Respublikasının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin ikinci raundu idarə rəisləri səviyyəsində videokonfrans formatında keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "İki sahil"ə bildiriblər ki, məsləhətləşmələr zamanı Azərbaycan və Portuqaliya arasında ikitərəfli əlaqələr nəzərdən keçirilib, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, təhlükəsizlik, regional və digər maraq kəsb edən məsələlər müzakirə olunub. Portuqaliyanın Avropa İttifaqı Şurasına hazırkı sədrliyi nəzərə alınaraq, həmçinin Azərbaycanın Aİ ilə əməkdaşlığı məsələləri üzrə fikir mübadiləsi aparılıb.

Müzakirələr zamanı yüksək səviyyəli qarşılıqlı səfərlərin həyata keçirilməsinin, eləcə də parlamentlərarası əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər, pandemiya ilə bağlı məhdudiyyətlər aradan qaldırıldıqdan sonra, siyasi məsləhətləşmələrin növbəti raundunun əyani şəkildə keçirilməsini razılaşdırıblar.

# Peyvəndlənmə: COVID-19-dan qorunmanın ən təsirli vasitəsi

Azərbaycan ötən ilin sonlarından etibarən bütün dünyanı vahiməyə salan koronavirusla mübarizədə ciddi nailiyyətlər əldə edib. Prezident İlham Əliyev respublikamızda koronavirusa qarşı mübarizə tədbirlərinə başlanıldığı ilk gündən COVID-19 pandemiyasına qarşı mübarizə ilə bağlı bütün dövlət qurumları qarşısında konkret vəzifələr qoyub. Ölkəmizdə bu gözəgörünməz bəlanın qarşısının alınması, insanların sağlamlığının mühafizəsi, sosial sabitliyin qorunması, iqtisadiyyatın davamlılığının təmin olunması üçün zəruri addımlar atılıb. Dövlət başçısı, eyni zamanda, sosial şəraitin qorunması, işsizliyin səviyyəsinin aşağı salınması, özünüməşğulluğun təmin olunması ilə bağlı 2020-ci il 19 mart tarixli müvafiq Sərəncam imzalayıb. Sərtləşdirilmiş karantin rejiminə keçidlə əlaqədar olaraq əhalinin gəlirlərini itirən işsiz təbəqəsinə 190 manatlıq birdəfəlik yardımlar edilib. Həmçinin sahibkarlara subsidiyalar, maliyyə kompensasiyaları şəklində dövlət dəstəyi gücləndirilib.




Bu gün dövlətimizin başçısının tapşırığı və nəzarəti ilə koronavirusun ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlərin ardıcıl həyata keçirilməsini təmin etmək üçün bütün zəruri addımlar atılır. Hazırda koronavirus pandemiyasının qarşısının alınması məqsədilə respublikamızın bütün bölgələrində əhalinin peyvənd olunması kampaniyası uğurla həyata keçirilir. Ölkəmizdə COVID-19 infeksiyasına qarşı mübarizə məqsədilə əhalinin peyvənd olunması prosesinin yüksək keyfiyyətlə təşkil edilməsi üçün bütün zəruri tədbirlər görülüb. "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq bu ilin əvvəlindən etibarən əhalinin peyvəndlənməsinə başlanılıb. Peyvəndləmə üçün ayrılmış tibb məntəqələrində qeydiyyat, peyvənd və postvaksinal-gözləmə otaqları yaradılıb. Bütün otaqlar zəruri tibbi və gigiyenik avadanlıqlarla təchiz edilib. Artıq əhalinin vaksinasiya olunmasında operativliyin təmin edilməsi məqsədilə rayonlarda bir sıra ərazilərdə səyyar məntəqələr yaradılıb. Xəstəxanaya gəlmək imkanı olmayan vətəndaşlara səyyar xidmət göstərilir. Ölkəmizdə 2021-ci lin yanvar ayından başlayan vaksinasiya prosesi uğurla davam edir. Bu günədək 1.4 milyon vaksin istifadə olunub ki, bu da əhalimizin 14 faizini təşkil edir. Azərbaycan bu sahədə atdığı uğurlu addımlarla vəziyyəti nəzarətdə saxlamağı bacaran azsaylı ölkələr sırasındadır.

Şübhəsiz, bütün bunlar, koronavirus pandemiyasına qarşı daha effektli mübarizə məqsədilə görülən tədbirlər, tətbiq olunan qaydalar təkcə dövlət orqanlarının deyil, ümumilikdə bütün cəmiyyətin, hər bir vətəndaşın üzərinə böyük məsuliyyət qoyur.

Sirr deyil ki, sərtləşdirilmiş karantin rejimi restoranların, iri ticarət mərkəzlərinin, təhsil, səhiyyə, turizm, idman və digər sahələrin fəliyyətini iflic edir, insanların dolanışığına, rifah halına və sosial-psixoloji vəziyyətinə mənfi təsir edir. Belə ki, uzun müddət davam edən sosial izolyasiya, iqisadi çətinliklər, tənhalıq, stress insanlarda dərin narahatlıq hissləri yaradır, onların sağlamlığına ağır zərbələr vurur. Bütün bunların baş verməməsi üçün karantin rejiminə ciddi əməl etməli, maska taxmalı, sosial məsafəni gözləməli, ictimai yerlərdə dezinfeksiyaedici vasitələrdən istifadə etməli, ən başlıcası isə ölkəmizdə uğurla davam edən vaksinasiya prosesində fəal iştirak etməliyik. Çünki təhlükəli infeksiyaya qarşı ən təsirli qorunma üsulu gigiyenik qaydalara əməl etməklə yanaşı, həm də peyvənddir. Həmçinin ictimai borcunu layiqincə dərk etməyən, məsuliyyətsizlik, intizamsızlıq nümayiş etdirənlərə qarşı mübariz olmalı, virusun yayılması üçün ideal məkan olan ictimai nəqliyyatda bütün lazımi qaydalara əməl edilməsi üçün, necə deyərlər, hər birimiz ictimai nəzarətçiyə çevrilməliyik. Məhz bu yol ilə müşahidə edilən vətəndaş məsuliyyətsizliyinin, intizamsızlığının qarşısını almaq və virusa yoluxma tempini azaltmaq üçün əhalinin sağlamlığını daim diqqətdə saxlayan hökumətin atdığı qabaqlayıcı addımları dəstəkləmiş, əsl vətəndaşlıq mövqeyi göstərərək hazırda dünyanın amansız bəlasına çevrilən COVID-19 pandemiyasına qarşı mübarizəyə öz töhfəmizi vermiş olarıq.

**Zahid Rza,**
***"İki sahil"***

# 2500 m hündürlüyü olan "israf dağı"

## Bu gün dünyada istehsal edilən qidanın üçdə biri (30 faizi) süfrəyə gəlmədən zibilliyə atılır



Hazırda dünyada 8 milyarda yaxın insan yaşayır. İldə isə 4,5 milyard ton ərzaq istehsal olunur. Dünyanın ərzaq istehsalı bəşəriyyəti asanlıqla doyduracaq səviyyədədir, hətta 50 faiz artıq istehsal var. Yəni hər il 10 milyard insanı qida ilə təmin edəcək ərzaq istehsal olunur. XXI əsr texnologiyası bütün bəşəriyyəti qidalandırmağa kifayət edəcək səviyyədədir. Amma XIX əsr iqtisadçıları bunun tam əksini müdafiə edirdi. Başda Tomas Maltus olmaqla həmin dövrün "mütəfəkkirləri" insan sayının həndəsi silsilə ilə artdığını, ərzaq məhsullarının isə ədədi silsilə ilə azalacağını və bu səbəbdən ac qalmamaq üçün əhali artımının qarşısını almağın vacibliyinə dair iddia ortaya atmışdı. Heç bir elmi əsasının olmamasına baxmayaraq, Maltusun bu məhdud resurslar nəzəriyyəsi uzun illər müstəmləkəçiliyin əsas ideologiyası oldu. Onun fikrini qəbul edənlər ölkələri işğal etməyi, hərbi təzyiqlə istismar etməyi və çox vaxt da aclığa məhkum etməyi bu şəkildə rasionallaşdırdılar.

XX əsrdə Con Maynard Keyns (John Maynard Keynes) kimi ingilis iqtisadçılar Maltusun nəzəriyyəsini tətbiq etməyə çalışdılar. Əsrin ikinci yarısındakı neft müharibələrinin səbəbi də bu təbliğat idi. 1970-ci illərdə dünyanın neft ehtiyatlarının 2020-ci illərdə tükənəcəyinə dair yüzlərlə xəbər dərc edildi, "elmi" hesabatlar hazırlandı. Bu gün artıq məlumdur ki, istehlakın artmasına baxmayaraq, yerin altı hələ uzun illər kifayət edəcək qədər qalıq yanacaqları ilə doludur. Bu zaman sual yaranır ki, niyə dünya əhalisinin 12 faizi aclıq həddindən də aşağı yaşayır? BMT-nin Dünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına əsasən, bu gün dünyada 850 milyon insan aclıq çəkir. Bu gün dünyada ən zəngin 1 faiz insanla ən kasıb 50 faiz insan eyni sərvətə malikdir. Yəni aclığın və yoxsulluğun birinci səbəbi sərvətlərin ədalətli və ya ən azından bir-birinə yaxın şəkildə bölüşdürülməməsidir. Ən zəngin 80 nəfərin sərvətinin milyardlarla insandan, onlarla ölkədən çox olduğu dünya ədalətsizliyin artıq ən son həddə olduğunun göstəricisidir.

Dünyadakı aclığın ikinci səbəbi isə israfdır. Hazırda dünyanın kiçik bir hissəsi resursların əksəriyyətini israf edərək istehlak edir. Dünyada hər il ümumi ərzaq istehsalının üçdə biri zibilliyə atılır. Yəni istehsal edilən qidanın 30 faizi istifadə edilməmiş tullanılır. 1 trilyon dollar dəyərindəki bu israfın 70 faizi inkişaf etmiş ölkələrin payına düşür. Qərb dünyasında hər insan ildə 110 kq yemək israf edərkən Afrikada bu rəqəm 9 kq-dır. İnkişaf etmiş ölkələrdə yeməklər evlərdən, restoranlardan və supermarketlərdən zibilliyə atılır, inkişaf etməkdə olan ölkələrdə isə daşıma və saxlama problemlərinə görə məhv olur. Bəşəriyyət olaraq istehsal etdiyimiz tərəvəz və meyvənin 45 faizini, balıq məhsullarının 35 faizini, çörəyin 30 faizini, ət və süd məhsullarının 20 faizini zibilə atırıq. Bu 3 km diametri və 2500 m hündürlüyü olan "israf dağı" deməkdir.

ABŞ təkbaşına hər gün 141 trilyon kalori dəyərindəki ərzağı zibilliyə atır. Bu qidanın illik dəyəri 155 milyard dollara bərabərdir. Yəni Afrika qitəsinin illik idxalının 4 misli qədər yemək təkcə Amerika xalqı tərəfindən israf edilir. Burada istehsal edilən qidanın 40 faizi yeyilmir. Avropa İttifaqında isə ildə 140 milyard avro dəyərindəki 90 milyon ton qida küçəyə atılır. Təkcə İngiltərədə ildə 17 milyon ton yemək israf edilir. İngilis xalqı kahının 38 faizini, çörəyin 23 faizini, yemişin 26 faizini zibilə atır. Fransada adambaşına ildə 20-30 kq qida tullanılır. Bunun 7 kq-nın paketi belə açılmır. Bu israf 12-20 milyard avro deməkdir. Bu miqdarın yoxsulluqla mübarizə aparan hər hansı bir Afrika ölkəsi üçün necə böyük bir miqdar olduğunu xatırlatmağa ehtiyac yoxdur. Bir sözlə, dünyada israfın miqdarı təəccüb doğuracaq dərəcədə böyükdür.

Qurandakı "...Yeyin-için, lakin israf etməyin. Çünki (Allah) israf edənləri sevməz." (Əraf surəsi, 31) İsraf uca Rəbbimiz tərəfindən qəti şəkildə haram edilməsinə baxmayaraq, bu sahədə həddi aşan bəzi İslam ölkələrinin vəziyyəti ayrı bir məqalə mövzusudur. Məsələn, "The Economist" saytında yerləşdirilən bir araşdırmanın nəticələrinə görə, dünyada həddindən artıq israfın 87 faizi 25 ölkəyə aiddir və ən çox yemək israfı isə Səudiyyə Ərəbistanı vətəndaşları tərəfindən edilir. İqtisadiyyat mütəxəssisləri hesab edir ki, Səudiyyə rejimində yeməyin zibilə atılması bu iqtisadiyyata milyonlarla dollar ziyan vurur və yemək artıqlarının zibilə atılması ətraf mühit üçün də böyük bəladır.

Bəs görülən tədbirlər israfın qarşısını alırmı? Tədbirlər əlbəttə ki, çəkindiricilik baxımından təsirli olur. Lakin israf bəlasının yer üzündən silinməsi ancaq insanların eqoizm və acgözlüklərini tərk etmələri ilə mümkün ola bilər.

**Sevinc Azadi,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR)

## Kompleks Qazma İşləri Tresti

**Mexaniki emal alətlərinə olan tələbatını təmin etmək məqsədi ilə təşkil olunmuş 26072-20 nömrəli açıq satınalma müsabiqəsinin davamından imtina edilməsi haqqında**

| 26072-20 | |
|---|---|
| Satınalma müqaviləsinin predmeti | Mexaniki emal alətləri |
| **İmtinanın səbəbləri** | *Mexaniki emal alətlərinin açıq müsabiqə üsulu tətbiq olunmaqla satın alınması üçün 22.01.2021-ci il tarixdə açıq müsabiqə elan olunmuş, müsabiqə təklifi zərflərinin açılışı 24.02.2021-ci il tarixə təyin edilmişdir. Müsabiqədə iştirak etmək üçün cəmi 2 (iki) şirkət tərəfindən müraciət daxil olmuşdur. Yetərsayın olmaması səbəbindən müsabiqə təklifi zərflərinin açılışı tarixi 23.02.2021-ci il tarixdə 10.03.2021-ci il və 12.03.2021-ci il tarixdə 02.04.2021-ci il tarixlərədək uzadılmışdır. Görülmüş bütün tədbirlərə baxmayaraq müsabiqədə iştirak etmək üçün əlavə müraciət daxil olmamışdır. Satınalma prosesinin bilərəkdən uzadılmasının nəticəsi olmadığını nəzərə alaraq 26072-20 nömrəli açıq satınalma müsabiqəsinin davamından imtina edilmişdir.* |

# Narkomaniya sosial təhlükə kimi




***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən də narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi istiqamətində müntəzəm olaraq tədbirlər həyata keçirilir. Komitənin təşkilatçılığı ilə paytaxtın ictimai yerlərində, eləcə də, ictimai nəqliyyatda narkotik vasitələr, psixotrop maddələrin yaratdığı fəsadlardan bəhs edən maarifləndirici poster və bannerlər nümayiş etdirilir. Komitə tərəfindən aşkarlanan və ya dövlət qurumuna edilmiş müraciətlər əsasında özünün, yaxud ailə üzvlərinin narkotik asılılıqdan əziyyət çəkdiyini bildirən şəxslərlə iş aparılır, onların müalicəyə cəlb edilməsi ilə bağlı müvafiq tədbirlər görülür.***

Ölkəmizdə narkotiklərin qanunsuz dövriyyəsi ilə səmərəli mübarizə üsullarının müəyyənləşdirilməsi, habelə narkomanlığın müalicə metodlarının təkmilləşdirilməsi istiqamətində əsaslı qanunvericilik tədbirləri həyata keçirilib, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq münasibətləri qurulub.

Komitənin nəzdində fəaliyyət göstərən Şüvəlan, İsmayıllı, Ağdam, Göygöl, Goranboy, Saatlı, Sabirabad, Hacıqabul, Zaqatala, Zərdab, Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın müvafiq bəndlərinə əsasən narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə ictimaiyyətin məlumatlandırılması istiqamətində elektron materiallar hazırlanaraq internetdə yerləşdirilib, mütəxəssislər, valideyn, müəllim və şagirdlər üçün maarifləndirici, profilaktik tədbirlər həyata keçirilib. Ümumilikdə 500 nəfərin iştirakı ilə təşkil olunan tədbirlər COVID-19 pandemiyası ilə mübarizə məqsədilə ölkədə tətbiq olunan xüsusi karantin rejimi ilə əlaqədar onlayn qaydada icra edilib. Həyata keçirilən layihələr çərçivəsində iştirakçılara elektron maarifləndirici materiallar təqdim olunub. Bununla yanaşı yeniyetmələr arasında sağlam həyat tərzinin təbliği, zərərli vərdişlərin mənfi nəticələri barədə “Sağlam həyat tərzi. Ziyanlı vərdişlərin insan sağlamlığına təsiri”, “Pandemiya dövründə sağlam həyat tərzinin vacibliyi”, “Sağlam həyat tərzi. QİÇS-dən qorunma yolları” adlı onlayn tədbirlər keçirilib. Ümumilikdə tədbirlərdən 360 nəfər tələbə və müəllim faydalanıb.

Uşaq hüquqlarının təmin edilməsinə dair ölkədə ümumi vəziyyətin təhlili, uşaq hüquqlarının qorunması sahəsində irəliləyişlərin və çatışmazlıqların nəzərdən keçirilməsi, aktual problemlərin həlli istiqamətində təkliflərin hazırlanması, yetkinlik yaşına çatmayanların maraqlarının qorunması və sağlam həyat tərzinin təbliği istiqamətində həyata keçirilən tədbirlərin nəticələrinin üzə çıxarılması məqsədilə Komitə tərəfindən uşaq hüquqlarının təmin edilməsinə dair respublika üzrə 2018-ci və 2019-cu illərin analitik məlumatlarını özündə əks etdirən infoqrafikanın da yer aldığı ətraflı, müqayisəli hesabat hazırlanıb.

Biz ümid edirik ki, mütəşəkkil qaydada aparılan işlər yaxın gələcəkdə öz müsbət nəticələrini verəcək və sağlam həyat tərzi yalnız gənclərin deyil bütün insanların rutininə çevriləcəkdir.

✍ **Günel Nağdəliyeva,**
*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Uşaq problemləri şöbəsinin böyük məsləhətçisi*

# Şəhidlər behiştin zəvvarlarıdır



**Qısa tanıtım:** *Əli Turac oğlu Quliyev 22 oktyabr 2001-ci ildə İran İslam Respublikasının müqəddəs Məşhəd şəhərində dünyaya göz açıb. İbtidai təhsilini Məşhəd şəhərində Camiətul-Mustafa adı ilə tanınan mədrəsədə alıb. Sonra ailəsi ilə birlikdə öz doğma dədə-baba yurduna - Masallı rayonunun Böyük Kolatan kəndinə köçüb. 6-cı sinifdən təhsilini şəhid Simran Rzayev adına Böyük Kolatan kənd tam orta məktəbində davam etdirib. 2019-cu ildə orta təhsilini başa vurub. 2020-ci ildə Vətənə əsgəri borcunu yerinə yetirmək üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yerləşən “N” saylı hərbi hissədə xidmətə başlayıb.*

*27 sentyabr 2020-ci ildən etibarən başlayan və 44 gün davam edən II Qarabağ müharibəsində Füzuli və Xocavənd istiqamətində gedən qanlı döyüşlərdə iştirak edib və düşmənin bir neçə postunun ələ keçirilməsində böyük şücaət göstərib. Düşmənə sarsıdıcı zərbələr vuran igid əsgər oktyabr ayının 26-dan 27-nə keçən gecə şiddətli döyüşlər zamanı ağır yaralanır və qəhrəmancasına şəhid olur. Şəhidin nəşi 29 oktyabr tarixində Böyük Kolatan kəndində torpağa tapşırılır.*

*Prezident İlham Əliyevin sərəncamları ilə Əli Turac oğlu Quliyev ölümündən sonra “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.*

### “ŞƏHADƏTGAH”DA OXUNAN AZANIN HİKMƏTİ

Ata-anası Əlini beləkdə ikən müqəddəs ziyarətgaha aparıb, İslam ənənəsinə görə, orda onun qulağına tanınmış islam alimi Ustad Musaviyə azan və iqamə oxutduraraq Əli adını qoymuşlar. 4-5 yaşlarında ailəsi ilə birlikdə Kərbəlanı ziyarət etmişdir. Mədrəsədə oxuduğu beş il ərzində Əli özü də dünyəvi elmlərə yanaşı mükəmməl dini təhsil də alıb, uşaq yaşlarından idmanın taekvondo növü ilə ciddi məşğul olan qəhrəmanımız Məşhəd şəhərində iki dəfə yeniyetmələr arasında keçirilən çempionatın qalibi olmuşdur.

...Qəhrəmanımız hərbi xidmətə başladığı ilk gündən dinə olan sevgisi ilə əsgər yoldaşlarının, bölük komandirinin rəğbətini qazanmışdı. Ramin adlı əsgər yoldaşı yazır ki, Əli dini kitabları mütaliə etməyi çox sevərdi, hər cümə axşamı avazla Qurandan “Yasin” surəsini oxuyardı. “Ramazan ayı Əli oruc tutmağın fəzilətləri haqqında söhbət açanda üç əsgər yoldaşımızla onunla birlikdə oruc tutduq. Az sonra bölük komandiri də bizə qoşuldu... Tam 3 ay birlikdə olduq. Bir yerdə namaz qılırdıq.” Ordudan tərxis olunandan sonra Əli ilə hər iki gündən bir əlaqə saxlayan Ramin son dəfə onunla oktyabrın 24-də danışdığını bildirir. “Atışma səsləri gəlirdi, amma mənə yerini söyləmədi.”

### “UŞAQ VAXTI ƏLİYƏ OYUNCAQ SİLAH ALMIŞDIM...”

Vətən müharibəsi başlayandan onunla çiyin-çiyinə bir taqımda döyüş yolu keçən Müşfiq adlı silahdaşı oktyabrın 26-da düşmən tərəfindən minomyot və artilleriya atəşinə tutularkən meşəyə çəkildiklərini bildirir: “Çox yorğun və susuz idik. Meşəyə girəndən sonra artilleriya atəşi səngidi. Ağacların arasından dərin bir çay keçirdi. Suyu bulanıq olsa da içib, bir az dincəldik.” Sonra döyüş tapşırığını yerinə yetirmək üçün taqımın döyüşçüləri iki qrupa ayrılır. İrəli gedəndə əsgər yoldaşına Əli deyir ki, əgər şəhid olsam, şəhadətim İmam Hüseyn əleyhissəlamın ələmdarı Həzrət Əbəlfəzl - Abbas ağanın şəhadətinə bənzəyəcək. Hədisi-şəriflərdə buyurulur ki,




Allah dərgahında Əbülfəzl ağanın uca məqamına qiyamət günü bütün şəhidlər qibtə edərlər...

Orxan adlı döyüşçü yoldaşı isə Əlinin qumbaraatan silahıyla düşmənə ağır itkilər verdiyindən bəhs edir. Əlinin düşmənin başına, sığınacaqlarına od yağdıran silahından söz düşəndə əmisi İsfəndiyar kövrələrək deyir: “Bir dəfə uşaq vaxtı, Əliyə oyuncaq silah almışdım. Dedi əmi, sən mənə bu silahın adam öldürənindən al. Soruşdum ki, Əli sən adamöldürən silahı neynirsən? Cavab verdi ki, düşmənlərimizi öldürəcəm... Əlinin məndən istədiyi silah ona dövlətimiz tərəfindən verildi, o da bacardığı qədər həmin silahla düşmənin canlı qüvvəsini, döyüş texnikasını məhv etdi...”

### “ƏLİ CƏSUR OĞUL İDİ...”

Bu sözləri bizə döyüşlərdə öz dəbilqəsini könüllü döyüşçülərdən birinə verən Əli barədə Masallı rayonunun Xırmandalı kəndindən olan əsgər yoldaşı Məftun Ceyhun oğlu dedi. Hələ Ağcabədidə 3 aylıq karantində olanda Əli ilə Məftun əsgər kəmərlərini yadigar olaraq bir-birləri ilə dəyişmişdilər... Döyüş başlayanda ermənilər atışa-atışa geri çəkilirdilər. Əli son nəfəsinədək mənfur düşmənə vuruşur. Füzuli rayonunun yuxarı Veysəlli kəndi uğrunda döyüşlərdə düşmən tərəfindən güclü artilleriya atəşi nəticəsində taqımın 4 döyüşçüsü ilə birlikdə Əli də şəhadətə qovuşur. Düşmən üzərində tarixi Qələbədən sonra Məftun Əlinin yadigar kəmərini gətirib onun atasına verir: “Bu, qəhrəman şəhidimiz Əlinin mənə yadigar verdiyi kəmərdir. Çox heyif ki, bizim yoldaşlığımızın ömrü də Əlinin ömrü kimi qısa oldu.”

Həmin kəməri şəhid oğlunun xatirəsinə bəzədilmiş guşədə saxlayan Kərbəlayı Turac göz yaşları içərisində danışır: “Əli evlə danı-



şanda içimiz rahat olsun deyə müharibədə iştirak etdiyini bizə bildirməzdi. Şəhid olandan sonra döyüş yoldaşlarının söhbətlərindən bildik ki, Əli bir ay ağır döyüşlərdə olub... Düzdür, ölüm hamı üçündür, tezigeci isə təqdiri-İlahidir. Amma ən qısa ömrü də keyfiyyətlə yaşamaq gərəkdir. Ölümlərin ən şərəflisi olan şəhidlik hər adama nəsib olmur...”

19 yaşlı Əlinin şəhadəti adi ölüm olsaydı, bəlkə ata-anası üçün onun itkisi daha çətin və əzablı olardı. Lakin kövrəlib, için-için ağlasalar da, şəhid atası-anası olduqları üçün daxillərindəki ağrı-acıların sinə gərirlər.

Şəhid əsgərimizin yas mərasimi təkcə ata-baba ocağında deyil, ölkədən kənarda da keçirilib. Yeddi mərasimində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində yaşayan soydaşlarımız onun ruhuna ehsan verib, dualar oxutdurublar. Məzarının ziyarətinə uzaq şəhərlərdən gəliblər. Məşhəd şəhərində yaşayan mədrəsə yoldaşları telefonla ata-anasına başsağlığı verib, səbr diləyiblər. Böyük Kolatan kəndinin küçələrindən birinin şəhid Əli Quliyevin adını daşıması barədə təşəbbüs irəli sürülüb. İdman yarışlarında aldığı kubok Masallı rayon Tarix-diyarşünaslıq muzeyində saxlanılır. Bakıda S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının sinif otaqlarından biri şəhid Əli Quliyevin adını daşıyır. Atasının dediyinə görə paytaxtın Xətai rayonunda Mübariz Nəcəfov adına 86 saylı tam orta məktəbində Əli Quliyevin xatirə guşəsi yaradılacaq. Hal-hazırda Dövlət Sərhəd Xidmətinin “N” saylı hərbi hissədə xidmətdə olan qardaşı Məhəmməd Əlinin vaxtilə yaratdığı “İnstagram” hesabını elə onun öz adı ilə idarə edir... Bir sözlə, şəhid Əli Quliyevin yarımçıq qalan ömrü neçə-neçə insanın ömründə yaşayır...

Biz də öz növbəmizdə şəhidin xatirə guşəsinə qoymaq üçün Tehranda nəşr olunmuş “Adəm və Həvva” kitabımızı atasına hədiyyə edib, Allahdan Əliyə və bütün şəhidlərimizə rəhmət dilədik. Vətənin qəhrəman oğullarını unutmadıq, unutmayacağıq, unutdurmayacağıq!..

✍ **Nurəddin Muğanlı,**
***“İki sahil”***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azəriqaz" İstehsalat Birliyi

**qaynaq çubuğuna olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (29017-21) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
İştirak haqqının ödənilməsi barədə bank sənədi;
Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).
Müsabiqə təklifinin təminatı (ayrı zərfdə).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 27.05.2021-ci il, Bakı vaxtı ilə saat: 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Satınalınan mallar üzrə müsabiqə təkliflərinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və iki surəti olmaqla 02.06.2021-ci il, Bakı vaxtı ilə saat: 15:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Müsabiqə "Bağlı Zərf" prinsipi ilə yanaşı "iki zərf prinsipi" ilə həyata keçiriləcək. Müsabiqə təklifi ayrı-ayrılıqda maliyyə və texniki təklifdən ibarət olmaqla iki ayrı zərfdə təqdim edilməlidir. Zərflərin üzərində müvafiq olaraq, "MALİYYƏ TƏKLİFİ" və "TEXNİKİ TƏKLİF" sözləri qeyd edilməklə imzalanıb, möhürlənməlidir. İlkin olaraq, texniki təkliflər açılacaq, texniki rəydən uğurla keçmiş iddiaçıların maliyyə təkliflərinə baxılacaqdır.
* Texniki və maliyyə təklifləri eyni zərfdə təqdim etmiş İddiaçıların təklifləri qəbul edilməyəcəkdir.
* Təklifi təqdim edən və ya geri götürən İddiaçının nümayəndələri tərəfindən etibarnamə təqdim edilməlidir və şəxsiyyətini təsdiq edən sənəd üzərində olmalıdır.
* İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az 30 dəqiqə öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. Satınalınan mallar üzrə iştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər satınalınan mallar üzrə 236.00 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Bank rekvizitləri

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
EUR
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120
$-USD
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

AZ23IBAZ38110018269306332120 (GBP)

İŞTİRAK HAQQI HEÇ BİR HALDA QAYTARILMIR

***IV. Təminatlar:***

**Müsabiqə təklifinin təminatı:**

*I. İddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1%-i miqdarında təminat tələb olunur.*

*II. Bank təminatlarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Təminatı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

**Avans ödənişinə görə təminat:**

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

**Müqavilənin yerinə yetirilməsi təminatı:**

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***V. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin 45 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Təltif olunacaq müqavilə üzrə icazə verilən maksimum avans həddi müqavilə dəyərinin 30%-dən çox olmamalıdır.***

***VII. Satınalan təşkilatın ünvanı:*** AZ1025; Bakı şəhəri; Xətai rayonu; Yusif Səfərov küçəsi, 23

**Əlaqələndirici şəxs:** Hüseynova Nigar
"Azəriqaz" İB-nin Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
+994 12 521-00-00 (daxili 29-164)
nigar.huseynova@socar.az

***VIII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices

***IX. Satınalınan mallar üzrə müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 03.06.2021-ci il tarixdə, Bakı vaxtı ilə 12:00-da elanın VII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

Texniki təkliflərin nəticəsinə uyğun olaraq, müsbət texniki rəy almış iddiaçıların maliyyə təklifləri, iddiaçılara göndəriləcək bildirişdə qeyd olunacaq tarixdə onların iştirakı ilə online qaydada açılacaqdır.

***X. Satınalınan mallar üzrə müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azəriqaz" İB-nin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Partlayışdan mühafizəli elektrik mallarının tələbatını təmin etmək məqsədi ilə açıq (iki mərhələli) satınalma müsabiqəsi (25042-21) elan edir.**

***Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır)

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 25.05.2021-ci il, Bakı vaxtı ilə saat: 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***I. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

Müsabiqənin texniki təklifi bir əsli və 1 surəti olmaqla ən geci 01.06.2021-ci il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalmalar qrupuna təqdim olunmalıdır. Müsabiqə təklifi ayrı-ayrılıqda maliyyə və texniki təklifdən ibarət olmalıdır. Müsabiqə zərflərinin açılışı günü yalnız texniki təkliflər zərflərdə qəbul ediləcəkdir. Müsabiqə təkliflərinin açılışı iki mərhələli formada yerinə yetiriləcəkdir. Yəni texniki təkliflər möhürlənmiş zərfdə qəbul edildikdən sonra ilk olaraq texniki təkliflərin qiymətləndirilməsi aparılacaqdır. Texniki qiymətləndirmə bitdikdən sonra iddiaçılar müvafiq vaxt təyin edilərək Maliyyə sənədlərinin təqdim edilməsi üçün satınalan təşkilata dəvət olunacaq, əsas şərtlər toplusunun texniki tələblərinə cavab verməyən təklif təqdim etmiş İddiaçıların maliyyə təklifləri qəbul edilməyəcək. Texniki və maliyyə təklifləri eyni zərfdə təqdim etmiş İddiaçıların təklifləri qəbul edilməyəcəkdir.

-Təklifi təqdim edən və ya geri götürən İddiaçının nümayəndələri tərəfindən etibarnamə təqdim edilməlidir və şəxsiyyətini təsdiq edən sənəd üzərində olmalıdır.
-İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
-Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
-İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***II. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər müsabiqə üzrə 944 manat ƏDV ilə və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta (USD,EUR) ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR

Beneficiary Bank: The International Bank of Azerbaijan Republic
Customer Service Department
SWIFT: İBAZAZ2X
Nizami str., 67
Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ23IBAZ38110018269306332120

Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department
SWIFT: İBAZAZ2X
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account \ IBAN AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR

***I. Müqavilənin icra müddəti və çatdırılma ünvanı:***

Satınalma müqaviləsinin yerinə yetirilməsi 90 gün müddətinə tələb olunur.
Satın alınan malların çatdırılmalı olduğu ünvan / və ya təyinat məntəqəsi:
Bakı şəhəri, Əbilov küçəsi 3, Zığ bazası

**Müsabiqə təklifinin təminatı:**

- İddiaçı 30000 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta (ABŞ dolları və ya Avro) məbləğində müsabiqə təklifinin qüvvədə qalması üçün bank təminatı təqdim etməlidir

Bank qarantiyalarının əsli müsabiqənin maliyyə təklifi zərfi ilə birlikdə ayrı zərfdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.

-Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

-Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.

-Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

* *Müsabiqə üzrə nəzərdə tutulmuş avans məbləği təklifin dəyərinin 30%-dək olması tövsiyyə edilir.

*Nəzərinizə çatdırırıq ki, müsabiqə təklifi üzrə təqdim edilən avans məbləği 50%-dən yuxarı olan təkliflər SOCAR-ın Satınalmalar Komitəsi tərəfindən təsdiq edilmiş qərara əsasən qəbul edilə bilər.

***Satınalan təşkilatın ünvanı:*** AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:** Bəhruz Rzayev
Satınalmaların təşkili şöbəsinin böyük mühəndisi
Telefon nömrəsi: +994 12 521-00-00/25136
Mobil nömrəsi: +994 50 292 80 92 , +994 50 842 51 36
Elektron ünvan: bahruz.rzayev@socar.az

***II. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***III. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Texniki zərflərin açılışı 01.06.2021-ci il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanda baş tutacaqdır. Texniki təkliflərin nəticəsinə uyğun olaraq, müsbət texniki rəy almış iddiaçılara göndərilmiş bildirişdə qeyd olunmuş tarixdə maliyyə təklifləri təqdim olunduqdan sonra onların iştirakı ilə açılacaqdır.

***IV. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

# İKİ SAHİL
VAHİD AZƏRBAYCAN UĞRUNDA!

Son səhifə

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 76 (7812) / Cümə, 30 aprel 2021-ci il






## TOYOTA ŞİRKƏTİNDƏN "AĞILLI ŞƏHƏR" "WOMEN CİTY"

"Japan Times"in verdiyi məlumatlara görə, məşhur "Toyota" şirkəti fevralın 23-də Fujiyama dağının ətəyində "ağıllı şəhər" "Woven City"nin təməlatma mərasimini təşkil etmişdir. Deyilənlərə görə, şəhər robototexnika və yeni texnologiyaların sınaq meydanına çevriləcək.

"Toyota" şirkətinin işçiləri də daxil olmaqla həmin şəhərin 360 nəfərə qədər sakini olacaq. Zamanla şəhər əhalisinin 2000 nəfərə çatdırılması planlaşdırılır.

"Toyota" şirkəti bu layihəni muxtar vasitələrin, robotların, "ağıllı evlər"in, süni intellektin, yaşıl enerjinin və digər texnologiyaların gerçək bir mühitdə sınaqdan keçiriləcəyi bir "canlı laboratoriya" adlandırır. Karbon səviyyəsini minimuma endirmək üçün şəhərin binaları əsasən ağacdan hazırlanacaq və bu tip evlər sakinlərin sağlamlığını qorumaq üçün inşa ediləcək.

Şəhərin əsas dizayneri danimarkalı memar Bjarke Ingelsondu.

## "BOSTON DYNAMİCS" YENİ BİR ROBOTUNU TƏQDİM ETDİ

2021-ci ilin mart ayının sonunda şirkət, anbarlarda və istehsal mərkəzlərində istifadə üçün xüsusi olaraq hazırlanmış ilk ticarət modeli olan "Stretch" robotunun buraxılışını elan etdi. Çox funksiyalı "Stretch" robotu əsasən daşıyıcı rolunu oynayır və qarşısına qoyulan əşyaları bir yerdən digər yerə tez və səliqəli şəkildə daşıyır. Robot 2022-ci ildə satışa çıxarılacaq. Onu sifariş etmək istəyənlər əvvəlcədən sifarişi rəsmi "Boston Dynamics" veb saytına göndərməli olacaqlar. Hələ də onun dəqiq dəyəri barədə məlumat yoxdur.

## "SEGWAY APEX H2" PƏRƏSTİŞKARLARI ÜÇÜN YÜNGÜL MOTOSİKL

"Tron" filmindəki velosipedləri xatırlayırsınız? Güclü, şık, neon işıqlarla əhatə olunmuş bu velosipedlər tamaşaçıların böyük marağına səbəb olmuşdur. "Segway" şirkəti futuristik nəqliyyatına çox bənzər bir motosikl yaratdılar. " Segway APEX H2" modelinin bir prototipi artıq təqdim edilmişdir. Səs-küylü motosikl bikerlər tərəfindən çox sevildi. Qeyd edək ki, yeni motosikl hidrogen hibrididir. Onun qiyməti təxminən 10.000 dollar olacaq. Kütləvi istehsalın ümumi bazara çıxarılması 2023-cü ilə planlaşdırılır.

## "FACEBOOK"DAN VR BİLƏRZİK

"Facebook" istifadəçi üçün klaviatura, siçan, joystick və digər giriş cihazlarını əvəz edəcək xüsusi qolbaqla birlikdə VR eynəklərdən istifadə etməyi təklif edib. Əlbəttə ki, həmin qolbaqlardan siqnal ötürmə sürəti tam istədikləri qədər güclü olmasa da, bu versiya İlon Mask tərəfindən təklif olunan çiplərdən daha yaxşıdır.

## "MYHERİTAGE" TƏRƏFİNDƏN CANLI ŞƏKİLLƏR

Bu yaz "MyHeritage" platforması fotoları qısa animasiyalara çevirməyə imkan verən yeni tətbiqi təqdim etdi. Burada istifadə olunan effektlər Harri Potterin sehrbazlıq aləmində hərəkət edən şəkillərə bənzəyəcək. Görüntülər xüsusi proqramda işləndikdən sonra fotoşəkildə olan şəxs başını tərpədib, gülümsəyib və hətta gözlərini qırpa biləcək. Çoxları, əsasən də yaxınlarını itirən insanlar onların təbəssümünü yenidən görmək fürsəti üçün yaradıcılara təşəkkür edəcəklər.

**Samirə Tağıyeva,**
***"İki sahil"***

# Qanda xolesterol artıqlığını göstərən yeganə əlamət

Rusiyalı həkim-terapevt Qeorqi Sapeqo qanda xolesterol artıqlığının nəyə görə təhlükəli olduğunu və hansı simptomlarla özünü göstərməsi haqqında məlumat verib.

Mütəxəssisin fikrincə, xolesterol kimyəvi tərkibinə görə "pis" və "yaxşı" ola bilər.

"Pis xolesterol beyin, ürək, bağırsaq və ya ayaqdakı damarlara zərər verən aterosklerozu sürətləndirir. Bütün bu bədən hissələri ciddi şəkildə təsirlənə bilir. Yaxşı xolesterol isə əksinə, aterosklerozun inkişafına mane olur",-deyə həkim Sputnik radiosuna açıqlayıb.



Sapeqo qeyd etdi ki, testlər olmadan "pis" xolesterol səviyyəsindəki artıqlığı müşahidə etmək çox çətindir, çünki bu, yalnız damarların aterosklerozdan ciddi şəkildə təsirləndiyi zaman ortaya çıxır. Simptomlara, məsələn, şiddətli sinə və ayaq ağrısı, nəfəs darlığı və ani zəiflik də aid ola bilər.

Buna baxmayaraq, ilk növbədə yaşlı insanlar üçün xarakterik olan yüksək xolesterolun bir xarici əlaməti də var. Bu ksantelazmadır: göz qapaqlarının dərisinin altında yağlı sarımtıl ləkələr əmələ gəlir. Bunlar mikroskopik nöqtələr deyil, açıq şəkildə görünən ləkələrdir, tonal krem damcılarına bənzəyir. Ksantelazma qanda xolesterolun yüksək olduğunu göstərir.

Həkim uşağında belə törəmələr görən valideynlərə onu mütləq müayinəyə aparmağı tövsiyə edib.

Təbii vasitələr içərisində darçının qanda xolesterol səviyyəsini tənzimlədiyini, metabolizmanı sürətləndirməyə kömək etdiyini söyləyən həkim yeməklərdə mütəmadi istifadə zamanı karbohidratların qanda qlükoza səviyyəsindəki dəyişikliklərə təsirinin 20% azaldığını xüsusi vurğulayıb.

**Nubar Süleymanova,**
***"İki sahil"***

## Amerikalı alimlər koronavirus zamanı dadbilmənin itməsinə münasibət bildiriblər

**Koronavirus infeksiyası zamanı əksər insanlarda dadbilmə itir və ya təhrif olunur. Bunun nə üçün baş vediyini amerikalı alimlər araşdırıblar.**

**ABŞ-ın Yaşlıların Problemləri İnstitutunun tədqiqatçıları insanlarda bir neçə min dad reseptoru aşkar ediblər. Həmçinin mütəxəssislər koronavirus xəstələrinin dil**



**papillərindən nümunələr götürüblər. Xəstələrdə dilin dibində ölçünün böyüməsi və qızartılar müşahidə ediblər.**

**Alimlər müəyyənləşdiriblər ki, dilin arxasındakı reseptor hüceyrələri ACE 2 fermentinə malikdir. Məhz onlar virus üçün "darvaza" rolunu oynayırlar. Patogenin dad reseptorlarında replikasiyası xəstəliyin aktiv fazasında dadbilmənin itməsinə və ya dəyişməsinə səbəb olur.**

**N.Süleymanova,**
***"İki sahil"***




İsrail və Kanadalı tədqiqatçılar Cənubi Afrikadakı möcüzə mağarada təxminən 2 milyon il əvvəl istehsal olunmuş daş alətləri aşkar ediblər.

"İki sahil" xəbər verir ki, kül izlərinin də olduğu mağaranın dünyanın ən qədim evi ola biləcəyi ifadə edilib. Cənubi Afrikanın Kalahari səhrasında yerləşən məşhur arxeoloji sahə olan Wonderwerk mağarasında arxeoloji qazıntılar davam edir. Mağarada uzun müddət qazıntı aparan İbrani Qüds Universiteti və Toronto Universitetindən bir qrup geoloq və arxeoloq, Afrika dilində "möcüzə" mənasını verən yeraltı mağarada insan fəaliyyətinin ən erkən dəlillərinin tapıldığını açıqlayıb. Onlar daş alətləri, heyvan qalıqlarını və tarixdən əvvəlki həyatın digər izlərini ehtiva edən 2,5 metr qalınlığında çöküntü qatlarını analiz edib. Daha sonra çöküntü nümunələrinin maqnit siqnalları ölçülüb. Bu kəşf çöküntü qatlarının yaşını və tərkibini müəyyənləşdirməyə kömək edib. Bölgədə çalışan arxeoloqların verdiyi açıqlamada, 1.8 milyon il əvvələ aid sadə daş alətlərin və mağarada 1 milyon il əvvəl ocaq yandırıldığına dair dəlillərin olduğu ifadə edilib. Afrikanın digər bölgələrində daha qədim daş alətlərə rast gəlinsə də, yeni kəşfin açıq hava sahəsinin əksinə bir mağarada edildiyi üçün çox əhəmiyyətli olduğu bildirilib.

Açıq havada aşkarlanan oxşar kül izləri təbii meşə yanğınlarının nəticəsi olaraq şərh edilərkən, mağaranın içərisindəki kül qalıqlarının içəridə yanğın çıxdığına dair bir dəlil olaraq əhəmiyyətli olduğu ifadə edilib. Digər tərəfdən İsrail mətbuatı da mağaranı "bəşər tarixindəki ən qədim ev" olaraq xarakterizə edib.

**Vüsal Cahanov, *"İki sahil"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Ali Məktəbin Biznesin İdarəedilməsi Mərkəzinin (MBA) müdiri Rövşən Budaqova, əzizi

**Zeynəb xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


Təsisçi: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**
Baş redaktorun I müavini: **İsmayıl Hacıyev**
Baş redaktorun müavini: **Anar Miriyev**
Baş redaktorun müavini: **Rəşad Bağırov**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:**
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb:
30.04.2021-ci il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **5913**
*İndeks:* **0151**, *Sifariş:* **781**

Qəzetdə ***"AZƏRTAC", "Trend", Report, SİA, "OLAYLAR"*** informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.